**AZƏRBAYCAN RESPUBLIKASI**
**MƏDƏNIYYƏT VƏ TURIZM NAZIRLIYI**

**M.F.AXUNDOV adına**
**AZƏRBAYCAN MILLI KITABXANASI**

# ƏLAMƏTDAR VƏ TARIXI GÜNLƏR TƏQVIMI

## 2008-ci il

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik tövsiyələr*

Mədəniyyət və Turizm Nazirliyi nəzdində Koordinasiya Şurasının 2007-ci il ……. tarixli …. nömrəli protokolu ilə çapa tövsiyə olunub

**BAKI – 2007**

*REDAKSIYA HEYƏTI:*

**Baş redaktor və buraxılışa məsul:** *K.M.Tahirov*

**Baş redaktorun müavini:** *F.H.Məmmədov*
*ped.elm.namizədi*

**Məsul katib:** *N.Ə.Alışova*

*«Əlamətdar və tarixi günlər təqvimi»: 2008-ci il /Baş redaktor: K.Tahirov. - B., 2007.- 183s.*

**© M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası, 2007**

*Yanvar*

Cərrah, professor Əliyeva Tamara Abbas qızının anadan olmasının (01.01.1928) 80 illiyi

Şərqdə ilk Azərbaycan operası olan «Leyli və Məcnun»un (12.01.1908) 100 illiyi

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, M.F.Axundov adına Respublika mükafatı laureatı, rejissor Kazımov Tofiq Səməd Mənsur oğlunun anadan olmasının (14.01.1923) 85 illiyi

Oftalmoloq, professor Quliyeva Zəhra Tahir qızının anadan olmasının (18.01.1923-28.11.2004) 85 illiyi

Azərbaycanın ilk maarifçi qadınlarından biri olan Məmmədquluzadə-Cavanşir Həmidə xanım Əhmədbəy qızının anadan olmasının (19.01.1873-6.02.1955) 135 illiyi

**Azərbaycan Respublikası Dövlət gerbinin təsdiq olunmasının (19 yanvar 1993-cü il) 15 ili**

**Ümumxalq Hüzn Günü (20 Yanvar)**

Ədəbiyyatşünas, şair, dilşünas, mətnşünas, professor Bəkir Çobanzadə Vahab oğlunun anadan olmasının (21.01.1893-18.04. 1938) 115 illiyi

Nasir, şair, etnoqraf, professor, akademik Bünyadov Teymur Əmiraslan oğlunun anadan olmasının (20.01.1928) 80 illiyi

Maarif xadimi, ədəbiyyatşünas, publisist, tərcüməçi Köçərli Firidun bəy Əhməd bəy oğlunun anadan olmasının (26.01.1863-20.05.1920) 145 illiyi

Ingilis şairi Corc Bayron Noel Qordonun anadan olmasının (22.01.1788-19.04.1824) 120 illiyi

Fransız yazıçısı Anri Mari Beyl (Stendalın) anadan olmasının (23.01.1783-23.03.1842) 225 illiyi

Rus aktyoru və rejissoru Vladimir Semyonoviç Vısotskinin anadan olmasının (25.01.1938-25.07.1980) 70 illiyi

Yazıçı, tərcüməçi Zeynalova Səyyarə Balaəli qızının anadan olmasının (29.01.1933) 75 illiyi

## *Fevral*

**Gənclər Günü (2 fevral)**

SSRI Xalq artisti, SSRI Dövlət mükafatı laureatı, Lenin mü-kafatı laureatı, M.F.Axundov adına Respublika mükafatı laureatı, bəstəkar, pedaqoq, ictimai xadim, bəstəkar Qarayev Qara Əbülfəs oğlunun anadan olmasının (05.02.1918-13.05. 1982) 90 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair, dramaturq, Səfərli İslam Əhməd oğlunun anadan olmasının (12.02.1923-6.11.1974) 85 illiyi

Rus yazıçısı Krılov İvan Andreyeviçin anadan olmasının (13.02.1769-21.11.1844) 240 illiyi

Şair, dramaturq Vəliyev Əliağa Həsənağa oğlunun (Əliağa Kürçaylı) anadan olmasının (20.02. 1928-11.02.1980) 80 illiyi

Beynəlxalq Ana Dili Günü (21 Fevral)

Azərbaycanın Əməkdar elm xadimi, Əməkdar müəllim, tənqidçi, ədəbiyyatşünas, akademik Qasımov Feyzulla Səməd oğlunun anadan olmasının (22.02.1898-29.03.1976) 110 illiyi

«Qızıl qələm», «Məmməd Araz», «Nəcəf Nəcəfov», Ümumittifaq N.Ostrovski mükafatları laureatı, şair, publisist Sərxanlı Səyavuş Əli oğlunun anadan olmasının (23.02.1943-2005) 65 illiyi

Fransız yazıçısı Jül Vernin anadan olmasının (08.02.1828-24.03. 1905) 180 illiyi

Rus yazıçısı Mixalkov Serqey Vladimiroviçin anadan olmasının (27.02.1913) 95 illiyi

Azərbaycan yazıçısı Əmirov Cəmşid Cabbar oğlunun anadan olmasının (10.02.1918-29.12. 1982) 90 illiyi

**Xocalı Soyqırımı Günü (26 Fevral)**

Coğrafiyaçı, publisist, professor, akademik Budaqov Budaq Əbdüləli oğlunun anadan olmasının (28.02.1928) 80 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Məmmədxanlı Ənvər Qafar oğlunun anadan olmasının (29.02.1913-19.12.1990) 95 illiyi

Ukrayna yazıçı-pedaqoqu Makarenko Aleksandr Serqeyeviçin anadan olmasının (01.03.1888-01.04.1939)120 illiyi

Italyan bəstəkarı, skripkaçı, dirijor və pedaqoq Vivaldi Antonioninin anadan olmasının (04. 03. 1678-28.07.1741) 330 illiyi

Rus yazıçısı Polevoy Boris Nikolayeviçin anadan olmasının (04.03.1908-12.07.1981) 100 illiyi

Azərbaycanın Xalq rəssamı, Əməkdar incəsənət xadimi, Nasir adına Beynəlxalq mükafatı laureatı Salamzadə Salam Əbdülqasım oğlunun anadan olmasının (07. 03.1908) 100 illiyi

**Beynəlxalq Qadınlar Günü (8 Mart)**

**Milli Teatr Günü (10 Mart)**

Azərbaycan Akademik Milli Dram Teatrının yaradlımasının (10. 03. 1873) 135 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, Xalq şairi Novruzov Cabir Mirzəbəy oğlunun (Cabir Novruz) anadan olmasının (12.03. 1933-12.12.2002) 75 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Rzayev Anar Rəsul oğlunun anadan olmasının (14.03.1938) 70 illiyi

Tənqidçi, ədəbiyyatşünas Əlizadə Samət Qürbət oğlunun anadan olmasının (14.03.1938-31.03. 2002) 70 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi, şair-aşıq Yusifov Islam (Aşıq Islam) Qara oğlunun anadan olmasının (15.03.1893-07.12.1968) 115 illiyi

Azərbaycanın Əməkdar incəsənət xadimi Qocayev Şəmşir Qurban oğlunun (Aşıq Şəmşir) anadan olmasının (15.03.1893-10.02.1980) 115 illiyi

Azərbaycanın Xalq yazıçısı, «Qızıl qələm» mükafatı laureatı, «Qızıl sünbül» ədəbi mükafatının laureatı, nasir, dramaturq Balakişiyev Mövlud (Mövlud Süleymanlı) Süleyman oğlunun anadan olmasının (18.03.1943) 65 illiyi

Azərbaycan şairi və dramaturqu Kələntərli Kələntər Şıxkərim oğlunun anadan olmasının (20.03. 1933) 75 illiyi

**Novruz Bayramı (20-21 Mart)**

Azərbaycanın Xalq artisti Ağayev Əliağa Ismayıl oğlunun anadan olmasının (22.03.1913-21.12. 1983) 95 illiyi

Nasir, tərcüməçi Azəri Sabir Əli oğlunun anadan olmasının (22. 03.1938) 75 illiyi

Azərbaycanın Əməkdar mədəniyyət işçisi, professor Əliyev Zöhrab Hüseyn oğlunun anadan olmasının (22.03.1933) 75 illiyi

Azərbaycanın Xalq artisti, müğənni Muradova Rübabə Xəlil qızının anadan olmasının (22.03. 1933-02.09.1983) 75 illiyi

Şair, dramaturq Əhmədzadə Rüfət Zülfüqar oğlunun anadan olmasının (25.03.1933-15.12. 1988) 75 illiyi

Azərbaycanın Xalq artisti, aktrisa Bəsirzadə Sofya Bəşir qızının anadan olmasının (28.03.1918) 90 illiyi

Rus yazıçısı Peşkov Aleksey Maksimoviçin (Maksim Qorki) anadan olmasının (28.03.1868-18.06. 1936) 140 illiyi

Rus yazıçısı Ostrovski Aleksandr Nikolayeviçin anadan olmasının (31.03.1823-14.06.1886) 185 illiyi

**Azərbaycanlıların Soyqırımı Günü (31 Mart)**

## *Aprel*

«Qızıl qələm», «Araz», «Dan ulduzu», «Dirçəliş» mükafatları laureatı, yazıçı Abbasov Aqil Məhəmməd oğlunun anadan olmasının (01.04.1953) 55 illiyi

SSRI Dövlət mükafatı laureatı, professor, akademik Hüseynov Heydər Nəcəf oğlunun anadan olmasının (01.04.1908-15.08. 1950) 100 illiyi

Ukrayna yazıçısı Qonçar Olesin (Aleksandr Terentyeviç) anadan olmasının (03.04.1918) 90 illiyi

Azərbaycanın Xalq artisti, M.F.Axundov adına Respublika mükafatı laureatı, aktyor Zeynalov Əli Yusif oğlunun anadan olmasının (04.04.1913-06.01. 1988) 95 illiyi

Ingilis yazıçısı Rid Tomas Maynın anadan olmasının (04.04.1818-22.10.1883) 190 illiyi

Nasir, dramaturq Qədirzadə Salam Dadaş oğlunun anadan olmasının (10.04.1923-15.12.1988) 85 illiyi

Filosof, publisist, politoloq, ictimai xadim, professor Meh- diyev Ramiz Ənvər oğlunun anadan olmasının (17.04.1938) 70 illiyi

SSRI Xalq artisti, müğənni Imanov Lütfiyar Müslüm oğlunun anadan olmasının (17.04. 1928) 80 illiyi

**Tarixi Abidələrin Mühafizəsi Günü (18 Aprel)**

Azərbaycanın Xalq artisti, aktyor Turabov Həsənağa Səttar oğlunun anadan olmasının (24.04.1938-23.02.2003) 70 illiyi

Azərbaycanın Əməkdar elm xadimi, yazıçı, ədəbiyyatşünas, professor Paşayev Mir Cəlal Əli oğlunun anadan olmasının (26. 04.1908-28.09.1978) 100 illiyi

Oftalmoloq, professor, akademik Əliyeva Zərifə Əziz qızının anadan olmasının (28.04.1923-15.04.1985) 85 illiyi

Çex yazıçısı Yaroslav Qaşekin anadan olmasının (30.04.1883-03.01.1923) 125 illiyi

## *May*

Azərbaycanın Əməkdar incə-sənət xadimi, şair, tərcüməçi, Ayvazov Ayvaz (Eyvaz Borçalı) Məhəmməd oğlunun anadan olmasının (05.05.1938) 70 illiyi

**Faşizm Üzərində Qələbə Günü (9 May)**

Ümummilli lider Əliyev Heydər Əlirza oğlunun anadan olmasının (10.05.1923-12.12.2003) 85 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Elçinin anadan olmasının (13.05.1943) 65 illiyi

**Beynəlxalq Ailə Günü (15 May)**

Ədəbiyyatşünas, tərcüməçi, biblioqraf Əmin Əfəndiyevin anadan olmasının (18.05.1933) 75 illiyi

**Beynəlxalq Muzeylər Günü (18 May)**

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, tənqidçi, teatrşünas Məmmədov Mehdi Əsədulla oğlunun anadan olmasının (22.05.1918-28.01.1985) 90 illiyi

M.F.Axundov adına Azərbaycan Milli Kitabxanasının fəaliyyətə başlamasının (23.05. 1923) 85 illiyi

Maarif xadimi, şair, nasir, etnoqraf, tərcüməçi Əfəndiyev (Rəşidbəy Əfəndiyev) Rəşid İsmayıl oğlunun anadan olmasının (24.05.1863-31.08.1942) 145 illiyi

**Respublika Günü (28 May)**

## *Iyun*

**Uşaqların Beynəlxalq Müdafiə Günü (1 Iyun)**

Şair Ismayılzadə Mikayıl (Mikayıl Müşfiq) Əbdülqədir oğlunun anadan olmasının (05.06.1908-08.01.1938) 100 illiyi

**Ətraf Mühitin Mühafizəsi Günü (5 Iyun)**

SSRI Xalq artisti, M.F.Axundov adına Respublika mükafatı laureatı, aktrisa Qurbanova Hökumə Abbasəli qızının anadan olmasının (11.06.1913-02.12. 1988) 95 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, nasir, ssenarist Hüseynov Isa Mustafa oğlunun anadan olmasının (12.06.1928) 80 illiyi

**Milli Qurtuluş Günü (15 Iyun)**

**Insan Hüquqları Günü (18 Iyun)**

Azərbaycanın Dövlət mükafatı laureatı, şair, tənqidçi, ədəbiyyatşünas Qasımzadə Qasım Xansuvar oğlunun anadan olmasının (23.06.1923-28.07.1993) 85 illiyi

Azərbaycanın Xalq şairi, Əməkdar mədəniyyət işçisi, tərcüməçi Rəfibəyli Nigar Xudadat qızının anadan olmasının (23.06.1913-07.10.1981) 95 illiyi

**Dövlət Qulluqçularının Peşə bayramı (23.06.2006)**

**Milli Silahlı Qüvvələr Günü (26 Iyun)**

**Narkomaniyaya və Narkobiznesə Qarşı Mübarizə Günü (26 Iyun)**

Tədqiqatçı, bitki fizioloqu, akademik Əliyev Cəlal Əlirza oğlunun anadan olmasının (30.06. 1928) 80 illiyi

## *Iyul*

**Azərbaycan Polisi Günü (2 iyul)**

Azərbaycanın Əməkdar elm xadimi, «Qızıl qələm» mükafatı laureatı, publisist, tədqiqatçı, şair Rəhimov Kamran Nəbi oğlunun anadan olmasının (04.07.1928) 80 illiyi

Azərbaycanın Əməkdar mədəniyyət işçisi, Əmək veteranı Əzimov Hüseynqulu Qurban oğlunun anadan olmasının (05.07.1913) 95 illiyi

Alman bəstəkarı, pianoçu və dirijoru Brams Iohannesin anadan olmasının (07.07.1833-03.04. 1897) 175 illiyi

Ingilis yazıçısı Oldric Consun anadan olmasının (10.07.1918) 90 illiyi

Gürcü yazıçısı Dumbadze Nodarın anadan olmasının (14.07.1928) 80 illiyi

Şair Xudiyev Bayraməli (Xəstə Bayraməli) Abbasəli oğlunun anadan olmasının (10.07.1898-15.03.1952) 110 illiyi

Ədəbiyyatşünas, tərcüməçi, professor Bayramov Akif Əmirxan oğlunun anadan olmasının (20.07.1938) 70 illiyi

**Milli Mətbuat və Jurnalistika günü (22 Iyul)**

Azərbaycan ədəbiyyatşünası və publisisti Abdulla Surun (Abdulla Tofiq-Abdulla Ağa Məhəmməd oğlu Məhəmmədzadə) anadan olmasının (23.07.1883-08.05.1912) 125 illiyi

Rus yazıçısı Çernışevski Nikolay Qavriloviçin anadan olmasının (24.07.1828-29.10.1989) 180 illiyi

***Avqust***

**Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (1 Avqust)**

**Azərbaycan Kinosunun (02. 08.1898) 110 illiyi**

«Qızıl qələm» mükafatı laureatı, Beynəlxalq Kadrlar Akademiyasının həqiqi üzvü, şair, professor, ədəbiyyatşünas, Əhmədov Ənvər Misir oğlunun anadan olmasının (08.08.1943) 65 illiyi

Azərbaycanın Xalq artisti, Dövlət mükafatı laureatı, kino-aktyor Balayev Rasim Əhməd oğlunun anadan olmasının (08.08.1948) 60 illiyi

Dövlət mükafatı laureatı, qrafik Kazımzadə Kazım Məmmədəli oğlunun anadan olmasının (10.08.1913-06.10.1992) 95 illiyi

**Beynəlxalq Gənclər Günü (12 Avqust)**

Azərbaycanın Xalq rəssamı, Əməkdar incəsənət xadimi, «Qızıl qələm» mükafatı laureatı, tərcüməçi Məmmədov Kamil Həsən oğlunun anadan olmasının (12.08. 1923-09.08.1989) 85 illiyi

Talıbzadə Kamal Abdulla Şaiq oğlunun anadan olmasının (14.08. 1923) 85 illiyi

Şair, nasir Isabəyli Qəşəm Isa oğlunun anadan olmasının (14.08. 1948) 60 illiyi

Tənqidçi, ədəbiyyatşünas, professor Salmanov Şamil Məmməd oğlunun anadan olmasının (17.08.1933) 75 illiyi

Sosialist Əməyi Qəhrəmanı, SSRI Dövlət və Lenin mükafatı laureatı, rus yazıçısı Çakovski Aleksandr Borisoviçin anadan olmasının (26.08.1913) 95 illiyi

## *Sentyabr*

Orta əsr ensiklopediyaçı alimi Biruni əbu Reyhan Məhəmməd ibn Əhməd əl-Biruni əl-Xarəzminin anadan olmasının (04.09.973-11.12.1048) 1035 illiyi

Dağıstanın Xalq şairi, Sosialist Əməyi Qəhrəmanı, SSRI Dövlət mükafatı laureatı, Lenin mükafatı laureatı Həmzətov Rəsul Həmzətoviçin anadan olmasının (08.09.1923-03.11.2003) 85 illiyi

Rus yazıçısı Tolstoy Lev Nikolayeviçin anadan olmasının (09.09.1828-20.11.1910) 180 illiyi

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, kino rejissor və operator Dadaşov Muxtar Baba oğlunun anadan olmasının (11.09.1913-08.05.1998) 95 illiyi

**Bilik Günü (15 Sentyabr)**

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar Məlikov Arif Cahangir oğlunun anadan olmasının (13.09.1933) 75 illiyi

**Milli Musiqi Günü (18 Sentyabr)**

SSRI Xalq artisti, müğənni Əhmədova Firəngiz Yusif qızının anadan olmasının (23.09.1928) 80 illiyi

Fransız yazıçısı Merime Prosperin anadan olmasının (23.09.1803-23.09.1870) 205 illiyi

Azərbaycan yazıçısı Əsgərov Şəmistan Yusif oğlunun anadan olmasının (25.09.1913-01.07.1985) 95 illiyi

Azərbaycanın Əməkdar elm və texnika xadimi, Dövlət mükafatı laureatı, akademik Mirzəcanzadə Azad Xəlil oğlunun anadan olmasının (30.09.1928-17.07.2006) 80 illiyi

*Oktyabr*

**Beynəlxalq Ahıllar Günü (1 Oktyabr)**

Italyan bəstəkarı Verdi Cüzeppenin anadan olmasının (10.10. 1813-27.01.1901) 195 illiyi

Azərbaycanın Xalq şairi, Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, publisist Ibrahimov Məmməd (Məmməd Araz) Infil oğlunun anadan olmasının (14.10.1933-02.12. 2004) 75 illiyi

Azərbaycanın Xalq rəssamı Hüseynov Yusif Ismayıl oğlunun anadan olmasının (15.10.1928) 80 illiyi

Azərbaycan yazıçısı, ədəbiyyatşünas, professor Abdullayev Gülhüseyn Hüseyn oğlunun anadan olmasının (16.10.1923) 85 illiyi

**Dövlət Müstəqilliyi Günü (18.11.1991)**

Fransız bəstəkarı Bize (Aleksandr Sezar Leopold) Jorjininin anadan olmasının (25.10.1838-3.06.1875) 170 illiyi

Azərbaycanın Dövlət mükafatı laureatı, şair Cəmilzadə Əhməd (Əhməd Cəmil) Səttar oğlunun anadan olmasının (20.10.1913-27.09.1977) 95 illiyi

Rus yazıçısı Turgenev Ivan Serqeyeviçin anadan olmasının (28.10.1818-03.09.1883) 190 illiyi

Azərbaycan yazıçısı Əmirli Əli Məmməd oğlunun anadan olmasının (30.10. 1948) 60 illiyi

SSRI-nin Əməkdar idman ustası, Azərbaycanın Əməkdar bədən tərbiyəçisi və idman xadimi, həndbolçu, məşqçi Şabanova Rəfiqə Mahmudovanın anadan olmasının (31.10.1943) 65 illiyi

*Noyabr*

**Beynəlxalq Əlillər Günü (3 Noyabr)**

Özbəkistanın Əməkdar incəsənət xadimi, yazıçı Şeyxzadə Məqsud Məsim oğlunun anadan olmasının (07.11.1908-19.11.1967) 100 illiyi

Azərbaycanın Xalq artisti, klarnetçalan və dirijor Əhmədov Tofiq Qəzənfər oğlunun anadan olmasının (08.11.1923) 85 illiyi

**Konstitusiya Günü (12 Noyabr)**

Azərbaycanın Əməkdar elm xadimi, professor, akademik Mirqasımov Mirəsədulla Mirələsgər oğlunun anadan olmasının (17.11.1883-20.07.1958) 125 illiyi

**Milli Dirçəliş Günü**
**(17 Noyabr)**

Azərbaycanın Əməkdar elm xadimi, ədəbiyyatşünas, professor, akademik Qasımzadə Feyzulla Səməd oğlunun anadan olma-sının (19.11.1898-29.03.1976) 110 illiyi

**Beynəlxalq Uşaq Günü**
**(20 Noyabr)**

Azərbaycanın Əməkdar artisti, Dövlət mükafatı laureatı, aktyor Məmmədov Həsən (Əbülhəsən) Ağaməmməd oğlunun anadan olmasının (22.11. 1938-1986) 75 illiyi

Italyan bəstəkarı Puççini Cakomonun anadan olmasının (22.11.1858-29.11.1924) 150 illiyi

Azərbaycanın Xalq artisti, kino rejissoru və operatoru Ocaqov Rasim Mirqasım oğlunun anadan olmasının (22.11.1933-12.07.2006) 75 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, dramaturq və kinossenarist Qasımov Imran Haşım oğlunun anadan olmasının (25.11.1918-20.04.1981) 90 illiyi

## *Dekabr*

**QIÇS-ə qarşı Mübarizə Günü**
**(1 Dekabr)**

Azərbaycanın Xalq artisti, müğənni Həsənova Gülxar Ibrahim qızının anadan olmasının (10.12. 1918-31.03.2005) 90 illiyi

Dünya Insan Hüquqları haqqında bəyannamənin qəbul olunma-sının (10.12.1948) 60 illiyi

Azərbaycanın Xalq yazıçısı, nasir Bayramov Bayram Salman oğlunun anadan olmasının (11.12. 1918-09.11.1994) 90 illiyi

**Uşaqların Beynəlxalq Televiziya və Radio verilişləri Günü**
**(11 Dekabr)**

Qırğız Xalq yazıçısı Aytmatov Çingizin anadan olmasının (12.12.1928.) 80 illiyi

**Sərhəd Qoşunları Günü**
**(16 Dekabr)**

Şair, tərcüməçi Cəfərov Ələkbər (Ələkbər Ziyatay) Həsən oğlunun anadan olmasının (21.12.1913) 95 illiyi

**Azərbaycanın Əməkdar səhiyyə işçisi Məmmədova-Kosmodemyanskaya Dürrə Əlabbas qızının anadan olmasının (25.12.1923) 85 illiyi Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31 Dekabr)**

Azərbaycan Teatr Cəmiyyətinin yaranmasının (1948) 60 illiyi

C.Cabbarlı adına «Azərbaycanfilm» kinostudiyasının yaranmasının (1923) 85 illiyi

Azərbaycan Kinematoqrafçılar Ittifaqının yaranmasının (1958) 50 illiyi

M.Qorki adına Azərbaycan Gənc Tamaşaçılar Teatrının yaranmasının (1928) 80 illiyi

Azərbaycan sahibkarlığının görkəmli nümayəndəsi, xeyriyyəçi, maarifpərvər və ictimai xadim Tağıyev Hacı Zeynalabdin Məhəmmədtağı oğlunun (1838-01.11.1924) anadan olmasının 170 illiyi

Aşıq Hüseyn Bozalqanlı (Quliyev Hüseyn Cəfərqulu oğlu) anadan olmasının (1868-13.11.1941) 140 illiyi

Şair, ədəbiyyatşünas, xəttat, rəssam, musiqişünas, pedaqoq Mir Möhsün (Mir Möhsün Nəvvab) Ağamirzadə Hacı Mirəhməd oğlunun anadan olmasının (1833-1918) 175 illiyi

Şair, ədəbiyyatşünas Məmmədzadə Əli Məhəmməd (Əli Nəzmi) oğlunun anadan olmasının (1878-04.01.1946) 130 illiyi

Azərbaycanın Əməkdar artisti, xanəndə Adıgözəlov Zülfi Səməd oğlunun anadan olmasının (1898-31.05.1963) 110 illiyi

«Azərbaycan» aylıq ədəbi-bədii və ictimai-siyasi jurnalın nəşrinin (1923) 85 illiyi

Italyan filosofu, şair Bruno Cordano Filipponun anadan olmasının (1548-17.11.1600) 460 illiyi

Mərziyə Davudova adına Mingəçevir Dövlət Dram Teatrının yaranmasının (1968) 40 illiyi

Fars və tacik şairi, riyaziyyatçı, filosof Ömər Xəyyamın anadan olmasının (1048-1122) 960 illiyi

**Qurban bayramı**

**Ramazan bayramı**




1813-1828-ci illərə qədər Azərbaycan dövlətinin sahəsi təxminən 410 min kv.km. olmuşdur.

1813-1828-ci illərdə işğal edilmiş Azərbaycan əraziləri: Iran əsarəti altındakı Cənubi Azərbaycan əraziləri: Cənubi Azərbaycan - sahəsi təxminən 280 min kv.km. olmuşdur.

Rusiya əsarəti altındakı Şimali Azərbaycan - sahəsi təxminən 130 min kv.km. olmuşdur.

1918-ci ildə Rusiyanın təzyiqi ilə ermənilərə verilmiş Irəvan xanlığı - sahəsi 9 min kv.km. olmuşdur.
Rusiya əsarəti altındakı Dərbənd xanlığı – sahəsi 7 min kv.km. olmuşdur.

1918-1920-ci illərdə Azərbaycan Demokratik Respublikasının qurulğu ərazinin sahəsi - təxminən 114 min kv.km. olmuşdur.

Ermənistan Sovet Sosialist Respublikasının qismən nəzarətinə verilən Zəngəzur, Göyçə, Şərur, Dərələyəz, Dilican və Gürcüstan SSR-in qismən nəzarətinə verilən Borçalı -

**birlikdə sahəsi 27,4 min kv.km. olmuşdur.**

**1920-1991-ci illərdə SSRI əsarəti altında qalmış Azərbaycan SSR-nin ərazisi 86,6 min kv.km. olmuşdur.**

**Azərbaycanın 1988-1994-cü il lərdə işğal edilmiş əraziləri: Cəmi: 13,110 kv.km. olmuşdur.**
**Keçmiş Dağlıq Qarabağın (Şuşa, Xankəndi, Xocalı, Əsgəran, Xocavənd, Ağdərə, Hadrut) işğal tarixi- 1988-1993-cü illər (Sah: 4400 kv.km.) olmuşdur.**

**Qubadlı (31 avqust 1993-cü il) 802 kv.km.**

**Şuşa (08 may 1992-ci il) 351,55 kv.km**
**Laçın (18 may 1992-ci il) 1835 kv.km**

**Kəlbəcər (3-4 aprel 1993-cü il) 1936 kv.km**

**Ağdam (23 iyul 1993-cü il) 1094 kv.km.**

**Cəbrayıl (23 avqust 1993-cü il) 1050 kv.km.**

**Füzuli (23 avqust 1993-cü il) 1386 kv.km.**

**Zəngilan (30 oktyabr 1993-cü il) 707 kv.km**

Ermənistan Respublikasının hərbi təcavüzü nəticəsində Azərbaycan ərazilərinin 20 faizi işğal edilmiş, 20 mindən çox insan qətlə yetirilmiş, 50 mindən artıq adam yaralanmış və şikəst olmuşdur. Bir milyondan artıq insan 15 ildən çoxdur ki, qaçqın və məcburi köçkün şəraitində yaşayaraq Ermənistanın azərbaycanlılara qarşı etnik təmizlmə və soyqırım siyasətinin qurbanı olmuş, elementar insan haqlarından məhrum edilmişdir. Işğal nəticəsində 900-dən artıq yaşayış məntəqəsi talan edilmiş, yandırılmış və dağıdılmış, 6 min sənaye, kənd təsərrüfatı müəssisəsi və digər obyektlər məhv edilmiş, ümumi yaşayış sahəsi 9 mln kv. km-dən artıq olan 150 yaşayış binası dağıdılmış, 4366 sosial–mədəni obyekt, eyni zamanda 695 tibb ocağı məhv edilmişdir. Işğal edilmiş ərazilərdə kənd təsərrüfatı sahəsi, su təsərrüfatı hidrotexniki qurğular bütün nəqliyyat və kommunikasiya xətləri tam sıradan çıxarılmışdır. Dağıntılar nəticəsində iqtisadiyyata 60 milyard ABŞ dollarından artıq ziyan dəymişdir. Hərbi təcavüz zamanı ələ keçirilmiş Azərbaycan ərazilərində 927 kitabxana, 464 tarixi abidə və muzey, 100-dən çox arxeoloji abidə, 6 dövlət teatrı və konsert studiyası dağıdılmışdır. Talan edilmiş muzeylərdən 40 mindən çox qiymətli əşya və nadir

eksponat oğurlanmışdır. Belə ki, Kəlbəcər Tarix Diyarşünaslıq muzeyi yerlə yeksan olunduqdan sonra muzeyin ekspozisiyasına daxil olan nadir qızıl və gümüş zinət əşyaları, ötən əsrlərdə toxunmuş xalçalar Ermənistana daşınmışdır. Şuşadakı Tarix muzeyinin, Ağdamdakı Çörək muzeyinin, Zəngilandakı Daş Abidələr muzeyinin də taleyi belə olmuşdur. Oğurlanmış və məhv edilmiş bu tarixi-mədəni sərvətlərin dəyərini müəyyənləşdirmək, pulla qiymətləndirmək mümkün deyildir. Bir sözlə Ermənistan Respublikası «Hərbi münaqişələr zamanı mədəni sərvətlərin qorunması haqqında» HAAQA Konvensiyasının və «Mədəni sərvətlərin qeyri-qanuni dövriyyəsi haqqında» Paris Konvensiyasının müddəalarını kobudcasına pozaraq Azərbaycanın mədəni sərvətlərini talamaqla məşğuldur. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurasının 1993-cü ildə qəbul edilmiş 822, 853, 874, 884 saylı Qətnamələrində Azərbaycan Respublikasının ərazi bütövlüyünün tanınmasına və işğal olunmuş Azərbaycan ərazilərinin qeyd-şərtsiz azad edilməsi tələblərinə baxmayaraq Ermənistan Respublikası bu gün də işğalçılıq siyasətini davam etdirir.

***Nailə Alışova***

**TOFIQ KAZIMOV-85**

***Yanvar***
**14.01.1923-**
**02.08.1980**

***Rejissor***



Azərbaycanda lirik-psixoloji teatr məktəbinin yaranması, inkişafı və formalaşması Tofiq Kazımovun adı ilə bağlıdır. O, görkəmli teatr xadimi, şair Səməd Mənsurun oğludur.

(Səməd Mənsur Bakıda mövcud olan bir sıra mədəni-maarif cəmiyyətləri, məsələn, «Nicat», «Şəfa» teatr truppalarının rəhbərlərindən idi.)

Tofiq Kazımov 1923-cü il yanvar ayının 14-də Bakıda doğulmuş və yeddiillik təhsilini burada alaraq teatr məktəbini (1939-1942-ci illərdə) bitirmişdir. O, Böyük Vətən müharibəsində könüllü olaraq iştirak etmişdir. Döyüşlərdə yaralanaraq Bakıya qayıtmış və 1943-cü ildən Gənc Tamaşaçılar Teatrında aktyor kimi işləməyə başlamışdır.

1945-1951-ci illərdə Moskvada Ümumittifaq Teatr Sənəti Institutunda rejissorluq ixtisasına yiyələnmişdir. Tələbə ikən Ağdam Dövlət Dram Teatrında Həsən Qasımovun «Kür sahilində» pyesini tamaşaya hazırlamışdır.

1952-ci ilin aprel ayında Gənc Tamaşaçılar Teatrına baş rejissor göndərilmişdir. Elə həmin il oktyabrın 1-də Akademik Dram teatrına rejissor,1964-cü il mart ayının 16-da isə baş rejissor təyin olunmuşdur.

Görkəmli sənətçi 1958-ci ildə kinostudiyada işə qəbul olunaraq yeni çəkilən «Səhər» kinolentində rejissor kimi çalışmışdır. Elə həmin il Rus Dram Teatrında Ənvər Məmmədxanlının «Şərqin səhəri» pyesini tamaşaya hazırlamışdır.

Tofiq Kazımov 1960-cı ildə Musiqili Komediya Teatrında Tofiq Quliyevin «Qızıl axtaranlar» operettasına quruluş vermişdir

1961–ci ildə Quba teatrında Rza Şahvələdin «Qız qalası», 1963-cü ildə Şıxəli Qurbanovun «Əcəb işə düşdük», 1964-cü ildə Naxçıvan teatrında Məmmədəli Tarverdiyevin «Köl-

gəli dağ», 1969-cu ildə Gəncə teatrında Altay Məmmədovun «Yadın damı» dramlarına quruluş vermişdir.

Tofiq Kazımov uzun illər Teatr Institutunda aktyor və rejissor sənətindən dərs demişdir. Xalq artistləri Ağasadıq Gəraybəyli, Məmmədəli Vəlixanlı, Kazım Ziya, Əliağa Ağayev, Ismayıl Osmanlı barədə monoqrafiyalar yazmışdır. «Çağırış», «Işıqlı yollarda», «Şəfəq», «Qoçaq Polad» və digər pyeslərini yaratmışdır. Mətbuatda teatr sənətinə, müxtəlif tamaşalara aid resenziya və məqalələrlə çıxış etmişdir.

Tofiq Kazımov 1965-ci ildə Vilyam Şekspirin «Antoni və Kleopatra» və 1979-cu ildə Anarın «Şəhərin yay günləri» tamaşalarına görə Dövlət mükafatları ilə təltiflənmişdir.

1961-ci ildə Respublikanın Əməkdar incəsənət xadimi və 1974-cü ildə Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Akademik teatrda sıravi rejissor kimi Karlo Naldoninin «Məzəli hadisə», Mirzə Fətəli Axundzadənin «Lənkəran xanının vəziri», Lope de Veqanın «Sevilya ulduzu», «Dəlilər», Maksim Qorkinin «Vassa Jeleznova», Rəsul Rzanın «Qardaşlar», Nazim Hikmətin «Qəribə adam», Ənvər Məmmədxanlının «Şirvan gözəli», Şıxəli Qurbanovun «Əcəb işə düşdük», Aleksis Parnisin «Gözəllik və sevgi adası», Viktor Hüqonun «Mariya Tüdor», Sabit Rəhmanın «Sevimli rollar» pyeslərinə səhnə təfsiri vermişdir.

Tofiq Kazımov baş rejissorluğu dövründə teatra çoxlu istedadlı gənc cəlb etmişdir. O, yeni teatr poetikası yaratmaqla onun estetik səciyyələrini müəyyənləşdirmişdir.

Bədii materialın səhnə təfsirində Tofiq Kazımovun əsas «silahı» poetik, psixoloji, dramatik fikir yükü daşıyan mizanlar idi.

Tofiq Kazımovun tamaşalarında həm fikir, həm də estetik forma baxımından həmişə təravət vardı. Tofiq Kazımovun quruluş verdiyi tamaşalarda iyirminci əsrin hərəkət və təfəkkür sürəti, qlobal ictimai və siyasi proseslərin ritmi, insanların həyat tərzinin dinamikası, düşüncə tərzinin itiliyi müxtəlif bədii, estetik, fəlsəfi, psixoloji formalarda parlaq təcəssümünü tapırdı.

Tofiq Kazımovun tamaşalarının finalı özü bir tamaşa idi. Rejissorun əsər üçün seçib qurduğu bədii estetik, fəlsəfi konsepsiya finalda zahirən həlim, lirik, sakit, yumşaq, ancaq enerji nüvəsində coşqunluq, əzəmət, hayqırtı olan tərzdə tamaşaçılara çatdırılırdı. Milli rejissuramızın korifeylərindən sayılan Tofiq Kazımovun 2008-ci il yanvar ayının 14-də anadan olmasının 85 illik yubileyi tamam olur. T.Kazımovun sənət fəaliyyətini öyrənmək üçün kitabxanaların üzərinə böyük vəzifələr düşür.

Rəhimli I. Azərbaycan teatr tarixi.- B.: Çaşıoğlu, 2005.- 596 s.

* * *

Abdullayeva S. Teatr fədaisi //Mədəni-Maarif.- 2003.-№5.- S.54-56.

Quliyeva Z. Unudulmaz rejissor: (Teatr xadimləri Ittifaqında Tofiq Kazımovun anadan olmasının 80 illiyinə həsr olunmuş xatirə gecəsi haqqında) //Azərbaycan.- 2003.- 17 aprel.- S.8.

Ibrahimoğlu V. Ad və tarix (Tofiq Kazımovun anadan olmasının 80 illiyi münasibətilə) //Azadlıq.- 2003.- 13 fevral.- S.2

***RUS DILINDƏ***

Садовский Я. Автографы бывают разные…/ О главном режиссере Азерб.драм. театра Т.Кязимова //Литературный Азербайджан.- 1981.- № 10. – С.122 – 124.

***SAMIRƏ EMINOVA***

## ZƏHRA QULIYEVA – 85

*Tibb elmləri doktoru*

*Yanvar*
*18.01.1923-*
*28.11.2005*



Həyatda hər insana ömür bir dəfə verilir. Gərək elə yaşayasan ki, adın həmişə yaxşılar sırasında çəkilsin. Əbəs yerə deməmişlər ki, insan ömrü atadan-babadan qalma bir xəzinəyə bənzəyir. Adam var, onu səmərəli, adam da var, hədər yerə «xərcləyir». Həyatda elə insanlar var ki, xoşbəxtliyini, ömrünün mənasını öz xalqına xidmət etməkdə görür. Görkəmli alim, bacarıqlı həkim, fəal ictimaiyyətçi Zəhra Quliyeva da belə insanlardan idi.

Adətən, valideynlər öz övladlarına «gözümün işığı» deyə müraciət edirlər. Bu təsadüfi deyildir. Çünki insan üçün göz işığı ən müqəddəs nemətdir. Göz işığı insana anadangəlmə verilirsə, Zəhra xanım yüzlərlə xəstəni bu əvəzsiz nemətdən məhrum olmağa qoymamış, müalicə yolu ilə onu qoruyub saxlamış, ailələrə sonsuz və saysız-hesabsız sevinc bağışlamışdır.

Tibb elmləri doktoru, professor Zəhra Tahir qızı Quliyeva 1923-cü il yanvar ayının 18-də Bakı şəhərində anadan olmuşdur. Ibtidai təhsilini 48 saylı məktəbdə almış, orta təhsilini 132 saylı məktəbdə davam etdirmişdir. 1940-cı ildə həmin məktəbi əla qiymətlərlə bitirmişdir. O zaman əlaçıların ali məktəblərə imtahansız qəbul olunmaq imtiyazı var idi.

1940-cı ildə Zəhra Quliyeva bu yüksək imtiyazla Azərbaycan Tibb Institutunun Müalicə-profilaktika fakültəsinə daxil olmuşdur. 1944-cü ildə ali məktəbi «əla» qiymətlərlə bitirdiyi üçün özünün seçdiyi Oftalmologiya kafedrasında saxlanılmışdır. Əvvəl klinik ordinator kimi çalışır, sonralar assistent, dosent, professor, kafedra müdiri vəzifələrinədək yüksəlir. 1958-ci ildə namizədlik, 1967-ci ildə isə doktorluq dissertasiyalarını müdafiə etmişdir. Elmi işlər üzrə dekan müavini, tədris hissə üzrə prorektor vəzifələrində çalışdığı zaman qazandığı təcrübə, təşkilatçılıq bacarığı Tibb Institutunun rektoru seçilməsinə zəmin yaradır. Zəhra xanım on iki il bu vəzifədə çalışmışdır. Istedadlı alim

200-dən artıq elmi əsərin, o cümlədən iki monoqrafiyanın, üç dərs vəsaitinin, bir neçə ixtiranın və elmi təklifin müəllifidir. 6 namizədlik dissertasiyasının elmi rəhbəri olmuşdur.

Həddən ziyadə səbirli, təmkinli, dözümlü olan bu nəcib, incə qəlbli qadın yuxusuz gecələrini, ağrılı-acılı günlərini sanki unudaraq demişdir: «Həyatda qazandığım uğurlara, ailəmdə aldığım tərbiyəyə görə ilk növbədə atama borcluyam. Təbabətdə qazandığım uğurlara görə isə institutumuzun professor- müəllim heyətinə minnətdaram. Oftalmologiya sahəsində inkişafımda unudulmaz müəllimim, professor Umnisə Musabəylinin əvəzsiz əməyi vardır».

Professor Zəhra Quliyeva 1972-1983-cü illərdə Azərbaycan Dövlət Tibb Institutuna rəhbərlik etmiş və 1975-ci ildə Azərbaycan Oftalmologiya Cəmiyyətinin sədri seçilmişdir. O, dünyanın bir çox ölkəsində müxtəlif beynəlxalq konfrans və simpoziumlarda iştirak etmişdir. 1995-ci ildən «Sevil» Azərbaycan Qadınları Məclisinin sədr müavini olmuşdur.

1998-ci ildən ömrünün sonunadək Azərbaycan Respublikasının Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri vəzifəsində çalışmışdır. Zəhra Quliyeva Azərbaycanda qadın hüquqlarının müdafiəsi, qadın problemləri ilə bağlı BMT-nin mötəbər məclislərində ölkəmizi layiqincə təmsil etmişdir. Azərbaycan nümayəndə heyətinin tərkibində Bolqarıstan, Almaniya, Polşa, Isveçrə, Danimarka, Norveç, Finlandiya, ABŞ, Türkiyə, Çin, Iran və digər ölkələrdə keçirilmiş yüksək səviyyəli toplantıların iştirakçısı və həm məruzəçisi olmuşdur. Böyük alim Amerika Bioqrafiya Institutu tərəfindən «2001-ci ilin qadını» seçilmişdir.

Zəhra Quliyeva respublikamızın ictimai həyatında da fəal iştirak etmişdir. Onun əməyi bir sıra hökumət təltifləri ilə qiymətləndirilmişdir. O, dəfələrlə SSRI Ali Sovetinin, rayon və Bakı şəhər sovetlərinin deputatı seçilmişdir. Fəal ictimaiyyətçi qadın bir çox mükafatlara layiq görülmüş, müstəqil Azərbaycan Respublikasının ali mükafatı olan «Şöhrət» ordeni ilə, 2 dəfə «Şərəf nişanı» və «Qırmızı Əmək Bayrağı» ordenləri ilə təltif edilmişdir.

Tanınmış ictimai xadim və alim Qadın Problemləri üzrə Dövlət Komitəsinin sabiq sədri, Əməkdar elm xadimi, tibb elmləri doktoru, professor Zəhra Tahir qızı Quliyeva 2005-ci il noyabr ayının 28-də ömrünün 83-cü ilində vəfat etmişdir.

Iskəndərzadə E. Quliyeva Z. Azərbaycanın tanınmış xanımları.- B.: Adiloğlu, 2002.- 267 s.

* * *

Quliyeva Z. Azərbaycan qadını hər cür sevgiyə, ən yüksək ehtirama layiqdir. (Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri ilə müsahibə) /Müsahibəni apardı: Əliyeva I. //Azərbaycan.- 2000.- 8 mart.- S.3.

Quliyeva Z. Yeni əsrimizi də qadın nəfəsi isidəcək. (Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri ilə müsahibə) Müsahibəni apardı: Əliyeva I. //Azərbaycan.-2001.- 8 mart.- S.4.

Quliyeva Z. Bizim qadınlar çox fəaldırlar. (Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri ilə müsahibə) Söhbəti yazdı: Əliyeva I. //Xalq qəzeti.- 2001.- 1 iyun.- S.2.

Quliyeva Z. Qadınlar dünyanın şöhrət tacıdır. (Qadın Problemləri üzrə Dövlət Komitəsinin sədri ilə müsahibə) Söhbəti yazdı: Əliyeva I. // Azərbaycan.- 2002.- 14 mart.- S. 3.

* * *

Quliyeva Zəhra Tahir qızı. Nekroloq //Azərbaycan.-2005.-29 noyabr.- S.2.

Son mənzilə (Tibb elmləri doktoru, professor Zəhra Quliyeva) //Azərbaycan.- 2005.-30 noyabr.- S.7.

Vəliyev Y. Bir gəldi, bir getdi. (Zəhra Quliyeva haqqında) //Mədəni-maarif.- 2005.- №. 12.- S.60

***RUS DILINDƏ***

Кулиева З.Т. Азербайджанскому Ордена Трудового Красного Знамени Государственному Медицинскому Институту.- Б.: Азернешр, 1981.- 217 с.

Кулиева З.Т. Академик Зарифа ханум Алиева. (Сборник научных трудов).- Б.: Азернешр, 1998.-68 с.

***ZENFIRA QULAMOVA***

# FIRIDUN BƏY KÖÇƏRLI-145

*Maarif xadimi*

*26.01.1863-20.05.1920*



Firidun bəy Əhməd ağa oğlu Köçərli 1863-cü ildə yanvar ayının 26-da Şuşada anadan olmuşdur. Onun uşaqlıq illəri şəhərin Köçərli məhəlləsində keçmişdir. F.Köçərlinin ulu babalarından olan Məhəmməd, Cavanşir mahalının Köçərli kəndindən gəlib, Şuşa şəhərinin şimal-qərbində yurd salmış və sonralar onun övladları bütün ətrafda Köçərlilər kimi tanınmışdır.

F.Köçərlinin uşaqlıq və gənclik illəri onun doğma şəhəri Şuşanın iqtisadi və ictimai-mədəni həyatında dirçəlişin başlanğıcına təsadüf edib.

Balaca Firidun Şuşada mollaxanada (1870-1872), Mirzə Kərim Münşizadənin məhəllə məktəbində (1872-1875), 2-ci dərəcəli şəhər məktəbində (1876-1879) oxumuş və sonra 1885-ci ildə Qori Müəllimlər Seminariyasını bitirmişdir. Gənc Firidun 1885-1896-cı illərdə Irəvan gimnaziyasında, QMS-nin Azərbaycan şöbəsində (1896-1917) müəllim işləmişdir. 1905 və 1908-ci illərdə QMS-nin Azərbaycan şöbəsinin inspektoru vəzifəsini tutmağa təşəbbüs göstərmiş, 1910-cu ildə şöbənin inspektorluğunu müvəqqəti icra etmişdir. Fevral inqilabından (1917) sonra seminariya tələbə-lərinin tələbinə əsasən, Xüsusi Zaqafqaziya Komitəsi sədrinin 1917-ci il 17 avqust tarixli Əmri ilə Azərbaycan şöbəsinin inspek-toru təyin olunmuşdur. 1918-ci ildə Cənubi Qafqazda baş verən siyasi hadisələr zamanı Köçərli, azərbaycanlıların arzusunu həyata keçirərək, QMS-nin Azərbaycan şöbəsini Qazax şəhərinə köçürmüş, onu müstəqil milli seminariyaya çevirmiş və ilk direktoru (1918-1920) olmuşdur.

Firidun bəy Köçərli zəngin yaradıcılıq yolu keçmişdir. Onun, publisistik «Məişətimizə dair» məqalələr silsiləsi, (1906-1916); ədəbiyyat tarixi «Azərbaycan türklərinin ədəbiyyatı», (1903); «Qafqaz üdəbası və şüərasının tərcümeyi-halı», «Ədəbiyyata bir nəzər» adlı əsərlərini, sovet hakimiyyəti illərində isə çoxcildli «Azərbaycan ədəbiyyatı tarixi materialları» adı altında nəşr olun-

muşdur. «M.F.Axundov» (1912), ədəbi tənqid «Evlənmək su içmək demək deyil» (1892), «Azərbaycan komediyaları» (1895) «Ədəbiyyatımıza dair məktub» (1904), «Molla Nəsrəddin» (1906), «Usta Zeynal» (1906), «Milli şairimiz Abbas ağa Qayıbzadə Nazir» (1909), «Sultan Məcid Qənizadə» (1912), «Ana dili» (1913), folklor nümunələrinin toplanması «Balalara hədiyyə» (1912), dərsliklərin tərtibi «Tarixi müqəddəs» (1899) və nəşri «Vətən dili» (1907), bədii tərcümə «Təlimati-Sokrat»(1892); «Üç xurma», «A, kişi, niyə yatıbsan?» (1895) kimi kitablar, dərsliklər və məcmuələr onun böyük əməyi sayəsində meydana gəlmişdir.

Böyük dramaturq M.F. Axundzadənin realizm təliminin təbliği və ədəbi prosesə tətbiqi uğrunda mübarizə Köçərlinin ədəbiyyatşünaslıq fəaliyyətinin əsas qayəsini təşkil edir.

Köçərliyə görə ədəbiyyat hər millətin inkişaf səviyyəsini, qüdrət və cəlalını göstərən tarixi vəsiqədir. Xalqı yaşadan vasitədir. Ana dilində ədəbiyyatı olmayan xalqlar daha yüksək mədəniyyətli millətlərin nüfuzu altına düşüb, onlarla qaynayıb-qarışıb, milli varlıqlarını qeyb edirlər. XIII-XIX əsrlərdə və XX əsrin əvvəlində Azərbaycan ədəbiyyatının inkişaf yolunu araşdıran Köçərli onun 130 nümayəndəsinin həyatı və yaradıcılığı haqqında məlumat toplamışdır.

Köçərlinin publisistik məqalələri mövzu aktuallığı və siyasi kəskinliyinə görə xüsusilə seçilir. Çarizmin Azərbaycanda yeritdiyi müstəmləkəçilik siyasətinin və onun dayaqlarının-məmur, mülkədar, bəy, xan zülmünün, ruhani istibdadının, ziyalı biganəliyi və rəiyyət passivliyinin tənqidi, milli oyanışa və siyasi fəallığa çağırış, kəndli hüququnun müdafiəsi, qadın azadlığı uğrunda mübarizə, məktəbin həyatla əlaqəsi, maarifin əhalinin maddi və mənəvi tələblərinə uyğunlaşdırılması məsələləri Köçərli publisistikasının ana xəttini təşkil edir. Bütün bunlar XX əsrin əvvəlində xalqın milli şüurunun oyanmasında, azadlıq uğrunda mübarizəyə hazırlanmasında böyük rol oynamışdır.

## *ƏSƏRLƏRI*

Azərbaycan ədəbiyyatı.- 2 C-də.- B.: Azərb.EA nəşri, 1978.-I C.- 599s.; II C. -1981.- 460s.

Azərbaycan ədəbiyyatı.- 2 C- də. - B.: Avrasiya Press, 2005 ; I C.- 560 s; II C.- 464 s.

Balalara hədiyyə: Kiçik və ortayaşlı məktəblilər üçün.-B.: Gənclik, 1987.-104 s.

M.F.Axundovun dünyagörüşü.- B.:Elm,1999.-122 s.

## *Haqqında*

Bəktaşi I. Azərbaycan ədəbiyyatı tarixi materialları haqqında.- B.:ADU-nun nəşri, 1978.-80 s.
Firidun bəy Köçərlinin şəxsi arxivindən /Tərt.ed.M.Adilov.-B.: Nurlan,2005.-286 s.
Firidun bəy Köçərlinin yaradıcılıq yolu.-B.,1986.-110s.
Köçərli Firidun bəy Əhməd ağa oğlu /Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopediyası.- 2 C-də.-B.:Lider nəşriyyatı, 2005.-II C.-S.84-85.
Nəbiyev B. F. Köçərli: Mənalı ömürdən səhifələr.- B.: Gənclik, 1984.-228 s.
Nəbiyev B. Görkəmli tənqidçi və ədəbiyyatşünas.-B.: Azərb. EA nəşriyyatı,1963.-163 s.
Talıbzadə K. Sənətkarın şəxsiyyəti.- B., Yazıçı,1978.- S.143-192.
Talıbzadə K. XX əsr Azərbaycan tənqidi.-B.,1966.-213 s.

## *RUS DILINDƏ ƏSƏRLƏRI*

Советский народ и диалектика национального развития.- Б., 1972.- 72 с.
Современники о Г.Зардаби.- Б.,1985.- 67 с.

## *HAQQINDA*

Азимова С. Педагогическая деятельность педагогического взгляда Фиридунбека Кочарлинского.- Б.,1977.-79 с.
Бекташи И.Г. Творческий путь Фиридун бека Кочарли.-Б., 1978.-187с.
Набиев Б.А. Жизнь и творчество Ф.Кочарлинского.-Б.,1960.-41 с.
Ругия Ганбар кызы. Подготовка научного текста, текстологическое исследование и комментария труда Фиридун бека Кочарли. Азербайджанская литература.- Б.,1981.-24 с.

***ALIŞOVA NAILƏ***

## CORC BAYRON- 220

*Ingilis yazıçısı*

*Yanvar*
*22.01.1788-*
*23.03.1824*



Corc Noel Qordon (Corc Bayron) 1788-ci il yanvarın 22-də Londonda yoxsullaşmış zadəgan ailəsində anadan olmuşdur. O, 1801-ci ildə London yaxınlığındakı Harrou qapalı zadəgan məktəbinə daxil olmuş, ilk şeirini də burada yazmışdır. 1805-1808-ci illərdə Kembric Universitetində oxu-muşdur. 1807-ci ildə "Asudə saatlar" adlı ilk şeir məc-muəsini, 1809-cu ildə isə mür-təce romantiklər əleyhinə yazılmış "Ingilis bardları və şotland icmalçıları" satirik poemasını nəşr etdirmişdir. Bayron 1809-cu ildən lordlar palatasının üzvü olmuşdur. 1809-1811-ci illərdə o, Cənubi Avropa və Yaxın Şərq ölkələrinə səyahətə çıxmış, Portuqaliya, Ispaniya, Albaniya, Yunanıstan və Türkiyədə olmuş və səfər təəssüratı ilə əlaqədar mütərəqqi romantizmin ilk nümunəsi olan "Çayld Haroldun ziyarəti" poemasını çap etdirmişdir. 1812-1816-cı illərdə yazdığı lirik şeirləri, məşhur "Şərq poemaları" ("Gavur", "Abidos gəlini", "Korsar", "Korinfin mühasirəsi") və başqa əsərlərində azadlıq ideyaları tərənnüm olunurdu. Hakim siniflər əleyhinə kəskin siyasi xarakterli, ədəbi və ictimai çıxışlarına görə təqib olunan Bayron 1816-cı ildə Ingiltərəni həmişəlik tərk etməli olmuşdur. 1817-1823-cü illərdə Bayron Italiyada yaşamış, karbonarilər hərəkatının fəal iştirakçısı olmuş, "Beppo", "Venesiyaya oda", "Dan-tenin peyğəmbərliyi" və s. əsər-lərini yazmışdır. Yazıçının son əsəri olan "Don Juan" (1819-1823) mənzum romanı tamamlanma-mışdır. Corc Bayron ömrünün son günlərini Yunanıstanda yaşamış, yunan xalqının milli azadlıq mübarizəsində iştirak etmiş və 1824-cü il aprel ayının 19-da orada vəfat etmişdir.

## *ƏSƏRLƏRI*

Şərq poemaları. Gavur. Abidos gəlini. Korinfin mühasirəsi.- B.: Uşaqgəncnəşr, 1959.- 200 s.

## *RUS DILINDƏ*

Дон-Жуан.- М.: «Эксмо», 2006.- 606 с.

Паломничество Чайлд Гарольда .- Перм: Книжное изд-во, 1988.- 397 с.

Поэмы.- Новосибирск: Книжное изд-во, 1988.- 340 с.

* * *

Дьяконова Н. Я. Лирическая поэзия Байрона .- М., 1975.

## INTERNETDƏ

www.education.gender-az.org.
www.efrin.net.
www.google.az.
www.kitab.az.

*ADİLƏ ABDULLAYEVA*

## LANDAU LEV DAVIDOVİÇ – 100

*Akademik*

**Yanvar**
**22.01.1908-1968**



L.D.Landau 1908-ci il yanvar ayının 22-də Bakı şəhərində anadan olmuşdur. O, 1927-ci ildə Leninqrad (Sankt-Peterburq) Dövlət Universitetini bitirmişdir. Həmin ildə Danimarka, İngiltərə və İsveçrəyə ezam edilmişdir. 1932-ci ildə Xarkovdakı Ukrayna Fizika-texnika Institutunun nəzəri bölməsinə başçılıq etmişdir. 1937-ci ildən isə SSRİ EA Fizika Problemləri İnsitutunda işləmişdir. Metalların elektron diamaqnitizminin nəzəriyyəsini yaratmış, maqnit sahəsində elektronların diskret səviyyələrini (Landau səviyyələrini) hesablamışdır. L.Landau antiferromaqnitizim nəzəriyyəsini və fəza keçidlərinin ümumi nəzəriyyəsini vermiş, kosmik şüalarda elektron selinin kaskad nəzəriyyəsini işləyib hazırlamış, (Y.B.Rumerlə birlikdə) maye heliumun ifrat axıcılıq nəzəriyyəsini, zərbə dalğaları nəzəriyyəsini, elektron plazması rəqslərinin nəzəriyyəsini, ifrat keçiricilik nəzəriyyəsini (K.Lkinzburqla birlikdə) söyləmişdir. L.Landau kvant elektrodinamikasının əsaslarını tədqiq etmiş (A.A.Abrikosov və b. ilə birlikdə), ikikomponentli neytrino nəzəriyyəsini, Fermi mayesinin nəzəriyyəsini yaratmışdır.

L.Landau 1946-cı ildə SSRİ EA-nın akademiki seçilmişdir. 1954-cü ildə ona Sosialist Əməyi Qəhrəmanı adı verilmişdir. 1962-ci ildə Lenin mükafatı laureatı adına layiq görülmüşdür.

L.Landauya 1946, 1949, 1953-cü illərdə SSRİ Dövlət mükafatı verilmişdir.

L.D.Landau 1946-cı ildə Nobel mükafatı laureatına layiq görülmüşdür. O, həmçinin ABŞ, Danimarka, B.Britaniya, Fransa, Niderland EA üzvü olmuşdur. SSRİ EA Nəzəri Fizika İnstitutu onun adınadır.

L.Landau 3 dəfə Lenin ordeni, 2 başqa orden və medallarla təltif edilmişdir.

L.D.Landau 1968-ci ildə Meksika şəhərində vəfat etmişdir.

Bakıda L.Landaunun doğulduğu binaya xatirə lövhəsi vurulmuşdur.

### *ƏSƏRLƏRİ*

Landau L.D. Fizika hamı üçün. Hərəkət. İstilik.- B.: Maarif, 1966.- 422 s.

### *RUS DILINDƏ*

Краткий курс теоретической физики.- М.: Наука, 1969.-271 с.

Механика сплошных средств – М.: Наука, 1953.- 788 с.

Теоретическая физика: В 10 т-х.- М.: Наука, 1979.- 1988.

Курс общей физики - М.: Наука, 1969.- 399 с.

Физика для всех - М.: Наука, 1984.- 207 с.

### *Haqqında*

Абрикосов А.А. Академик Л.Ландау.-М.:Наука.-1965.-48 с.

Академик Лев Давидович Ландау: Сборник.- М.: Наука, 1978.- 114 с.

Айванова А.М. Ландау - М.: Знание.- 1988.- 352 с.

Бессароб М.Я. Ландау: Страницы жизни. - М.: Наука.- 1978.- 135 с.

Бессароб М.Я. Формула счастья Ландау. - М.: Наука.- 1999.- 184 с.

Воспоминания о Л.Д. Ландау - М.: Наука.- 1988.- 352 с.

Научное творчество Л.Д.Ландау - М.: Знание.- 1963.- 31 с.

***BƏYBALA ƏLƏSGƏROV***

**VISOTSKİ VLADİMİR SEMYONOVİÇ -70**

**Yanvar**
**25.01.1938-**
**27.07.1987**

***Aktyor***



Vladimir Semyonoviç Vısotski 1938-ci il yanvarın 25-də Moskvada anadan olmuşdur. Onun uşaqlığı müharibə illərinə təsadüf etmişdir. 1947-ci ildən 1949-cu ilə kimi atası və analığı ilə Almaniyada yaşamış, sonradan Moskvaya qayıdıb müəllimlər evindəki dram dərnəyinə getmişdir. Tikinti-mühəndisləri institutuna daxil olub, lakin oranı tərk edib Moskva Bədii Akademik teatrın nəzdindəki V.İ.Nemiroviç-Dançenko adına məktəb studiyasının aktyorluq şöbəsinə daxil olmuşdur.1960-cı ildə oranı bitirib, A.S.Puşkin adına dram teatrında fəaliyyətə başlayıb.1964-cü ildən ömrünün sonuna qədər Moskva dram və komediya teatrında işləmişdir.O, “Qalileyin həyatı”, ”Hamlet”,”Puqaçov”, “Albalı bağı”, “Cinayət və cəza” tamaşalarında baş rollarda çıxış etmişdir. Bir neçə tamaşada Vısotskinin mahnıları səslənmişdir. V.Vısotski ilk şeirlərini tələbəlik illərində yazmışdır. İlk kitabı “Tatuirovka”(“Döymə”)1961-ci ildə çap olunmuşdur.

V.Vısotski 1959-cu ildən kinoya çəkilmişdir.1960-cı ilin I yarısından Vısotski mahnılarını gitarada ifa etməyə başlamışdır. 1968-ci ildən Vısotskinin mahnıları mətbuatda ciddi tənqid edilmiş və SSRİ-də kitablarını bir iki mahnı və şeirindən başqa çap etdirmək mümkün olmamışdır. 70-ci illərin II yarısından başlayaraq xarici ölkələrdə konsertlərlə çıxış etmişdir. 1980-ci ilin 18 iyulunda “Hamlet” tamaşasından bir həftə sonra ayın 27-də vəfat etmişdir. 1981-ci ildə SSRİ-də onun ilk kitabı “Əsəb”(“Nerv”) çap olunmuşdur. 1987-ci ildə, ölümündən sonra ona “Görüş yerini dəyişmək olmaz” filmindəki roluna görə SSRİ Dövlət mükafatı verilmişdir.

## ƏSƏRLƏRİ

Lev Yaşinin söhbəti: (şeir) //Ulduz.-2005.-№1.-S.25-26.

* * *

Uzaq Şərq; Mənim qonşum // Yeni Azərbaycan.- 2002.- 11 oktyabr.- S. 13.

***Rus Dilində***

Сочинения: В 2-х т.-М.: Худож. Литература, 1991.- Т.1: Песни.- 638 с.; Т. 2: Стихотворения. Песни театра и кино. Поэма, проза и драматургия.- 543 с.

**Nəzirə Nağıyeva**

## KRILOV İVAN ANDREYEVİÇ - 240

*Şair*

**Fevral**
**02.02.1768-**
**21.11.1844**



Rus yazıçısı, təmsilçi, jurnalist İvan Andreyeviç Krılov 1768–ci il fevralın 13-də Moskva şəhərində anadan olmuşdur. O, sistemli təhsil almış, müstəqil olaraq ədəbiyyatı, riyaziyyatı, fransız və italyan dillərini öyrənmişdir. 1782-ci ildə 14 yaşında əyalət mülkədarlarının adətlərini təsvir edən "Qəhvədan" adlı komik operasını yazmışdır. 1786-1788-ci illərdə "Quduz ailə", "Yazıçı dəhlizdə", "Dəcəllər" adlı komediyalarını yazmışdır. Jurnalistlik fəaliyyətinə 1792-ci ildə yazdığı "Qaib" povesti ilə başlamışdır. Krılovun satiraları II Yekaterinanın narazılığına səbəb olduğundan o, bir müddət ədəbi fəaliyyətdən əl çəkmiş və əyalətdə gizlənmişdi.

1799-1800-ci illərdə Krılovun hökumət əleyhinə yazdığı "Trumf" məzhəkə-faciəsi əlyazma şəklində geniş yayılmışdır. Onun 1807-ci ildə yazdığı "Moda dükanı", "Qızlara nəsihət" komediyaları, "İlya Muromets" komik operası şöhrət qazanmışdır.

1809-cu ildə Krılovun təmsillərdən ibarət ilk kitabı nəşr olunmuşdur. Krılov yaradıcılığı rus təmsilinin zirvəsi səviyyəsinə yüksəlmişdir. O, atalar sözü, nağıl və məsəllərdən məharətlə faydalanmış, rus ədəbi dilinin inkişafında mühüm rol oynamışdır. Əsərləri bir sıra dillərə tərcümə olunmuşdur. Təmsilləri XIX əsrin 30-cu illərindən Azərbaycanda da geniş yayılmışdır. "Eşşək və bülbül" təmsilini A.A. Bakıxanov Azərbaycan dilinə tərcümə etmişdir.

Krılov 1844-cü il noyabrın 21-də Peterburqda vəfat etmişdir.

## ƏSƏRLƏRİ

Seçilmiş təmsillər.- B.: Gənclik, 1988.- 89 s.

*   *   *

Danışan çiçəklər.-B.: İşıq, 1977.- 50 s.
Təmsillər.- B.: Gənclik, 1982.- 80 s.
Təmsillər.-B.: Şərq-Qərb, 2006.- 141 s.

## *RUS DİLİNDƏ*

Мехтиева М. И. И.А. Крылов и азербайджанская литература.- Б.: Элм, 1985.-182 с.

***SAQİBƏ MEHRƏLİYEVA***

**JÜL VERN – 180**

*Yazıçı*

**Fevral**
**08.03.1828-**
***24.03.1905***



Elmi fantastik roman janrının yaradıcılarından olan Jül Vern 1828-ci il fevral ayının 8-də Fransanın Nant şəhərində anadan olmuşdur. Fransız yazıçısı Jül Vern ədəbi fəaliyyətə 1849-cu ildən başlamışdır. Yazıçıya şöhrət qazandıran 1863-cü ildə yazdığı «Beş həftə hava şarında» romanı olmuşdur. Bunun ardınca Jül Vern çoxlu elmi–fantastik ictimai-satirik macəra, roman və povestləri yazmışdır.

1867-1868-ci illərdə «Ka-pitan Qrantın uşaqları», «80000 kilometr su altı ilə», 1869-1870-ci illərdə «80 günlük dünya səyahəti», 1872-ci ildə «Gizli ada», 1875-ci ildə «On beş yaşlı kapitan», 1878-ci ildə «Üzən ada» və sairə əsərlərini yazmışdır.

Onun 1892-ci ildə yazdığı məşhur «Klodius Bombarnak» əsərində Azərbaycan (Gəncə, Bakı, Xəzər dənizi və s.) haqqında da danışılır.

Vernin yaradıcılığında Yer və Kainat sirlərini açmağa cəhd göstərən elmi romantika güclüdür. Onun qəhrəmanları təmənnasız alimlər, milli zülmə, müstəmlə-kəçiliyə qarşı etiraz edən humanistlərdir. Vern elmin na-iliyyətlərindən varlıların xeyrinə istifadə olunmasının əleyhinə çıxmışdır. Yaradıcılığı bir çox görkəmli alim, ixtiraçı və səy-yahın (D.I.Mendeleyev, K.E. Si-olkovski, F.Nansen və b.) elmi axtarışlarına güclü təsir gös-tərmişdir. Ayın arxa tərə-findəki kraterlərdən birinə Vernin adı verilmişdir. Onun bir çox əsərləri dünya xalqlarının dil-lərinə tərcümə edilmişdir. Azərbaycan dilinə tərcümə olunan əsərlərindən 1936-cı ildə «Gizli ada», 1948-ci ildə «Ka-pitan Qrantın uşaqları», «80 000 kilometr su altı ilə», 1970-ci ildə «Arxipelaq alovlanır»ı göstərmək olar.

Elmi fantastik roman jan-rının yaradıcılarından olan Jül Vernin əsərləri illər keçsə də oxucular tərəfindən sevilə-sevilə oxunur. Jül Vernin 2008-ci il fev-ral ayının 8-də anadan olmasının 180 illik yubileyi tamam olur. Bu baxımdan onun həyat və yaradı-cılığının təbliği məqsədi ilə

kitabxanalar kütləvi tədbirlərin müxtəlif formalarından məqsədyönlü şəkildə istifadə etməlidirlər.

## ƏSƏRLƏRI

Arxipelaq alovlanır.–B.: Gənclik,1989. – 348 s.
Kapitan Qrantın uşaqları:roman.–B.:Gənclik,1987. – 530 s.
On beş yaşında kapitan /Tərc. ed. Məhəmmədzadə M.-B.:Azərnəşr, 1930.-143 s.
Sirli ada:I Hissə /Tərc ed. I.Nəfisi.-B.:Uşaqgəncnəşr, 1939.-304 s.; II hissə /Tərc. ed. Z.Abdullayev.-334 s.; III hissə /Tərc. ed. Ə.Ənvər.-328 s.

## *RUS DILINDƏ*

В пагоне за метеором. – Алма-Ата: Наука Каз.ССР,1988.-285 с.
Вверх дном.- Пермь: Кн. Изд.-во,1984.- 472 с.
Властелин мира.– Киев: Молодеж, 1983. – 280 с.
Вокруг света восемьдесят дней: Путешествие к центру земли. – Пермь: Кн.изд.-во, 1983. – 400 с.
80 000 километров под водой.-Тбилиси: Ганатлеба, 1986.–411 с.
Двадцать тысяч лье под водой. – М.: Правда,1990. – 446 с.

***SAMIRƏ EMINOVA***

***Akademik, coğrafiya elmləri doktoru***



Azərbaycanın Milli Elmlər Akademiyasının həqiqi üzvü, coğrafiya elmləri doktoru, professor Budaq Əbdüləli oğlu Budaqovun elmi yaradıcılığı Azərbaycan Respublikası ərazisinin geomorfologiyasının, landşaftının, yeni tektonik hərəkətlərinin, coğrafiya tarixinin, ekologiyasının, ətraf mühitin qorunmasının və poeziyada təbiət problemlərinin tədqiqinə həsr edilmişdir.

Budaq Budaqov 23 fevral 1928-ci ildə Zəngibasar qəzasının Çobankərə kəndində anadan olmuşdur. O, 1940-cı ildə həmin rayonun Mehmandar kəndində 7 illik məktəbi bitirərək Yerevan şəhərindəki pedaqoji məktəbə daxil olmuşdur. 1947-ci ildə pedaqoji məktəbi, 1951-ci ildə isə indiki Azərbaycan Pedaqoji Universitetinin Coğrafiya fakültəsini bitirmişdir. B. Budaqov hələ ali təhsil alarkən Böyük Qafqazın intruziv süxurlarını öyrənən geoloji ekspedisiyanın tərkibində (1948-1949-cu illərdə) kollektor vəzifəsində işləmişdir. 1951-1955-ci illərdə Azərbaycan SSR Elmlər Akademiyasının Coğ-rafiya Institutunda aspirant kimi təhsil almış və Moskva şəhərində namizədlik dissertasiyası müdafiə etmişdir. 1968-ci ildə coğrafiya elmləri doktoru, 1969-cu ildə professor, 1976-cı ildən isə Azərbaycan SSR Elmlər Akademiyasının üzvü olmuşdur. 1967-ci ildən Azərbaycan SSR Elmlər Akademiyasının Coğrafiya Institutunda Landşaftşünaslıq şöbəsinin müdiri, 1974-cü ildən isə həmin Institutda direktor, elmi işlər üzrə direktor müavini vəzifələrində işləmişdir. O, kiçik elmi işçidən Institutun direktoru, professor, akademik kimi yüksək elmi mənsəbə öz çalışqanlığı, böyük zəhməti və istedadı sayəsində nail ola bilmişdir. Görkəmli alim zəngin yaradıcılığı ilə coğrafiya elminə 18 fundamental monoqrafiya, 20 atlas və xəritə, ali və orta ixtisas məktəbləri üçün 2 dərslik və 600-dən çox məqalə bəxş etmişdir. Bu illərdə elmi işlərlə yanaşı Budaq Budaqov pedaqoji fəaliyyətinidə müvəffəqiyyətlə davam etdirmiş, N.Tusi adına Azərbaycan Dövlət Peda-

qoji Institutu və Bakı Dövlət Universiteti kimi yüksək ali təhsil ocaqlarında mühazirələr oxumuşdur.

Müəllifin coğrafiya elminin problemlərinin tədqiqinə həsr edilmiş fundamental əsərləri içərisində 1973-cü ildə yazdığı «Cənubi-şərqi Qafqazın geomorfologiyası və yeni tektonikası» adlı monoqrafiyası xüsusilə seçilir. Bu əsər fundamentallığına və təcrübi əhəmiyyətinə görə 1978-ci ildə keçmiş SSRI Coğrafiya Cəmiyyətinin «N.M. Prjevalski adına» qızıl medalına layiq görülmüşdür.

Görkəmli alim Budaqov ilk dəfə olaraq yeni tektonik hərəkətlərin Azərbaycan ərazisi, landşaftının formalaşmasına təsirini öyrənməyə müvəffəq olmuşdur. O, 1970-1975-ci illərdə respublika ərazisindəki palçıq vulkanlarının landşaftını öyrənmiş və iri miqyaslı xəritəsini tərtib etmişdir. Onun rəhbərliyi ilə respublikada fiziki coğrafiyanın müxtəlif sahələrini əhatə edən 30-dan çox namizədlik disser-tasiyası müdafiə edilmiş və yeni məktəb formalaşmışdır. Akade-mikin yaradıcılığının geniş diapa-zonu, onun müxtəlif elmləri yaxşı mənimsəməsi, dərin məntiqi düşüncəsi və zəngin təxəyyülü ilə bağlıdır. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya Institutunda toponimikanın inkişaf etdirilməsində də alimin xidmətləri olduqca böyükdür.

«Türk uluslarının yer yaddaşı» (1994), «Ermənistanda Azərbaycan mənşəli toponimlərin izahlı lüğəti» (1998) adlı kitabları, çoxsaylı elmi məqalələri və yeni tərtib etdiyi xəritələr Azərbaycanşünaslığa dair zəngin və gərəkli məxəzlərdir.

Müəllif «Türk uluslarının yer yaddaşı» kitabında ilk dəfə olaraq türk dünyası ərazisində qədim dövrlərdən bu günə qədər yaddaşlarda və yer adlarında daşlaşmış coğrafi toponimlərin «dilini» açmışdır. Budaq Budaqov ətraf mühitdə hadisə və proseslərin ekoloji aspektlərinin öyrənilməsi sahəsində də xeyli iş görmüşdür. Bu mövzuda onun «Təbiəti qoruyaq» (1977), «Azərbaycanın təbiət abidələri» (1980), «Təbiət və poeziya» (1992) adlı kitabları, «Azərbaycan ərazisinin ekoloji-coğrafi rayonlaşması» adlı xəritəsi və 30-a qədər elmi əsəri mövcuddur.

Ömrünün yarıməsrlik ən qaynar və yaradıcı dövrünü coğrafiya elminin yeni ixtisas sahələrinin inkişafına, onun problemlərinin həllinə sərf etmiş olan görkəmli coğrafiyaşünas alim Budaq Budaqovun elmi fəaliyyəti təkcə respublikamızla məhdudlaşmır. O, həm də MDB ölkələri, o cümlədən Mərkəzi Asiya dövlətləri üçün də coğrafiyanın müxtəlif sahələri üzrə elmi kadrların yetişdirilməsi sahəsində böyük xidmətlər göstərmişdir. Görkəmli alim keçən illər ərzində Azərbaycanın coğrafiya elminin

müxtəlif problemlərinə həsr edilmiş 50-dən çox beynəlxalq əhəmiyyətli qurultay, konfrans və simpoziumlarda iştirak etmişdir.

Ümummilli lider Heydər Əliyev Azərbaycanın elm və təhsilinin inkişafında göstərdiyi xidmətlərinə görə 2001-ci ildə akademik Budaq Budaqovu ölkənin yüksək mükafatı olan «Şöhrət» ordeni ilə təltif etmişdir.

Tanınmış ictimai-siyasi xadim, Azərbaycan Respublikası Ağsaqqallar Şurasının sədri, Azərbaycan Coğrafiya Cəmiyyətinin prezidenti, Milli Elmlər Akademiyasının həqiqi üzvü, Coğrafiya Institutunun direktoru, akademik Budaq Budaqov həyatının ahıl çağında da yorulmadan yaradıcı, məhsuldar ömür sürür.

Ağsaqqal dünyası.– B.: Ismayıl NPM, 2002.– 70 s.
Alazan-əyriçay çökəkliyinin landşaftı.– B.: Elm, 1979.– 112 s.
Azərbaycan təbiəti.–B.: Işıq, 1980.– 59 s.
Böyük Ipək (Karvan) Yolu.– B.: Nafta-Press, 2006.– 15 s.
Budaqov B., Əliyev C. Türklər, azərbaycanlılar, ermənilər: tarixi həqiqətin soyqırımı.– B., 2003.– 168 s.
Budaqov B., Qəribli Y. Azərbaycan Respublikasının fiziki coğrafiyası: 8-ci sinif üçün dərslik.– B.: Təhsil, 2003.– 183 s.
Budaqov B. və b. Ümumi geomorfologiya: Dərslik /Budaqov B., Müseyibov M.A., Şirinov N. Ş.– B.: Maarif, 1986.– 264 s.
Coğrafiya elminin uğurları.–B.: Ismayıl NPM, 2001.– 319 s.
Çay kimi çağlayan ömür.– B.: Ismayıl NPM, 2002.– 191 s.
Əfsanəvi dağlar.– B.: Elm, 1973.– 86 s.
Heydər Əliyev fenomeni /AMEA H.Ə.Əliyev adına Coğrafiya Institutu.– B.: Ismayıl NPM, 2002.–137 s.
Heykəli xalq məhəbbətindən qoyulmuş yenilməz alim.– B., 2006.– 31 s.
Təbiəti qoruyaq.– B.: Elm, 1977.– 65 s.
Vətən yanğısı: (XX əsrdə Azərbaycana qarşı erməni təcavüzü) .– B.: Oğuz eli, 2002.– 230 s.

* * *

Budaqov B. Azərbaycan elminin növbəti uğurları: (2001-ci il iyun ayının 29-30-da Azərbaycan Milli Elmlər Akademiyasında keçirilən seçkilər haqqında) //Respublika.– 2001- 14 iyul.– S. 3.
Budaqov B. Elmə Prezident qayğısı //Xalq qəzeti.– 2005.– 27 dekabr.– S. 4.

Budaqov B. Ermənilər əzabkeş xalq yox, soyqırımı törədən xalq-dır//Azərbaycan.–2006.–29 mart.– S. 7.

### *HAQQINDA*

Paşayev N. Elmimizin və elimizin ağsaqqalı: Budaq Budaqov – 75 //Xalq qəzeti.–2003.– 23 fevr.– S. 5.

Şükürov A. Elm fədaisi //Azərbaycan .– 2005.– 1 iyun.– S. 8.

Şükürov A. Təbiətlə poeziyanın vəhdəti //Azərbaycan.– 2006.– 25 may.– S. 8.

Tahir R. Ağsaqqallar ağsaqqalının ömür yolu //Xalq qəzeti.– 2005.– 26 aprel.– S. 5.

### *RUS DILINDƏ*

Будагов Б. А., Алиев Г.Б. География Азербайджанской ССР: Учебное пособие для 7-8-х классов.– Б.: Маариф, 1986.– 166 с.

Будагов Б.А., Гарибли Я. Физическая география Азербайджанской Республики: Учебник.–Б.: Тахсил, 2004.– 194 с.

Будагов Б. А. Геоморфология и новейшая тектоника Юго-Восточного Кавказа.–Б.: Элм, 1973.– 246 с.

Будагов Б. А., Керимов Э.А. Кавказский отдел Императорского Русского Географического Общества и вопросы географии Азербайджана.–Б.: Исмаил, 2002.– 92 с.

Будагов Б. А. Тюркские топонимы Евразии.–Б.: Огуз эли, 1998.– 243 с.

## *ABDULLAYEVA ADILƏ*

## SƏYAVUŞ SƏRXANLI-65

*Şair*

***Fevral***
**23.02.1943-2005**



Şair və publisist Sərxanlı Səyavuş Əli oğlu 1943-cü il fevralın 23-də Azərbaycanın Şəmkir rayonun Morul kəndində dəmirçi ailəsində anadan olmuşdur. Nizami adına Şəmkir şəhər orta məktəbini qızıl medalla bitirərək N.Nərimanov adına Azərbaycan Dövlət Tibb İnstitutuna daxil olmuşdur. Lakin arzusu ilə təhsili yarımçıq buraxıb istehsalat və mədəniyyət sahələrində çalışmışdır: taun əleyhinə səyyar mübarizə dəstəsində, 23 saylı Yevlax tikinti idarəsində fəhlə, Nizami adına Şəmkir şəhər Pionerlər evi uşaq xorunun dirijoru, Mədəniyyət evi dram dərnəyinin rəhbəri, "Ulduz" rayon qəzetində korrektor olmuşdur. 1962-1967-ci illərdə ADU-nun filologiya fakültəsinin jurnalistika şöbəsində oxumuşdur.

Ədəbi fəaliyyətə orta məktəbdə oxuduğu illərdən başlamış, ilk qələm təcrübəsini "Qırmızı Şamxor" rayon qəzetində çap etdirmişdir. 1961-ci ildə "Azərbaycan gəncləri" qəzetində Xalq şairi Nəbi Xəzrinin təqdimatı ilə "Cığır" və "Səslədi məni" şeirlərinin dərc olunması onun poetik yaradıcılığında dönüş yaratmışdır. S.Sərxanlı poetik tərcümə ilə məşğul olmuşdur. "Ulduz" jurnalında ədəbi işçi, nəşr, poeziya şöbəsinin müdiri işləmişdir.

1980-ci ildə Azərbaycan Yazıçılar Birliyinin xətti ilə M.Qorki adına Ədəbiyyat İnstitutu nəzdində olan Ali ədəbiyyat kurslarına təhsil almağa getmişdir. Bundan sonra o, Yazıçılar Birliyinin Oçerk və Bədii publisistika Şurasının, SSRİ Yazıçılar İttifaqının Bədii Publisistika Şuralarının üzvü olmuşdur.

1969-cu ildə gənc şairlərin Alma-Atada keçirilən Ümumittifaq poeziya festivalında, 1975-ci ildə Sibirdə Sovet ədəbiyyatı günlərində, 1976-cı ildə Pribaltikada Azərbaycan poeziya günlərində iştirak etmişdir.

Şair 1978-ci ildə Sovet jurnalistləri dəstəsində İtaliyada səfərdə olmuşdur. 1981-ci ildə SSRİ–Kompuçiya Dostluq Cəmiyyəti Azərbaycan Şurasının üzvü seçilmişdir. Həmçinin həmin ildə "Molodaya qvardiya" jurnalının xüsusi mükafatına layiq görülmüşdür.

S. Sərxanlı Z.Nurinin "Qovaqlı sahillər", M. Çarinovun "Dağlı sevgisi", "Ömrün şirin günləri", A. Aripovun "Bir cüt qara göz", N. Dumbadzenin "Ədəbiyyat qanunu" kitablarını Azərbaycan dilinə tərcümə etmişdir.

S.Sərxanlı 1971-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, 1977 və 1985-ci illərdə Azərbaycan Jurnalistlər Birliyinin "Qızıl qələm" mükafatı laureatı, 1980-ci ildə Ümumittifaq N.Ostrovski mükafatı laureatı, 1991-ci ildə "Məmməd Araz" və 2000-ci ildə "Nəcəf Nəcəfov" mükafatları laureatı olmuşdur.

1983-cü ildən ömrünün axırına kimi "Azərbaycan" jurnalının redaksiyasında işləmişdir.

Sevimli şair 2005-ci ildə Bakıda vəfat etmişdir.

## *ƏSƏRLƏRI*

Anamın səsi gəlir: (Şeirlər).- B.: Gənclik, 1978.- 118 s.

Duz-çörək (Şeirlər və poemalar).- B.: Yazıçı, 1986.- 160 s.

Qayıt:(Şeirlər).- B.: Gənclik, 1968.- 24 s.

Mənim nərgizli dünyam: (Şeirlər).- B.: Yazıçı, 1980.- 38 s.

Məni soruşan olsa...- B.: "Yeni nəsil", 2003.- 145 s.

Yaxın uzaq ellərdə.- B.: Yazıçı, 1982.- 194 s.

Yormaz bu yollar məni.- B.: Yazıçı, 1979.- 202 s.

## *TƏRCÜMƏLƏRİ*

Aripov A. Bir cüt qara göz.- B.: Yazıçı, 1988.- 87 s.

Çarinov M. Dağlı sevgisi.- B.: Yazıçı, 1984.- 82 s.

Çarinov M. Ömrün şirin günləri.- B.: Yazıçı, 1986.- 120 s.

Dumbadze N. Ədəbiyyat qanunu.- B.: Yeni nəsil, 2003.- 115 s.

Nuri Z. Qovaqlı sahillər.- B.: Yazıçı, 1979.- 96 s.

***BƏYBALA ƏLƏSGƏROV***

*Yazıçı*



Görkəmli şair, dramaturq, publisist və ictimai xadim olan Sergey Vladimiroviç Mixalkov 1913-cü ildə Moskvada anadan olmuşdur. O,1971-ci ildən SSRİ Pedaqoji EA həqiqi üzvü , 1973-cü ildən Sosialist Əməyi Qəhrəmanıdır .Uşaqlar üçün canlı, maraqlı dildə yazdığı şeirlərində ("Styopa dayı", "Bəs sizdə nə var?" və s.) və pyeslərində ("Qırmızı qalstuk",1946, "Qiymətli oğlan",1971) gənc nəslə əməyə, vətənə məhəbbət, nəcib mənəvi-əxlaqi keyfiyyətlər aşılanır. Böyük Vətən müharibəsi illərində hərbi müxbir kimi oçerk , hekayə, satirik şeir və felyetonlar yazmışdır. Mixalkovun aktual mövzulu təmsilləri məşhurdur. Yaşlılar üçün yazdığı "İlya Qolovin" (1950) pyesi "Ovçu"(1956), "Vəhşilər" (1958), "Özünə abidə..." (1959), "Xərçənglər", (1960) satirik komediyaları əhali arasında böyük rəğbət qazanmışdır. Onun gənc nəslin tərbiyəsindən bəhs edən "Hər şey uşaqlıqdan başlanır"(1968), "Zamanın əlamətləri"(1976) adlı kitabları vardır. Əsərləri bir çox dilə, o cümlədən Azərbaycan dilinə tərcümə edilmişdir. "Xərçənglər", "Qiymətli oğlan" pyesləri Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur.

S.V.Mixalkov SSRİ Yazıçılar İttifaqı İdarə Heyyətinin katibi, RSFSR Yazıçılar İttifaqı İdarə Heyyətinin sədri, 1962-ci ildən "Fitil" satirik jurnalının baş redaktoru vəzifələrində çalışmışdır. S. V. Mixalkov SSRİ Ali Sovetinin 8-10-cu çağırış deputatı olmuşdur. O, 3 dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni, 3 başqa orden və medallarla təltif olunmuşdur.

## ƏSƏRLƏRİ

Bəs sizdə nə var?.- B.: Uşaqgəncnəşr. 1960.-16 s.

Foma.- B.: Azərnəşr, 1964.-16 s.

*    *    *

Избранные произведения: В 3-х т.- М. Худож. лит.,1991.- Т.1: Стихотворения. Перевозы. Сказки. Театр для детей.- 541 с.

Т.2: Басни и сатирические стихи. Рассказы. Миниатюры. Комедии.-1991.- 510 с.

.

***ARZU BABAYEVA***

**ƏNVƏR MƏMMƏDXANLI-95**

*Xalq yazıçısı*

***Fevral***
**29.02.1913-**
**19.12.1990**



Azərbaycan Xalq yazıçısı, Əməkdar incəsənət xadimi, kinodramaturq və tərcüməçi, nasir Ənvər Məmmədxanlı 1913-cü il fevral ayının 29-da Göyçay şəhərində anadan olmuşdur. Burada ibtidai məktəbi bitirdikdən sonra Bakıda N.Nərimanov adına Sənaye Texnikumunda təhsil almışdır. Sonra Bakıda texniki zavodda, energetika və elektrikləşdirmə idarəsində texnik, Azərbaycan Neft Institutu nəzdində olan Elmi-tədqiqat Institutunda texnik-elektrik işləmişdir. 1934-1935-ci illərdə Azərbaycan Neft Institutunda iki il qiyabi təhsil almışdır.

1938-ci ildə Ümumittifaq Dövlət Kinematoqrafiya Institutunu bitirmişdir.

1944-1946-cı illərdə Təbrizdə nəşr olunan «Vətən yolunda» ordu qəzeti redaksiyasında xüsusi müxbir işləmişdir. 1946-1964-cü illərdə «Azərbaycanfilm» kinostudiyasının baş redaktoru olmuşdur. Ədəbi fəaliyyətə 1930-cu illərdən başlamışdır. Əsərləri keçmiş SSRI və xarici ölkə xalqlarının dillərinə tərcümə olunmuşdur.

Ilk iri həcmli əsəri Bakı neftçilərinin həyatına həsr olunmuş «Burulğan» (1934) povestidir. Məmmədxanlının hekayələri Azərbaycan ədəbiyyatında lirik-romantik nəsrin inkişafında mühüm rol oynamışdır.

40 ildən artıqdır ki, dərslik və müntəxabatlara düşən «Buz heykəl», eləcə də «Sevinc», «Anamın ölümü» hekayələri, «Bəxtiyar» kino-novellası, digər hekayə, oçerk və yol qeydləri 1941-1945-ci illər müharibə dövrünün Ə.Məmmədxanlı yaradıcılığındakı özünəməxsus xüsusiyyətidir. Məmmədxanlının «Od içində» pyesi, «Şirvan gözəli» komediyası Aşqabad, Tula, Ufa, Kazan şəhərlərində tamaşaya qoyulmuşdur.

1957-ci ildə yazdığı «Şirvan gözəli» lirik komediyasında ehkamçı alimlər tənqid olunur. Komediya Zaqafqaziya Teatr baharında 1-ci dərəcəli Diploma layiq görülmüşdür.

Azərbaycan kinematoqrafiyasının inkişafında Ə.Məmmədxanlının özünəməxsus xidmətləri olmuşdur. Onun ssenariləri əsasında hazırlanmış «Fətəli xan», «Bəxtiyar», «Babək», «Məhəbbət dastanı» bədii filmləri çəkilmişdir… Məmmədxanlının hekayələri Azərbaycan ədəbiyyatında lirik-romantik nəsrin inkişafında mühüm rol oynamışdır. O, Böyuk Vətən müharibəsi illərində cəbhə qəzetinin müxbiri olmuş, Cənübi Azərbaycan zəhmətkeşlərinin ağır həyatından, mübarizəsindən bəhs edən hekayələr yazmışdır. «Karvan dayandı», «Qızıl qönçələr», «Baş xiyabanda» və s. heykayələri buna misaldır.

«Leyli və Məcnun», «Xürrəmilərin ağ şahini» Ə. Məmmədxanlının bu janrda yazılmış əsərlərinin ən yaxşılarıdır. Azərbaycan ədəbiyyatının böyük dəryasında Ə. Məmmədxanlının öz adası var. Məmmədxanlı iki dəfə «Şərəf nişanı» (1946,1949), «Qırmızı Əmək Bayrağı» (1980-1983) və «Ikinci Dünya müharibəsi» (Ikinci dərəcəli) ordenləri, döyüş medalları ilə təltif olunmuşdur.

1938-ci ildən Yazıçılar birliyinin üzvü olmuşdur.

1963-cü ildə Azərbaycan incəsənət xadimi adına layiq görülmüşdür.

A.S.Puşkin, L.N.Tolstoy, M. Qorki, A.N.Ostrovski, V.Şekspir və T. Drayzerin əsərlərindən tərcümələr etmişdir. Əsərləri SSRI xalqları dillərinə və bəzi xarici dillərə tərcümə olunmuşdur.

Sevimli yazıçı 1990-cı il dekabr ayının 19-da Bakıda vəfat etmişdir və Fəxri xiyabanda dəfn olunmuşdur.

Ə.Məmmədxanlının anadan olmasının 95 illiyi münasibətilə onun yaradıcılığının daha geniş təbliği üçün kitabxanalarda müxtəlif tədbirlər keçirmək lazımdır.

## *ƏSƏRLƏRI*

Seçilmiş əsərləri.-B.:«Avrasiya press», 2005.- 413 s.

Seçilmiş əsərləri.-B.: Yazıçı.- 1985.-243 s.

Seçilmiş əsərləri: Hekayələri və povestləri.- B.: Azərnəşr, 1960.-496 s.

And.- B.: Azərnəşr,1947.-319 s.

Babək: Roman.- B.: Azərnəşr,1994.-262 s.

Bakı gecələri.-B.: Azərnəşr, 1936.-214 s.

Burulğan.-B.:Azərnəşr,1934.-

119 s.
Qızıl qönçələr.- B.:Gənclik, 1988.- 88 s.

### TƏRCÜMƏLƏRI

Qorki M. Özgə qapılarında.- B.:Gənclik, 1981.-380 s.

Qorki M. Uşaqlıq.-B.: Gənclik, 1982.-240 s.

### HAQQINDA

Əhmədov T. Azərbaycan yazıçıları.-B.:Önər.-1995.-188 s.

* * *

Bənna: Babək romanından bir parça //Ədəbiyyat qəzeti.-1993.- 20 avqust .-S.3.
Babək: Ədəbi ssenaridən səhnələr //Qobustan.-1980.- №1-2. – S.-55-57 .

Sevgi süfrəsi: «Babək» romanından //Ədəbiyyat və incəsənət.-1988.-19 fevral.-S.4.

### RUS DILINDƏ

Алые бутоны. -М.,1964.- 120 с.
Э.К.Мамедханлы-75: (Поздравление секретариата провлений Союза Писателей ССР) //Литературная газета.-1988.-11мая.-С.7.

Э.К.Мамедханлы-70 лет. Поздравления юбиляра //Литеrатурная газета.-1983.- 20 апреля.-С.6.
Власова М. Дороги: (70-летие писателя Энвера Мамедханлы) //Баку.– 1983.– 1 марта.– С.3.

### SAQIBƏ MEHRƏLIYEVA

## MAKARENKO ANTON SEMYONOVİÇ -120

**Mart**
**01.03.1888-**
***1939***

***Pedaqoq***



Məşhur rus pedaqoqu və yazıçısı Anton Semyonoviç Makarenko 1888-ci ildə Xarkov Quberniyasının Belopolye şəhərində fəhlə ailəsində anadan olmuşdur. 1917-ci ildə Paltava müəllimlər Institutunu bitirmişdir. Pedaqoji fəaliyyətə 1905-ci ildən başlamışdır. Əsərləri hələ keçən əsrdə bir çox dillərə, o cümlədən Azərbaycan dilinə də tərcümə olunmuşdur. Makarenkonun həyatı və pedaqoji irsi Azərbaycan ilə bağlıdır. 1930-cu ildə üç gün (23-25 iyul) Bakıda qalmış, Bibiheybət neftçilərinin həyatı ilə tanış olmuşdur. ”Ən yaxşı saatlarım” adlandırdığı bu görüşü Makarenko “30-cu ilin marşı” povestində təsvir etmişdir. O, “Tərbiyə işləri haqqında” (1948), ”Seçilmiş pedaqoji əsərləri” (1950), ”Pedaqoji poema”(1952) və s. kimi maraqlı əsərlərin müəllifidir. Onun “Pedaqoji poema” romanı və “Qüllələr üzərində bayraqlar” povesti ekranlaşdırılmışdır.

O, 1939-cu ildə Moskvada vəfat etmişdir.

### *ƏSƏRLƏRİ*

Pedaqoji poema / Tərcümə edəni A.Dadaşzadə.-B.: Uşaqgəncnəşr.-1952. -716 s.
Seçilmiş pedaqoji əsərləri.-B.:Maarif.-1983.-384 s.
Valideynlər üçün kitab.-B.:Azərtədrisnəşr, 1964.- 412 s.

### *HAQQINDA*

Muradxanov Mərdan. A.S.Makarenko Uşaqların ailə tərbiyəsi haqqında.- B.: Birlik nəşriyyatı, 1957.-56 s.

Muradxanov Mərdan A.S.Makarenkonun pedaqoji irsi və ondan Azərbaycanda istifadə edilməsi təcrübələri.- B.: “Maarif”.- 1965.-359 s.

### *RUS DILINDƏ*

Нежинский Н.П. А.С. Макаренко и современная школа.- Киев, 1970.- 155 с.

Ярмаченко Н.Д. Педагогическая деятельность и творческое наследие Макаренко.- Киев, 1989.- 189 с.

***GÜLƏR HÜSEYNOVA***

**BORİS NİKOLAYEVİÇ POLEVOY - 100**

**Mart**
**04.03.1908-**
**12.06.1981**

*Yazıçı*



Rus yazıçısı Boris Nikolayeviç Polevoy 1908-ci il martın 17-də Moskvada anadan olmuşdur. 1940-cı ildən Sov.İKP-nin üzvü, Böyük Vətən müharibəsində "Pravda"nın hərbi müxbiri olmuşdur. "Bit basmış adamın xatirələri" (1927), "İsti sex"(1939) povestlərinin müəllifidir. 1946-cı ildə yazdığı A.P.Meresyevdən bəhs edən "Əsil insan dastanı" məşhurdur. 1948-ci ildə çap olunan "Biz sovet adamlarıyıq" hekayə və oçerklər kitabı, 1949-50-ci illərdə yazdığı "Qızıl", 1962-ci ildə yazdığı "Çılpaq sahildə", 1966-cı ildə yazdığı "Həkim Vera" romanları müharibə və dinc quruculuq mövzularındandır. Polevoyun bir sıra əsəri ekranlaşdırılmış, S.Prokofyev "Əsil insan dastanı" romanı əsasında eyni adlı opera bəstələmişdir.

1959-cu ildə Beynəlxalq Sülh mükafatına, 1974-cü ildə Sosialist Əməyi Qəhrəmanı adına layiq görülmüşdür.Üç dəfə Lenin ordeni, Oktyabr İnqilabı ordeni, 2 Qırmızı Bayraq ordeni, başqa orden və medallarla, 2 dəfə Qızıl Sülh medalı, habelə bir sıra xarici ölkələrin orden və medalları ilə təltif edilmişdir.

Yazıcı 12 iyun 1981-ci ildə Moskva şəhərində vəfat etmişdir. Onun ölümündən sonra 1982-ci ildə adına ədəbi mükafat təsis edilmişdir.

## *ƏSƏRLƏRİ*

Əsil insan dastanı: Roman /Tərcümə edəni C. Məmmədov.- B.:Gənclik,1978.-304 s.

Kəşfiyyatçılar /Tərcümə edəni: Şıxəmirova.- B.: Uşaqgənc-nəşr, 1955.-36 s.

***RUS DILINDƏ***

Полевой Б.Н. До Берлина-896 километров.- М.: Воениздат.-1978.- 296 с.

Железнова Н. Настоящие люди Бориса Полевого. Очерк и творчества.- М., 1978.

***MƏTANƏT İBRAHİMOVA***



Azərbaycan Akademik Milli Dram Teatrının tarixi 1873-cü il martın 10-u və aprelin 17-də H.B.Zərdabinin təşəbbüsü, N.B. Vəzirov və Ə. Adıgözəlovun fəal iştirakı ilə M.F. Axundovun Bakıda səhnəyə qoyulmuş «Lənkran xanının vəziri» və «Hacı Qara» komediyalarının tamaşası ilə başlanıb. 1880-1890-cı illərdə C.Zeynalovun ev tamaşaları, rus-tatar məktəbinin müəllimi H. Mahmudbəyovun və H. Zərdabinin teatr truppaları Azərbaycan teatr sənətinin inkişafında mühüm rol oynamışdır. Məhz bu ev tamaşaları və truppaların fəaliyyəti nəticəsində H.Ərəblinski, M.Kazımovski, M. Hacınski, Ə. Vəli və b. görkəmli sənətkarların istedadı üzə çıxmışdı . Bu dövrdə əsasən M.F.Axundovun komediyaları, N.Nərimanovun «Nadanlıq», «Dilin bəlası», N.B. Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» və s. əsərləri tamaşaya qoyulmuşdur. 1900-cü ildə H.B. Zərdabi və H.Mahmudbəyovun truppaları əsasında ilk daimi teatr truppası yaranmış və Ə.B. Haqverdiyevin «Dağılan tifaq» pyesinin tamaşası ilə fəaliyyətə başlamışdır. Teatr yarandığı tarixdən bu günə qədər öz adını dəfələrlə dəyişdirmək məcburiyyətində qalmışdır. Bu da məlumdur ki, Azərbaycan əlifbası XX-XXI əsrlərdə üç dəfə dəyişilmişdir. Həmin əlifbalarda çıxan Azərbaycan mətbuatı və rusdilli qəzetlər öz informasiyalarında, məqalələrində və elanlarında teatrın adını öz dövrünə uyğun şəkildə vermişlər. Bakı şəhərində yaranıb fəaliyyət göstərən bu teatr dövlət təsisatına 1919-cu ildə keçirilmişdir. Bununla da kollektiv «Hökumət Teatrosu» adlanmışdır. Bir neçə il bu adla fəaliyyət göstərən teatrın adı Azərbaycan SSR Xalq Maarif Komissarlığı Kollegiyasının 24 aprel 1923-cü il tarixli Qərarı ilə dəyişdirilmişdir. Növbəti ildən kollektiv Dadaş Bünyadzadə adına Dövlət Türk Akademik Dram Teatrosu adlandırılmışdır.

Milli teatrımız 1933-cü ildə özünün yaranmasının 60 illiyini bayram etmişdir. Bu münasibətlə martın 5-də teatrın adının dəyişdirilməsi barədə

Azərbaycan Xalq Komissarları Sovetinin Qərarı elan olunmuşdur. Hökumət həm də teatrın adından Dadaş Bünyadzadənin adının götürülməsi barədə qərar vermişdir. Azərbaycan Dövlət Dram Teatrı bundan sonra inqilabçı Məşədi Əzizbəyovun adını daşımağa başlamışdır.

1959-cu ildə Dövlət Dram Teatrı Moskvada keçirilən Azərbaycan Ədəbiyyatı və Incəsənəti ongünlüyündə böyük sənət nailiyyətləri nümayiş etdirmişdir. Bunu nəzərə alaraq Azərbaycan SSR Nazirlər Soveti 16 dekabr 1959-cu ildə teatra «Akademik» adı vermişdir. Təxminən otuz iki il teatr yaradıcılıq yolunu bu ad altında inkişaf etdirmişdir: Məşədi Əzizbəyov adına Azər-baycan Dövlət Akademik Dram Teatrı.

1991-ci ildə Azərbaycan Respublikası müstəqilliyin yeni mərhələsinə qədəm qoyandan sonra bütün sahələrdə, əsasən təsisatlı mədəniyyət və incəsənət müəssisələrində adlar tədricən dəyişdirilmişdir. Beləliklə, Bakı şəhər Sovetinin 27 dekabr 1991-ci il tarixli Qərarı ilə, «Aka-demik» sözü saxlanılmaqla, teatrın adı yenə dəyişdirilmişdir. Həmin gündən kollektiv bu adla fəaliyyət göstərir: Akademik Mil-li Dram Teatrı.

### *ƏDƏBIYYAT*


Cəfərov C. Azərbaycan teatrının salnaməsi: (1850-1920).-B.: Azərnəşr, 1975.-197s.

Rəhimli I. Azərbaycan teatr tarixi.-B.:Çaşıoğlu, 2005.-S.-172-176.

* * *

Əhmədov Ə. Elmi-metodoloji araşdırmalar /Milli teatrımız haqqında //Yaddaş.-2004.-5 mart.-S.5.

Israfilov I.AMT-nin dünəni və bu günü barədə bəzi qeydlər (Azərbaycan Milli teatrı haqqında) //Qobustan.-2004.-№2.-S.18-21.

Vəkil Ə.Şərəfli yaradıcılıq yolu: Azərbaycanda təcrübəli peşəkar teatrın yaradılmasının 125 illiyi qarşısında //Mədəniyyət.-1998.- 24-25 sentyabr.-S.22.


### *RUS DILINDƏ*


Алиева А. Русская драматургия на азербайджанской сцене.-Б.: Азернешр,1958.-С. 65.

* * *

Юбилей азербайджанского теат ра будет отмечен на высоком уровне с заседания организационного Комитета, созданного в связи с проведением 125 летия нашего светского профессионального театра //Бакинский рабочий.-1999.-26 февраля.-С.3.


**SARA QƏDIMOVA**

**SAMƏT ƏLIZADƏ-70**

***Ədəbiyyatşünas***

***Mart***
**14.03.1938-**
**31.03.2002**



Filologiya elmləri doktoru, professor, Azərbaycanın görkəmli filoloqlarından biri Samət Qüdrət oğlu Əlizadə 1938-ci ildə mart ayının 14-də Xızı kəndində anadan olmuşdur. 1955-ci ildə Siyəzən rayon orta məktəbini bitirən Samət 1955-1960-cı illərdə BDU-nun Filologiya fakültəsində, 1962-ci ildə dil tarixi üzrə BDU-nun aspiranturasına daxil olmuşdur. 1966-cı ildə «Şühədanamədə adlar» mövzusunda namizədlik, 1992-ci ildə «XVI əsr Azərbaycan ədəbi dili» mövzusunda doktorluq dissertasiyası müdafiə etmiş, filologiya elmləri doktoru elmi dərəcəsi almışdır. Bakı Dövlət Universitetindəki elmi pedaqoji çalışmaları boyu 6 tədris proqramı tərtib etmiş, 3 dərs vəsaiti, 1 dərslik yazmış, 7 namizədlik, doktorluq dissertasiyasının müdafiəsində rəsmi opponent olmuşdur.

S.Əlizadənin tədqiqat əsərləri Azərbaycan tarixi filologiyasının müxtəlif sahələrinin-tarixi qrammatika, etimologiya, mətnşünaslıq, poetika və ədəbi dil tarixinin fundamental nəzəri və təcrübi məsələlərinin həllinə həsr olunub. Onun «XVI əsr Azərbaycan ədəbi dili», «Klassik Azərbaycan şairləri söz haqqında», «Azərbaycan ədəbi dili tarixindən praktikum», «Orta əsrlərdə Azərbaycan yazı dili», «Əski Azərbaycan yazısı», «Şah beytlər» və s. kitabları bu qəbildəndir.

Qədim türk yazılı abidələrinin elmi-izahlı mətnlərin tərtibində, çapa hazırlanmasında, habelə Nəsimi, Xətai, Füzuli kimi böyük sənətkarların dilinin tədqiq edilməsində S.Əlizadənin xüsusi xidmətləri var. O, 1988-ci ildə nəşr etdirdiyi «Kitabi-Dədə Qorqud» əsərindən əlavə, abidə ilə bağlı on beş məqalə və tezis çap etdirib.

Ədəbi tənqid sahəsində də S.Əlizadənin öz dəsti-xətti olmuşdur. O, Azərbaycan dili və

ədəbiyyatı tarixinə aid biliklərin kütləviləşməsi və təbliği işində ardıcıl çalışan alimlərdən idi. Alim dövri mətbuatda istər klassiklər, istərsə də çağdaş yazıçılar haqqında onlarca məqalə dərc etdirmiş, iyirmi il «Füzuli poeziya günləri»nin fəal aparıcılarından olmuşdur.

S.Əlizadə 12 kitabın, 200-dək elmi və elmi-publisistik məqalənin müəllifi idi. S.Əlizadə bir neçə elmi şura və mədəni cəmiyyətin, Azərbaycan Yazıçılar Birliyinin və Azərbaycan Respublikası Prezidenti yanında AAK Ekspert Şurasının üzvü olmuşdur.

2000-ci ildə Samət müəllim xalqımızın ölməz abidəsi olan «Kitabi-Dədə Qorqud» dastanının yeni elmi tənqidi mətnini tərtib etmiş və «Kitabi-Dədə Qorqud» Ensiklopediyasının I cildini nəşrə hazırlayıb çap etdirmişdir. Həmin ildə S.Əlizadə Əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Görkəmli alim Saməd Qüdrət oğlu Əlizadə 2002-ci il martın 31-də ömrünün 65-ci ilində vəfat etmişdir.

## *ƏSƏRLƏRI*

Azərbaycan ədəbi dili tarixindən praktikum: Dərs vəsaiti.-B.: ADU, 1983.- 92 s.

Əski Azərbaycan yazısı: Ali məktəb ücün dərslik.-B.: BDU, 1993.-140 s.

Kitabi-Dədə Qorqud /Tərtib edəni S.Əlizadə.- B.: Yazıçı, 1988.-263 s.

Klassik Azərbaycan şairləri söz haqqında: (XI-XVIII əsrlər).-B.: Gənclik,1977.-112 s.

Orta əsrlərdə Azərbaycan yazı dili.-B.: ADU nəşriyyatı,1985.- 86 s.

Oğuznamə /Çapa hazırlayanı, müqəddimə, lüğət və şərhlərin müəllifi S.Əlizadə. -B.: Yazıçı, 1987.-221 s.

Şah beytlər.-B.: Azərnəşr, 1995.- 170 s.

## *HAQQINDA*

Abbaszadə B. Ömrü tarixə çevrilənlər /Filologiya elmləri doktoru Samət Əlizadə haqqında //Respublika.-2004.- 10 yanvar.-S.7.

Əzizov E. Milli varlığımız oğuz qaynaqlarının yaddaşında //Xalq qəzeti.- 2002.- 6 oktyabr.- S.4.

Kərimov Y. Dilim, taleyim mə-nim //Iki sahil.- 2003.-14 mart.-S.3.

Məmmədov Ş. Türkoloq alim

//Azərbaycan müəllimi.- 2004.- 23 aprel.- S.4.
Məmmədli F. Dəryada bir ovuc //Azərbaycan.-1985.-№10.- S.187-189.
Samət Qüdrət oğlu Əlizadə: Nekroloq (1938-2002) //Xalq qəzeti.-2002.-1 iyun.-S.7.

***SARA QƏDIMOVA***

## AŞIQ ŞƏMŞIR – 115

*Şair-aşıq*

***Mart***
**15.03.1893-**
**10.02.1980**



Şirin qoşmaları və aşıqlıq sənətilə şöhrət qazanmış Şəmşir Qurban oğlu Qocayev (Aşıq Şəmşir) 1893-cü il mart ayının 15-də Yelizavetpol (Gəncə) quberniyasının Cavanşir qəzasının (indiki Kəlbəcər rayonunun) Dəmirçidam kəndində yoxsul kəndli ailəsində anadan olmuşdur. Şəmşirin atası Qurban istedadlı şair, dövrünə görə bilikli, məlumatlı və şöhrətli bir aşıq olmuşdur. Ilk tərbiyəçisi və ustadı atası Aşıq Qurban və Aşıq Ələsgər olmuşdur.

1907-ci ildə Aşıq Şəmşirin ailəsi indiki Kəlbəcər rayonunun Ağdaban kəndinə köçmüşdür. O, burada 1910-1914-cü illərdə çobanlıq etmişdir. 1914-cü ildə saz sənəti aləminə gəlmiş, müstəqil aşıqlığa başlamışdır. 1920-ci ildə Qamışlı kəndində yeddiillik məktəbi bitirib, kənd sovetində katib işləmişdir. 1930 və 1946-cı illərdə Kəlbəcər rayon zəh-mətkeş deputatları Sovetinə de-putat seçilmişdir. 1938-ci ildə Azərbaycan aşıqlarının II qurultayında iştirak etmişdir.

Ilk mətbu qoşması «Aşığın səsi» adlı şeirlər toplusunda çap olunmuşdur. 1956-cı ildən Şəmşirin şeirləri «Azərbaycan», «Ulduz» jurnallarında, «Kommunist», «Ədəbiyyat və incəsənət», «Azərbaycan gəncləri» qəzetlərində müntəzəm dərc edilmişdir.

Aşıq Şəmşirin üç dastanı, iki yüzdən çox qoşması, yüzə yaxın təcnisi, otuzdan çox deyişməsi, iyirmi gəraylısı, iyirmidən yuxarı bayatısı, on dörd ustadnaməsi, yeddi divanisi, altı qəzəli, dörd məsnəvi şəklində şeiri, bir sıra dodaqdəyməz və diltərpənməzləri vardır.

Aşıq Şəmşirin yaradıcılığı həm məzmun, həm də forma cəhətdən xeyli zəngindir. Aşığın yaradıcılığında qoşma çox geniş yer tutur. Bu qoşmalar Şəmşirin yaradıcılığında nəinki say və həcm etibarilə, həm də sənətkarlıq cəhətdən başqa şəkildə yazılmış şeirlərindən seçilir.

Aşıq Şəmşirin şeir dili çox sadə, bədii və şirindir. Onun dilinin lüğət tərkibini canlı xalq dili folklorumuzdan (klassik aşıq şeirindən), qismən də yazılı ədəbiyyatımızdan gələn sözlər təşkil edir. Şairin təbiət və insan gözəlliyinə həsr edilmiş şeirləri çoxdur. O, xüsusən dağlar, gözəllər, gözlər kimi poetik mövzulara dair onlarca şeir yazmışdır.

Aşıq 70 yaşında olarkən belə klassik aşıq havalarını bacarıqla çalıb oxuya bilmişdi. Aşıq xüsusən «Şəril», «Baş sarıtel», «Qaytarma», «Kərəm şikəstəsi», «Gilənar», «Qazax şikəstəsi», «Şahsevən», «Güllü qafiyə», «Təcnis», «Koroğlu» və s. havaların mahir və təkrarsız ifaçısı olmuşdur. Ömrünün 60 ilini öz sənəti ilə xalqına xidmət edən el şairi, aşıq şeirinin ən müxtəlif formalarında gözəl sənət nümunələri yaratmış, əsərlərində doğma xalqının fikir və duyğularını yüksək sənətkarlıqla ifadə etmişdir.

Aşıq 1957-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul olunmuşdur. Həmin il ona Əməkdar incəsənət xadimi adı verilmişdir. «Şərəf nişanı» ordeni, «1941-1945-ci illərdə Böyük Vətən müharibəsində fədakar əməyə görə» medalı ilə təltif olunmuşdur.

Aşıq Şəmşir 1980-ci il fevral ayının 10-da vəfat etmişdir. Aşıq Şəmşirin Ağdaban kəndindəki evi erməni quldurları tərəfindən dağıdılmışdır.

Aşıq Şəmşirin mübarək adı hələ sağlığında Kəlbəcər sözünün sinoniminə çevrilmişdi. Kəlbəcər deyiləndə Dədə Şəm-şir, Dədə Şəmşir deyiləndə dər-hal Kəlbəcər yada düşür. Bu böyüklük ancaq xalq, millət yo-lunda, ümumən məmləkət yo-lunda böyük mənəvi dəyəri olan insanlara məxsusdur. Dədə Şəm-şir keşməkeşli və uzun həyatı bo-yunca bu milli mötəbərliyi sazının və sözünün sayəsində qazanmış bir söz zərgərimiz, bir ulu şəxsiyyətimizdir.

## *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri.- B.: Azərnəşr, 1973.- 415 s.

Dağ havası: Şeirlər /Red. Ç.Əlioğlu.- B.: Gənclik,1978.- 118 s.

Güllələsin dağlar məni.- B.: Təhsil mərkəzi, 2000.- 250 s.

Qoşmalar /Red. E.Borçalı.- B.: Azərnəşr, 1971.- 158 s.

Öyüdlər.- B.: Ozan, 1996.- 291 s.

Şeirlər.- B.: Azərnəşr, 1959.- 115 s.

Şeirlər.- B.: Yazıçı, 1980.- 252 s.

## *HAQQINDA*

Nərimanoğlu M. Dədə ocağı.- B.: Azərnəşr, 1998.- 112 s.

Sarıvəlli O. Aşıq ürəkli şair, şair ürəkli Şəmşir.- B.: Azərnəşr, 1973.- 100 s.

* * *

Ağayar Ş. Dədə Şəmşirin əziz xatirəsinə: Aşıq Şəmşir – 110 //Yeni Azərbaycan.- 2004.- 5 mart.- S.8.

Aslan M. Şəmşiri görməyə bütün el gəlir: (Dədə Şəmşir haq-da) //Mədəni-maarif .- 2004.- № 5.- S.34-36.

Əliyeva M. Ustad sənətkar: Aşıq Şəmşir-110 //Mədəni-maarif.- 2003.- №11.- S.21-22.

Məmmədov F. Sazımla birgə: (Xalq şairi S.Vurğunla Aşıq Şəmşirin ilk və son görüşü haqqında) //Ədəbiyyat qəzeti.- 1996.- 12 iyun.- S.3.

Sultanov Z. Gəzərəm əlimdə şam-çıraq səni: Aşıq Şəmşirin anadan olmasının 110 illiyi qar-şısında //Xalq qəzeti.- 2003.- 25 noyabr.- S.5.

Şərif. Dədə Şəmşirin 110 illiyi qeyd olundu //Yeni Azərbaycan.- 2004.- 19 mart.- S.6.

Ülvi A. «Yetsə qulağına Şəmşirin səsi…»: Aşıq Şəmşir haqqında //Xalq qəzeti.- 2003.- 23 noyabr.- S.7.

## *RUS DILINDƏ*

Ашуг Шемшир: Стихи /Пер. В.Кафарова.- Б.: Язычы, 1984.- 37 с.

Эльдарова Э. Искусство ашугов Азербайджана.- Б.: Ишыг, 1984.- 119 с.

**ZENFIRA QULAMOVA**

# KƏLƏNTƏR KƏLƏNTƏRLİ – 75

Mart
20.03.1933

*Şair*



Artıq çoxdandır ki, Kələntər Şıxkərim oğlu Kələntərli Azərbaycanda və onun hüdudlarında şair, publisist, dramaturq kimi tanınmışdır. O, 1933-cü ildə mart ayının 20-də Qusar rayonunun Sudur kəndində kolxozçu ailəsində anadan olmuşdur. Atasını erkən yaşlarından itirən K.Kələntərli burada orta məktəbin 7-ci sinfini bitirdikdən sonra 5 il kolxozda işləmişdir. Sonra o, 1950-1954-cü illərdə Quba Pedaqoji Texnikumunda təhsil almağa başlamışdır. Dünya şöhrətli Azərbaycan şairi Səməd Vurğunla məhz bu illərdə tanış olmuşdur. 1954-1958-ci illərdə Azərbaycan Pedaqoji İnstitutunun Ədəbiyyat fakültəsində təhsil almışdır. Lakin ağır, çətin ailə vəziyyətinə görə ali təhsili başa vura bilməmiş və dördüncü kursdan çıxıb işləməyə məcbur olmuşdur. 1959-cu ildə Azərbaycan Elmlər Akademiyasının Kitabxanasında şöbə müdiri, 1960-cı ildə "Mübariz keşikdə" qəzetində şöbə müdiri, 1961-1962-ci illərdə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında ədəbi işçi vəzifəsində işləmişdir. K.Kələntərli 1962-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvüdür. 1963-1964-cü illərdə Natəvan klubunun direktoru olmuşdur. 1966-1968-ci illərdə Azərbaycan Dövlət Nəşriyyatında Incəsənət şöbəsinin redaktoru, 1984-1986-cı illərdə "Qızıl Şərq" mətbəəsində korrektor, 1990-1992-ci illərdə "Amal" qəzetində şöbə müdiri işləmişdir.

K. Kələntərli 1959-cu ildən 1966-cı ilin axırına kimi, "Azərbaycan gəncləri" qəzetinin Sabir adına Kitabxanada təşkil etdiyi "Ədəbi məclisin" rəhbəri olub. İndi respublikamızda həm şair, həm yazıçı, həm də filoloq kimi məşhurlaşmış onlarla adam – o cümlədən, F. Kərimzadə, S. Məmmədzadə, Ə. Hacızadə, İ. Məlikzadə, F. Qoca, M. Süleymanlı, F. Sadıq, S. Rüstəmxanlı, İ. İsmayılzadə, Ə. Salahzadə, T. Abdin, Q. Köçərli, S. Sərxan, R. Rövşən və başqaları həmin ədəbi məclisin yetirmələri hesab olunur. Onların yetişməsində, mətbuatda çıxış etmələrində şairin böyük xidməti var. K. Kələntərli həmin illərdə ədəbiyyatın ən yaxşı təbliğatçısı hesab olunurdu. Sonra

o, 1967-ci ildən 1973-cü illərə kimi Respublika "Bilik" Cəmiyyətinin daimi mühaziрəçisi kimi Azərbaycanın rayonlarında M.P. Vaqif, M.Ə.Sabir, C.Cabbarlı, S. Vurğun, R.Rza, Ə. Kərim və başqa sənətkarlar haqqında, ümumiyyətlə poeziya ilə bağlı maraqlı mühazirələr oxumuş, dinləyicilərin rəğbətini qazanmışdır.

1993-cü ildən Azərbaycan Respublikası Dövlət Televiziya və Radio verilişləri şirkətində radionun Ləzgi Redaksiyasının Baş redaktoru vəzifəsində çalışır. Əsərlərini Azərbaycan və ləzgi dilində yazır. Bədii yaradıcılığa 50-ci illərdən başlamışdır. Şeirləri, poemaları, ədəbi-tənqidi və publisist məqalələri "Azərbaycan", "Qobustan", "Ulduz" və s. jurnallarda, eləcə də qəzetlərdə müntəzəm çap olunur. "Dağlar silkələndi", "Şöhrət axtaran xanım" və "Lənət şeytana, yaxud belə-belə işlər" mənzum pyesləri xalq teatrında tamaşaya qoyulmuşdur. "Şuşam geri alınmasa" və "Ağ atlı oğlan" poeması xüsusilə diqqəti cəlb edir. 2006-cı ildə Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin Sərəncamı ilə "Tərəqqi" medalına layiq görülmüşdür.

Azərbaycanda və Dağıstanda geniş oxucu kütləsi onu ancaq öz ürəyinin səsinə qulaq asan, insanların həqiqət carçısı olan bir şair kimi tanıyır. Ləzgi və türk ədəbi əlaqələrinin möhkəmlənməsində onun xidmətləri böyükdür. O, bu işi yorulmadan indi də davam etdirir.

## *ƏSƏRLƏRI*

Dəniz nəğmələri .- B.: Azərnəşr, 1963.- 36 s.
Dəniz və məhəbbət .- B.: Gənclik, 1972.- 180 s.
Duymaq üçün yaranmışam .- B.: Yazıçı, 1989.- 249 s.
Güllələsin dağlar məni.- B.: Təhsil mərkəzi, 2000.- 250s.
Qatar gedir.- B.: Gənclik, 1968.- 120 s.
Öz qitəmi axtarıram.- B.: Azərnəşr, 1965.- 74 s.
Şirin nübar.- B.: Yazıçı, 1974.- 200 s.

* * *

Xeyirxah insan, bənzərsiz sənətkar// Azərbaycan.-2002 .-№ 1.-S.8-21.
İgid Xəlil, şair Xəlil, çılğın Xəlil: Xəlil Rza haqqında //Azərbaycan.- 2004.- № 6.- S. 41-48.
Qoy sənətkar aldanmasın //Xalq qəzeti.- 2002.- 7 noyabr.-S. 7.
Sənin poeziyanla fəxr edirəm //Ədəbiyyat.- 2005.- 9 dekabr.- S.6.
Şairi söz ucaldır //Azərbaycan.- 2004.-№ 12.- S. 38-45 .

Yazılmamış həqiqətlər //Azərbaycan.- 2005.- № 10.- S. 54-61; 2005.-№11.-S.44-52.
Ustad şair //Azərbaycan.- 2005.- №.12.- S. 68-72.
Ümidinə sarı yol gedən şair //Ədəbiyyat.-2002.-16 noyabr.- S.5.
İşıqlı şəxsiyyət //Yeni nəfəs.- 2007.- 10-15 may.-S. 4.

***HAQQINDA***

Ələsgərov B. K.Kələntərli.-B.: ADPMK,1993.- 12 s.

* * *

Daha geniş üfüqlərə //Ədəbiyyat.- 2003.- 11 aprel.- S. 8
Dilini dünyaya yayır K. Kələntərli //Könül.- 2005.- 27 aprel.- S. 3.
İki xalqa məxsus şair //Ədəbiyyat.-2004.- 17 dekabr.- S.7.
O, dost qədri biləndir //Ədəbiyyat.-2005.- 25 mart.- S.6.

***BƏYBALA ƏLƏSGƏROV***

# NOVRUZ BAYRAMI

*Mart*
**20-21.03**



Azərbaycan xalqının uzaq keçmişdən bu günədək sevə-sevə qeyd etdiyi bayramlardan biri Novruz bayramıdır.

Çox qədim zamanlardan başlayaraq dünya xalqlarının bir çoxu yazın gəlişini, təbiətin oyanışını, əkin işlərinin başlanmasını bahar bayramı kimi qeyd etmişlər. Bu münasibətlə şənliklər keçirmiş, onu yeni ilin başlanğıcı kimi qarşılamışlar. Bu bayram Novruz adlandırılmışdır. Novruz bayramı martın 21-də və ya 22-də keçirilir. Bu isə yazın gecə-gündüz bərabərliyinə təsadüf edir.

Novruz bayramı birlik, qardaşlıq bayramı, xalq şənliyidir. Odur ki, Novruz şənlikləri təzə ilin başlanmasına, yəni martın 21-nə dörd həftə qalmış keçirilməyə başlayır. Bu aya Boz ay deyirlər.

Dövrlərdən bəri xalqımız Novruzu yeni ilin başlanğıcı hesab etmiş, onu bolluq, bərəkət və firavanlığın əzəli kimi rəmzi - ləşdirmişdir.

Novruz inanclarının əsasında insana, təbiətə həyat verən dörd ünsürün-Suyun, Odun, Yelin (havanın), Torpağın isinməsi, «dirilməsi» ilə əlaqələndirilmiş və beləliklə, insanların təsəvvüründə ilaxır çərşənbələr yaranmışdır. Inanmalara görə bu çərşənbələrin hər birində təbiətin dörd ünsüründən biri «dirilmişdir». Ilin Novruzdan əvvəlki dörd axır çərşənbəsi müqəddəs sayılır. Bunlar Su çərşənbəsi, Od çərşənbəsi, Yel çərşənbəsi və Torpaq çərşənbəsi adlanır. Bu çərşənbələrdə də xalqımızın adət-ənənələri yaşayır.

Su çərşənbəsi - bu çərşənbəyə «Əzəl çərşənbə», «Sular Novruzu» da deyirlər. Su çərşənbəsində su və su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilir.

Su çərşənbəsi günü «təzə su» dan keçənlər, azarını- bezarını ona verənlər il boyu xəstəlikdən

uzaq olarlar. Hələ gün doğmamışdan hamı su üstünə gedir, əl-üzünü yuyur, bir-birinin üzərinə su çiləyir, su üstündən atlanırlar.

Ilaxır çərşənbələrin ikincisi Od çərşənbəsidir. Buna xalq arasında «Ikinci çərşənbə» və ya «Üsgü çərşənbə» də deyilir. Od çərşənbəsi qədimdə xalqımızın Günəşə, odu saxlayıb qorumağın vacibliyinə inamı ilə bağlıdır. Od çərşənbəsində odu təmizlik, sağlamlıq və gözəllik rəmzi kimi qeyd edərdilər.

Yel çərşənbəsi günündə isə əsən isti küləklər yazın gəlişindən xəbər verir. Xalq arasında «Külək oyadan çərşənbə», «Küləkli çərşənbə» kimi tanınan Yel çərşənbəsi ilaxır çərşənbələrin üçüncüsüdür. Inama görə bu çərşənbədə oyanan yel, külək oyanmış suyu, odu hərəkətə gətirir.

Sifahi xalq yaradıcıığında Yelin tanrı olması ilə bağlı müxtəlif nəğmə, əfsanə, rəva-yət, mif, inanc və s. yaranmışdır. Novruz şənliklərində icra olunan Yel baba mərasimi öz kökü etibarilə qədim əcdadlarımızın Yel tanrısına bəslədiyi etiqadı ilə bağlıdır.

Novruz ərəfəsində sonuncu çərşənbədə yer oyanır, torpaq nəfəs alır. Bu çərşənbə xalq arasında «Yer çərşənbəsi», «Ilaxır Çərşənbə» və ya «Torpaq çərşənbəsi» adlanır. Inama görə Torpaq çərşənbəsi yetişəndə torpaq artıq əkinə hazır olur və ona toxum səpmək olar.

Ilaxır çərşənbələr arasında Torpaq çərşənbəsi mərasim, ayin, etiqad, oyun və şənliklərlə zəngindir. Həmin gün insanlar torpaq sahələrinə çıxır, torpağı təmizləyir, kütləvi şənliklər keçirir. Bu çərşənbənin axşam şənlikləri daha gur olur : evlərdə üzərlik yandırılır, həyətlərdə tonqallar qalanır, məşəllər yandırılır, bacalardan torbalar sallanır, qulaq falları və s.

Həmin gün hamı öz evində olmalı, övladlar valideynlərinə baş çəkərək öz evlərinə qayıtmalıdırlar.

Axır çərşənbə xalq tamaşaları ilə də zəngin olur. Bunlardan biri də «Koskosa»dır. Bu tamaşada oxunan nəğmələr xalq arasında indi də məşhurdur :

A Kos-Kosa, gəlmisən,
Gəlmisən meydana sən.
Almayınca payını
Çəkilmə bir yana sən.
Beş yumurta payındı,
Olmaya aldanasan ?

Baharın gəlişindən əvvəl suda isladılmış toxumdan səməni göyərdirlər. Həyat, bolluq nişanəsi olan səməni baharın ilk müjdəçisi hesab olunur. Səməni müqəddəs sayılmış, xoşbəxtlik gətirən amil kimi tərənnüm edilmişdir. Evlərdə göyərdilmiş səmənini bişirərlər.

Bayram günündə qadınlar dadlı-ləzzətli şirniyyatlar bişirir,

yumurta boyayırlar. Bütün evlərdə bayram süfrəsi açılır.

Cürbəcür yeməklər, əsasən aş, paxlava, şəkərbura, şorqoğal, badambura və s. şirniyyatlar bişirilir. Bayram axşamı süfrəyə innab, kişmiş, püstə, badam, qoz, fındıq və müxtəlif meyvələrin qurusu qoyulur. Bayram süfrəsində bayram xonçasının olması vacibdir. Xonçanın ortasında səməni, ailə üzvlərinin sayı qədər şam və boyanmış yumurta qoyulur. Süfrədə yeddi növ yemək olmalıdır.

Axır çərşənbə gecəsinin səhəri sübh obaşdan durub axar su üstünə getmək, suya salam verib üç dəfə üstündən tullanmaq lazımdır.

Ilin axır çərşənbəsində, ya da Novruz axşamı ürəyində niyyət tutub qaş qaralandan sonra xəlvətcə qonum–qonşu qapısına gedərlər. Qapı dalında durub ayağın altına açar atıb içəriyə qulaq asarlar. Içəridən eşidilən iki kəlmə niyyətin yerinə yetib–yetməyəcəyinə işarə verir. Iki kəlmə xoş sözə, yaxşı bir istəyə bağlıdırsa, demək niyyət baş tutacaq, yox, pis söz, narazılıq, nigarançılıq bildirən kəlmə dilə gəlsə, onda istəyə yetmək çətin işdir. Odur ki, ulular tapşırmışlar ki, axır çərşənbə gəlib yetişəndə evdə könül açan söhbətlər edilsin. Ona görə ki, birdən qapıya gəlib dilək tutan olar, qoy niyyəti xoş sözə tuş gəlsin.

Yazın gəlişi ilə əlaqədar ilin axır çərşənbə axşamı həyətlərdə tonqal qalanır, uşaqlar odun üstündən hoppanırlar. Bu adət soyuq qışın çıxması və onun isti yaz fəsli ilə əvəz olunması ilə bağlıdır. Həm də tonqal üstündən atlanmaq köhnə ilin qada-balasını odda yandırmaq, yeni ilə qədəm qoymaq deməkdir. Bayram tonqalı yanıb sona yetəndə ocaqdakı közlərin üstünə üzərlik səpib deyirlər: «Odumuza, ocağımıza kəm baxanın gözləri, bax beləcə partlasın, özü də düşüb çatlasın».

Xalqımızın ən qədim bayramlarından olan Novruz evlərə sevinc, şadlıq gətirir. Novruzla bağlı nəğmələr, mərasimlər, tamaşalar isə şifahi xalq yaradıcılığımızın ayrılmaz hissəsidir.

Sovet dövründə tariximizin bu əvəzsiz yadigarına dini don geyindirməyə çalışaraq el şənliyini zorla yaddaşımızdan silmək istəyirdilər. Buna baxmayaraq, Novruz bayramı hətta o dövrdə də xalqımız tərəfindən həmişə təmtəraqlı qeyd olunmuşdur.

Azərbaycan öz müstəqilliyinə nail olduqdan sonra Novruz bayramının üzərinə qoyulmuş qadağalar bütünlüklə aradan götürülmüşdür. Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli «Azərbaycan Respublikasının bayramları haqqında» Qanuna əsasən Novruz rəsmi dövlət bayramı kimi qeyd olunmağa başlanmışdır.

## *ƏDƏBIYYAT*


Bakıda Novruz bayramı münasibətilə ümumxalq şən-liyində Azərbaycan Prezidenti Ilham Əliyevin nitqi //Azər-baycan.- 2006.-23 mart.- S.1-2.

Bakıda Novruz bayramı münasibətilə ümumxalq şənliyi: Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin nitqi //Azərbaycan.- 2007.- 21 mart.- S.1-2.

* * *

Qocayev Ə. Novruz bayramı /Bayramlar və tarixi günlər.–B.: Altun Kitab, 2006.- S.-14-22 .

* * *

Abbasov K. Bayram qovurğası: (Novruz bayramı) //Azərbaycan.- 2006.-19 mart.-S.10.

Allahyarov K. Novruzun ən qədim qaynaqları //Azərbaycan.- 2005.-20 mart.-S.5.

Bünyadov T. Novruz bayramının tarixi kökləri // Tarix, insan və cəmiyyət .- 2006 .-№1. –S. 12 – 14.

Cavadov S. Novruz min illərlə yol gələn bayramımızdır //Azərbaycan . –2006 .- 19 mart.-S.9.

Kəngərli Q. Novruz şənlikləri //Azərbaycan.- 2002.- 24 mart.- S.8.

Mehdixanlı T. Əcdadlarımızın yaddan çıxmayan tövsiyələri: (Novruz bayramı ilə əlaqədar) //Azərbaycan . – 2006. – 19 mart.- S. 9-11.

Nərimanoğlu K. Novruz «Yeni gün» fəlsəfəsi //Azadlıq.–2006.- 19-22 mart.-S.11.

Novruz bayramı münasibətilə Azərbaycan xalqına təbrik //Azərbaycan.- 2007.- 20 mart.- S.1.


## *RUS DILINDƏ*


Речь Президента Азербайджана Ильхама Алиева на всенародном празднестве в Баку по случаю Новруз байрамы //Бакинский рабочий.- 2006.-23 марта.-С.2.

* * *

Зейналоглы Г. Новруз-праздник весны, новшества, веселья // Голос Карабаха.-2005- 22 марта.-С.-5.

Ибрагимова Дж. Светлый луч новруза. Как его встречают в Азербайджане //Бакинский Рабочий.-2003.-20 марта.-С.7.

Иманов В. Новруз: история и древние обычаи //Мир. желщины.-2003.-№6-20 марта.-С.8.
.-2003.-№6-20 mar-ta.-S.8.

***SARA QƏDIMOVA***

**RÜFƏT ƏHMƏDZADƏ-75**

*Şair*

*Mart*
*25.03.1933*
*15.12.1988*



Azərbaycan ədəbiyyatında xüsusi rol oynayan M. Ə. Sabir şeir məktəbi davamçılarından olan, ibrətamiz, tənqidi şeirləri ilə milyonların qəlbinə yol tapan, görkəmli şair və dramaturqlarımızdan biri də Rüfət Əhmədzadədir.

Əhmədzadə Rüfət Zülfüqar oğlu 1933-cü il mart ayının 25-də Azərbaycanın Balakən rayonunda anadan olmuşdur. Əmək fəaliyyətinə orta məktəbi bitirdikdən sonra Balakən rayon Kinolaşdırma idarəsində səyyar kinomexanik kimi başlamışdır (1949-1951). 1951-1956-cı illərdə Balakən rayon mədəniyyət evinin direktoru, 1956-1959-cu illərdə Bakı şəhəri Xətai rayonundakı Pionerlər evinin direktoru vəzifəsində işləmişdir. 1959-cu ildən başlayaraq «Kirpi» satirik jurnalının redaksiyasında çalışmış, korrektorluqdan baş redaktor vəzifəsinə qədər yüksəlmişdir. O, 1963-1968-ci illərdə ADU-nun Filologiya fakültəsində təhsil almışdır. Müəllif bədii yaradıcılığa 1953-cü ildə «Azərbaycan pioneri» qəzetində çap etdirdiyi «Əziz bayram» adlı ilk şeiri ilə başlamışdır. Görkəmli satira ustası 1968-ci ildən Yazıçılar Birliyinin üzvü olmuşdur. Az qala bütün ömrünü sevdiyi sənətə həsr edən Rüfət Sabir şeir məktəbi davamçılarından olub, duzlu-məzəli şeirləri ilə oxucuların rəğbətini qazanmış bir sənətkar idi. 1981-ci ildə «Gülə-gülə», 1984-cü ildə «Bildirçinin bəyliyi», 1987-ci ildə «Zarafatsız zarafat», 1988-ci ildə «Hələlik» kinokomediyaları tamaşaya qoyulmuşdur. Rüfət Əhmədzadə neçə-neçə şeir kitabını və sevilə-sevilə baxılan «Sizinlə gülə-gülə» əyləncəli estrada pyesini bizə yadigar qoyub getmişdir. Nasir həmçinin «Gülüş sanatoriyası» televiziya operettasına da mətn yazmışdır. Xəbislik və yaltaqlıq, ikiüzlülük və nadanlıq, boşboğazlıq və lovğalıq – bunlar hamısı şairin kəskin

satirasının hədəfi idi. Görkəmli bəstəkar Emin Sabitoğlu yazırdı: «O, çox təvazökar adam idi. Səhnədən Sonqulu, Şirbala, Balaxanım kimi dələduzları ifşa edən və minlərlə tamaşaçını güldürən və düşündürən Rüfət «mən dramaturq deyiləm, ancaq satirik şairəm» deyərdi».

Sevimli sənətkar 1988-ci il dekabr ayının 15-də Bakı şəhərində vəfat etmişdir.

## *ƏSƏRLƏRI*

Bu mənəm, mən deyiləm: Şeirlər /Red. M. Ələkbərli.– B.: Gənclik, 1976.– 119 s.

Düzü-düz, əyrini-əyri: Satirik şeirlər /Red. I. Tapdıq.– B.: Gənclik, 1973.–143 s.

Hələlik: Şeirlər.–B.:Yazıçı, 1991 .–186 s.

Karın könlündəki: Şeirlər /Red. I. Tapdıq.– B.: Gənclik, 1970.– 56 s.

Keçmə belə kişidən: Şeirlər /Red. F.Bayramov.–B.:Azərnəşr, 1967.– 84 s.

Qəribə yuxu: Poemalar və şeirlər /Red. I. Tapdıq; Rəs. A. Quluyev.– B.: Azərnəşr,1965.– 51 s.

Məhəbbətlə, gülüşlə: Şeirlər /Red. M. Şükürov.–B.: Yazıçı, 1981.– 128 s.

## *ADILƏ ABDULLAYEVA*

## ALEKSANDR NİKOLAYEVİÇ OSTROVSKİ – 185

Mart
31.03.1823-
14.06.1886

*Yazıçı*



Rus dramaturqu Ostrovski 1823-cü ildə Kostroma Vilayətinin Ostrovski rayonunda anadan olmuşdur. 1840-1843-cü illərdə Moskva Universitetinin hüquq fakültəsində təhsil almış, 1843-1851-ci illərdə Moskva məhkəmələrində işləmişdir. Estetik görüşləri V.Q.Belinskinin təsiri altında formalaşmışdır. İlk əsərləri 1847-ci ildə dərc olunmuşdur. 1850-ci ildə tamaşaya qoyulan "Öz adamlarımızdır, düzəlişərik" satirik komediyası 1-ci Nikolayın göstərişi ilə qadağan edilmişdir.

Pyeslərində mühüm sosial və əxlaqi problemlərə toxunmuş, pulun hakim kəsildiyi cəmiyyəti və despotizmi kəskin tənqid atəşinə tutmuşdur. "Yoxsulluq eyib deyil" (1853), "Gəlirli yer" (1856), "Tufan" (1859) və s. pyeslərində məmur, tacir və mülkədarların tamahkarlığı, acgözlüyü ifşa olunur. Onun dramaturgiyası rus teatr sənətinin inkişafında mühüm rol oynamışdır. O, Azərbaycan dramaturgiyasına, xüsusi ilə Nəcəf Bəy Vəzirov yaradıcılığına ciddi təsir göstərmişdir. Abbas Səhhət onun "Yoxsulluq eyib deyil" komediyasından iqtibas olaraq eyni adlı ikipərdəli mənzum pyes yazmışdır. Onun əsərləri hələ keçən əsrdə Azərbaycan dilinə tərcümə olunmuşdur. Pyesləri Azərbaycan səhnəsində tamaşaya qoyulmuşdur. Ostrovski 1883-cü ildə Bakıda olmuş, gündəliyində Bakı səfəri haqqında maraqlı qeydlər etmişdir.1886-cı ildə Moskvada vəfat etmişdir. A.N.Ostrovskinin Moskvada heykəli qoyulmuşdur.

### *ƏSƏRLƏRİ*

Pyeslər.-B.:Azərnəşr,1973 .-522 s.

*HAQQINDA*

Musayev S. Aleksandr Nikolayeviç Ostrovski.- B.:Elm,1973.-63 s.

Ostrovskaya R. Nikolay Ostrovski B.:"Gənclik",1986.-248 s.

* * *

Иманов В. Новруз: история и древние обычаи //Мир. желщины.-2003.-№6-20 мар-та.-С.8.

***MƏTANƏT İBRAHİMOVA***

**LÜTFIYAR IMANOV-80**

*Müğənni*

*Aprel*
*04.04.1928*



Lütfiyar Müslüm oğlu Imanov 1928-ci il aprelin 4-də Sabirabad rayonunda anadan olmuşdur. 1956-cı ildə Asəf Zeynallı adına Bakı Musiqi Məktəbini bitirmişdir.

Lütfiyar Imanov 1954-1956-cı illərdə Azərbaycan Televiziyası və Radiosu Xorunun, 1956-1957-ci illərdə Azərbaycan Dövlət Estrada Orkestrinin solisti olmuş, 1957-1959-cu illərdə Azərbaycan Dövlət Musiqili Komediya Teatrında aktyorluq etmişdir.

Aktyor-müğənni bu teatrda Üzeyir bəy Hacıbəyovun «Arşın mal alan» (Vəli və Əsgər) və «O olmasın, bu olsun» (Sərvər) operettalarında, dramaturq Məhərrəm Əlizadənin və bəstəkar Ağasi Məşədibəyovun «Toy kimindir?» (Mehman və Aşiq Iblis) musiqili komediyalarında müxtəlif rolları oynamışdır.

Səsinin tembri, səhnə görkəmi maestro Niyazinin diqqətini cəlb etmiş və o, müğən-nini direktoru olduğu Opera və Balet Teatrında işlə təmin etmiş-dir. O,1959-cu ildən M.F.Axun-dov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solis-tidir.

Üzeyir Hacıbəyovun «Koroğlu» operasında Koroğlunun partiyası l.Imanovun opera səhnəsində ilk işidir. Bundan başqa L.Imanov F.Əmirovun «Sevil» operasında Balaş, C.Cahangirovun «Azad» operasında Ayaz, R.Mustafayevin «Vaqif» operasında Vaqif, S.Ələsgərovun «Bahadır və Sona» operasında Bahadır, J.Bizenin «Karmen» operasında Karmen, Ş.Qunonun «Faust» operasında Faust, C.Puççinin «Toska» operasında Kavaradossi və başqa partiyaları ifa etmişdir.

O, Moskvada Böyük Teatda Xose və Hersoqun partiiyalarını ifa etmişdir.

L.Imanovun repertuarında Azərbaycan xalq mahnıları, romanslar mühüm yer tutur.

O, keçmiş SSRI-nin bir çox şəhərlərində, habelə Fransa, Italiya, Norveç, Yaponiya, Hindistan, Kuba, PXR və s. kimi xarici ölkələrdə çox uğurlu çıxışlar etmişdir.

Aktyor müğənni Radamesin («Aida») və Germanın («Qara toxmaq qadın») partiyalarını Ankara Dövlət Opera və Balet Teatrında uğurla ifa etmişdir.

Bununla belə silsilə kamera əsərləri onun repertuarında ayrıca bölmə təşkil edir.

Lütfiyar Imanovun səsi qüvvətlidir və o, nadir tembrin bütün çalarlarından yaradıcılıqla istifadə edir.

O, tamaşanın ən dramatik vəziyyətlərində oxuya-oxuya çətin səhnə hərəkətlərini ustalıqla icra edə bilir.

Ifaçılıq sənətində qazandığı nailiyyətlərinə görə Lütfiyar Imanov 1959-cu ildə Azərbaycan Respublikasının Əməkdar artisti, 1967-ci ildə Xalq artisti və 1977–ci ildə SSRI Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

L.Imanov Azərbaycan SSR Ali Sovetinin deputatı seçilmişdir. Azərbaycan Teatr Cəmiyyətinə rəhbərlik etmiş və Qırmızı Əmək Bayrağı ordeni ilə təltif olunmuşdur.

Müğənni Azərbaycan Dövlət Teatr Institutunda Musiqili komediya fakültəsində vokal sənətindən dərs demişdir.

L.Imanov 1990-cı illərin əvvəllərində Türkiyədə işləmişdir. O, hazırda Azərbaycan Dövlət Opera və Balet Teatrında məşqçi-pedaqoqdur.

***HAQQINDA***

Çünki oldun dəyirmançı «Koroğlu» meydanda niyə təklənib: (L.Imanovun iştirak etdiyi «Koroğlu» operası haqqında) //Azadlıq.- 2001.- 15 mart.-S.12.

Əzizxanlı Q. «Koroğlunun dəlisi» (Xalq artisti L.Imanovla müsahibə //Xalq qəzeti.-2000.-15 yanvar.-S.5.

Fərəcov S. Koroğlu zirvəsi fəth olunmadı: («Koroğlu» operasının L.Imanovun ifasında yenidən səhnəyə qoyulması haqqında //Xalq qəzeti.-2001.-16 mart.-S.4.

Opera və Balet teatrı etiraf edir: (Azərbaycan vokal sənətinin parlaq ulduzu L.Imanov haqqında tənqidi məqalə) //Yeni Azərbaycan.-2002.-26 aprel.-S.6.

Qocayeva A. Sənət fədaisi: Azərbaycan operasının parlaq ulduzu, SSRI Xalq artisti L.Imanovla müsahibə //Respublika.-2006.-6 yanvar.-S.6.

L.Imanovun 75 yaşı tamam oldu //Yeni Azərbaycan.– 2003.-18 aprel.-S.8.

L Imanov Filarmoniyada konsert verib //Yeni Azərbaycan.–2006.-22 aprel.-S.8.

Mustafayeva S. Oxuyan ürəkdir (L.Imanovla müsahibə) //Respublika.-2002.-22 aprel.-S.4.

Rəhimli I. Lütfiyar Imanov //Rəhimli I.Azərbaycan teatr tarixi.-B.:Çaşıoğlu, 2006.-S.593-596.

Süleymanlı X. Mən oxumuram-oxuyan ürəyimdir:(Xalq artisti L. Imanov haqqında) //Respublika.-2005.-11iyul.-S.5.

***RUS DILINDƏ***

Указ Президента Азербайджанской Республики Гейдара Алиева О награждении Л. М. Иманова орденом «Истиглал» //Бакинский рабочий.-1998.-С.1

Алиев Гейдар. Народному артисту Лютфияру Иманову (Поздравление Президента Азербайджанской Республики в связи с 70-летием со дня рождения) //Бакинский рабочий.-1988.-17 апреля.-С.1.

* * *

Алекперова Н. Лютфияр Иманов. Оперный репертуар Лютфияра Иманова.-Б.: Азернешр, 1973.- 135 с.

* * *

Гаджизаде А. Творческий вечер Лютфияра Иманова: (В Москве в Центральном Доме работников ИСК посвящен 75- летию певца) //Бакинский рабочий.-2004.-19 мая.- С.6.

***SAQIBƏ MEHRƏLIYEVA***

**MAYN RİD TOMAS – 190**

**Aprel 04.04.1818-1883**

*Yazıçı*



Mayn Rid Tomas 1818-ci ildə Britaniyada anadan olmuşdur. O, keçən əsrin görkəmli ingilis romançılarındandır. Rid 20 yaşında ikən ABŞ-a getmiş, Amerika-Meksika müharibəsində (1846-1848) iştirak etmişdir. Onun bir çox əsərləri Amerika həyatından bəhs edir. Müharibənin iştirakçısı kimi şəxsən müşahidə etdiyi bir çox hadisələr və insanlar sonralar yazdığı əsərlərində, xüsusən də "Azad atıcılar", "Ağ rəhbər", "Kbarteron qız", "Feminolların başçısı Otseolla", "Başsız atlı", "Öldürücü atəş" romanlarında öz bədii inikasını tapmışdır.

Mayn Rid insan qəlbinin dərinliklərinə enməyi surətlər, arasındakı münasibətləri konkret həyat hadisələri əsasında təsvir etməyi bacaran xarakterlər ustasıdır.

Əsərlərində müəllif ABŞ-ın müstəmləkəçilik siyasətini, qul alverinin dəhşətlərini, amerika hindularının həyatını təsvir etmişdir.

Humanist ruhlu macəra romanlarında hinduların ağ müstəmləkəçilərə qarşı istiqlaliyyət mübarizəsini təsvir etmişdir.

Onun əsərlərində Asiya, Afrika və Amerikanın bitki və heyvanlar aləminin təsviri də əhəmiyyətli yer tutur.

Dövrünün ictimai-siyasi hadisələri ilə təbii və ahəngdar əlaqədə işlənən bu roman ona olan marağı daha da artırır, surətlərin oxucu mənəviyyatında özünə yer tutub yaşamasını təmin edir.

Mayn Ridin əsərlərinin çoxu ekranlaşdırılmışdır.

O, 1883-cü ildə Londonda vəfat etmişdir.

***ƏSƏRLƏRİ***

Başsız atlı.- B.: Altun kitab, 2007.- 112 s.

Başsız atlı: Dünya uşaq ədəbiyyatı kitabxanası. 6 cild.- B.: Gənclik, 1983.- 524 s.

### *RUS DILINDƏ*

Сборник сочинений: В 8 т-х.- М.: Пресса, 1992.

* * *

Белая перчатка. – Киев: Молодежь, 1991.- 413 с.

Белый вождь. – М.: Правда, 1991. – 302 с.

В дебрях Борнео. – Тула: Приок, 1988.- 382 с.

В дебрях Южной Африки. – М.: Правда, 1991.- 669 с.

Всадник без головы .– Иркутск, Ичкум, 1989.-463 с.

Квартеронка .– М.: Художественная литература, 1990.- 589 с.

Оцела, вождь сетинолов .– М.: Правда., 1990.- 589

Отважная охотница .– М.: Детгиз, 1960.- 319 с.

Охотники за растениями .– М.: Правда, 1991.- 653 с.

## *BƏYBALA ƏLƏSGƏROV*

**SALAM QƏDIRZADƏ**

*Yazıçı*

**Aprel 10.04.1923-16.11.1987**



Fərdi yaradıcılıq dəst-xəttinə malik olan səviyyəli epik əsərləri, duzlu hekayələri, satirik və lirik planda yazdığı povestləri ilə bu gün də oxucuların maraq dairəsində özünə yer tutan gör-kəmli nasir, istedadlı dramaturq-larımızdan biri də Salam Qədirzadədir.

Qədirzadə Salam Dadaş oğlu 1923-cü il aprelin 10-da Bakı şəhərində anadan olmuşdur. Burada 150 saylı orta məktəbi bitirdikdən sonra 1942-ci ildə hərbi xidmətə çağırılmışdır. Ilk günlərdən ön cəbhədə olmuş, 1942-1945-ci illərdə Polşa, Çe-xoslovakiya və Rumıniyanın azad edilməsi uğrunda döyüşlərdə iştirak etmişdir. Ordudan tərxis olunduqdan sonra Salam Qədir-zadə Sumqayıt şəhərindəki 18 saylı fabrik-zavod təhsili məktə-bində müdir müavini, 1946-1948-ci illərdə Bakının indiki Xətai rayon radio qovşağı redaksiya-sında baş redaktor vəzifəsində çalışmışdır. 1949-cu ildə o, ADU-nun Filologiya fakültəsinə daxil olsa da III kursda oxuduqdan sonra Moskvaya, M.Qorki adına Ədəbiyyat Institutuna dəyişilmiş, şeir bölməsində təhsil almışdır. 1951-ci ildən Yazıçılar Birliyinin üzvü olmuşdur. 1952-1953-cü illərdə «Inqilab və mədəniyyət» jurnalının redaksiyasında ədəbi işçi, 1960-1966-cı illərdə «Kirpi» satirik jurnalının redaksiyasında məsul katib, 1975-1976-cı illərdə Azərbaycan Yazıçılar Birliyində dramaturgiya üzrə məsləhətçi, 1976-1980-ci illərdə isə «Kirpi» nin baş redaktoru vəzifələrində işləmişdir.

Salam Qədirzadə bədii yaradıcılığa 1948-ci ildə «Pioner» jurnalında çap etdirdiyi «Oqtay» adlı ilk hekayəsi ilə başlamışdır. Bundan sonra yazıçının 1953-cü ildə «Gənclik» povesti, 1957-ci ildə «Qış gecəsi», 1974-cü ildə «Sən olmasaydın», 1986-cı ildə «46 bənövşə», 1983-cü ildə «Sevginin ünvanı ürəkdir», 1987-ci ildə «Hər gün ömürdən gedir» adlı roman, povest, hekayə və s. kitabları nəşr edilmişdir. Müəl-lifin əsərləri keçmiş SSRI və xarici ölkə xalqlarının dillərinə tərcümə edilmişdir. Nasirin he-kayə qəhrəmanları bütövlükdə silsilə təşkil edir. Burada hər cür

tiplərlə–rüşvətxor, bürokrat, yaltaq, ikiüzlü, yalançı, qohumbaz, qorxaq kimi müxtəlif çeşidli personajlarla qarşılaşırsan. Kəskin satira, incə yumor, çoxmənalı kinayə Qədirzadə yaradıcılığının əsas keyfiyyətlərindəndir. Yazıçının ən çox maraq göstərdiyi hekayə və povest janrıdır. Bununla belə nasir müxtəlif janrların məlum formalarından kənara çıxmağa çalışmış, yeni bədii forma axtarışları aparmışdır. Ədəbiyyatda ilk dəfə mənsur poemanın uğurlu nümunəsi onun adı ilə bağlıdır.

Görkəmli nasir döyüş hünərinə və ədəbiyyat sahəsindəki xidmətlərinə görə III dərəcəli «Şöhrət ordeni» və 12 medalla təltif olunmuşdur.

Salam Qədirzadə 1987-ci il noyabrın 16-da vəfat etmişdir.

## *ƏSƏRLƏRI*

Seçilmiş əsərləri: Romanlar, povestlər, hekayələr.– B.: Azərnəşr, 1990.– 507 s.

* * *

Bir qız bir oğlanındır: Hekayələr və novellalar /Red. Z. Cavanşirova.– B.: Gənclik, 1978.– 510 s.

Hər gün ömürdən gedir: Roman, povestlər, hekayələr.- B.: Yazıçı, 1987. –315 s.

46 bənövşə: Povestlər, mənsur poema və hekayələr /Rəssamı S.Şatikov.– B.: Gənclik, 1986.– 420 s.

Sevdasız aylar: Povest və hekayələr /Red. Mehdiyeva Ə.– B.: Azərnəşr, 1974.– 125 s.

Sevginin ünvanı ürəkdir: (Romanlar, povestlər) /Red.S.Məmmədova.– B.: Gənclik, 1985.- 532 s.

Sən olmasaydın…: Romanlar və hekayələr /Red. S.Məmmədova.– B.: Gənclik, 1974.– 224 s.

Təbəssümün mükafatımdır :Hekayələr, povestlər, komediyalar /Red. O. Salamzadə.– B.: Yazıçı, 1982.– 455 s.

Ülkər. Aytəkin.: Povestlər və novellalar /Red. Ə Mehdiyeva.– B.: Azərnəşr, 1976.–390 s.

## *HAQQINDA*

Hüseynov Ş. Müasir nəsrdə janr və üslub axtarışları.– B.,1995. – 64 s.

Nəbiyev B. Söz ürəkdən gələndə.– B.: Yazıçı, 1984.– S. 75-83.

* * *

Quliyeva Z. Ədibin xatirə gecəsi //Azərbaycan.– 2003.– 20 aprel.– S. 6.

***RUS DILINDƏ***

Горчица после обеда.– М.: Правда, 1970.– 63 с.

Зимняя ночь. Роман.–Б.: Азернешр, 1967.– 211 с.

Не спешите жениться!: Юмористические рассказы.– М.: Советский писатель, 1982.– 256 с.

Черемуха: Повести и рассказы.– М.: Советский писатель, 1965.– 291 с.

***ADILƏ ABDULLAYEVA***

# TARIXI ABIDƏLƏRIN BEYNƏLXALQ MÜHAFIZƏ GÜNÜ

*Aprel*
**18.04**



Qədim tarixə malik Azərbaycan ərazisi füsünkar təbiəti, bol təbii sərvətləri və nadir tarixi-arxeoloji, memarlıq abidələri ilə zəngindir. Ölkəmizin tarixi və mədəni irsinin zənginliyi, bənzərsizliyi xeyli dərəcədə onun nadir coğrafi mövqeyi ilə şərtlənmişdir. Şi-malla cənubun, qərblə şərqin qovşağında yerləşən Azərbaycan ta qədim zamanlardan böyük Fars, Osmanlı və Rusiya imperi-yalarının bir növ toqquşma mey-danı olmuşdur. Qədim dövlətlərin ən mühüm karvan yolları, o cümlədən məşhur Ipək Yolu bu ərazidən keçmişdir.

Respublikanın ərazisində antik dövrə və orta əsrlərə aid şəhərlərin xarabalıqları, çoxsaylı müdafiə tikililərinin: qala və qüllələrin, köçəri tayfaların və yadelli əsarətçilərin basqınların-dan müdafiə olunmaq üçün era-mızın əvvəllərində və sonralar ucaldılmış Çıraq qala, Didvan və digərlərinin qalıqları yuxarıda deyilənlərə parlaq sübutdur. Abşeron yarımadasındakı müdafiə tikililəri kompleksi – Mərdəkan, Nardaran, Bilgəh və Ramanadakı qalalar da bu cəhətdən xüsusi maraq doğurur.

Qafqaz Albaniyası döv-rünün misilsiz memarlıq abidələri –Ləkit, Qum, Kiş, Orta Zəyzit kəndlərindəki məbəd kompleks-ləri də dövrümüzə qədər saxlanılmışdır. Böyük Qafqaz dağlarının cənub-qərb ətəkləri ilə Xəzər dənizi arasında 100 km$^2$-lik ərazidə yerləşən, hündürlüyü 600-700 metrə çatan, təxminən 1000-ə yaxın qayanın üzərində üst poleolit dövrünə aid insan və heyvan təsvirləri, müxtəlif yazılar tarixi əhəmiyyətli arxeoloji ma-teriallar kimi indi də saxlanılır və qoruq kimi mühafizə olunur.

Bakı yaxınlığındakı Su-raxanı qəsəbəsi ərazisində beş guşəli, 24 hücrə və otaqdan ibarət, daima məşəl alovları boylanan, atəşpərəstlərin sitayiş yeri olmuş Atəşgah məbədi də mühüm memarlıq abidəsi hesab olunur.

Bünövrəsində divarlarının qalınlığı 5 metr, hündürlüyü 28 metr olan 8 yaruslu monumental tikili – Qız Qalası paytaxtımızın rəmzi kimi əvəzsiz tarixi abidədir. Azərbaycanın saray tikililərinin

incisi, Bakının tarixi hissəsi olan Içərişəhərdə yer-ləşən, Dövlət Tarix-Memarlıq Muzey-qoruğu olan Şirvanşahlar saray kompleksi Şirvanşah Xəlilullahın əmri ilə 1420-ci ildə tikilmişdir. Orta əsrlər şəhər mədəniyyətinin təcəssümü kimi kompleksə məscidlər, karvansara, bazar meydanı və digər tikililər daxil edilmişdir. Şirvanşahlar sa-rayı mühəndis-memarlıq həllinin kamilliyi baxımından hər bir azərbaycanlıda iftixar hissi doğurur. Tarixin qaranlıq səhifələrinə çıraq tutan, bələdçilik edən qiymətli sənədlərin, materialların, dəyərli sənət nümunələrinin toplandığı muzeylərimizi də tarixi memarlıq abidələrinin bir nümunəsi kimi qeyd etmək lazımdır. Azərbaycan Dövlət Incəsənət Muzeyi, N.Gəncəvi adına Azərbaycan Ədəbiyyatı Muzeyi, Azərbaycan Dövlət Tarix Muzeyi, Azərbaycan Xalçası və Xalq Tətbiqi Sənəti Dövlət Muzeyi, C. Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyi, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyi, Azərbaycan Xalq Maarifi Muzeyi, Azərbaycan Kənd Təsərrüfatı Muzeyi, Bülbül, Nəriman Nərimanov, Hüseyn Ca-vid, Üzeyir Hacıbəyov, Səməd Vurğun, Cəfər Cabbarlı kimi dövlət, ədəbiyyat və incəsənət xadimlərinin ev- muzeyləri və bu kimi dəyərli muzeylərimizi sadalaya bilərik.

Azərbaycan ərazisində bu gün mövcud olan bir çox qalalar, müdafiə qurğuları ilə yanaşı şəhər darvazalarının yanında məscidlər, mədrəsələr tikilmiş, dini rəhbərlərin qəbirləri üzərində böyük məqbərələr ucaldılmış, xanəgahlar qurulmuş, müxtəlif pir və ziyarətgahlar inşa edilmişdir. Xalqımızın ulu tarixinin öyrənilməsi baxımından bir çox məlumatları özündə qoruyub saxlayan dini abidələr – məqbərələr, mavzoleylər, türbələr, pir və ocaqlar, qədim qəbristanlıqlardakı baş daşları, məscidlər və imamza-dələrə məxsus tikililər bu günümüzə qədər gəlib çatmış və tariximizin daha dərindən araşdırılması üçün çox qiymətli tədqiqat obyektinə çevrilmişdir. Azərbaycanın paytaxtı ilə yanaşı ayrı-ayrı bölgələri də tarixi-memarlıq abidələri ilə zəngindir:

**Naxçıvanda** Mömünə Xatın türbəsi (XII), Qutixatın türbəsi (XII), Əlincə qalası (XI-XIII), məscid və türbə kompleksi, Gəmiqaya abidəsi; **Zəngilanda** Məmmədbəyli türbəsi, Bəsitçay Dövlət Qoruğu; **Gəncədə** «Çökək» hamamı; **Dəvəçidə** Çıraqqala abidələr kompleksi; **Cəbrayılda** 2 Tağlı Xudafərin körpüsü (XI-XII), 15 Tağlı Xudafərin körpüsü (XIII); **Füzulidə** Karvansara (XVII), Mirəli türbəsi, Azıx mağarası; **Şəkidə** Şəki Xan sarayı (XVIII); **Qubada** Rüstəm baba, Əfəndilər, Həzrət baba türbələri, Aman evi; **Hacıqabulda** Pir Hüseyn Türbəsi (XII-XIV); **Şuşada** Şuşa Qala qapıları, Şuşaqala mağaraları; **Ağdamda**

Xaçın türbəsi (XIV); **Qazaxda** Daş Salahlı, Damcılı mağaraları; **Ağcabədidə** Qoç heykəli (Kəhrizli kəndi), Cümə məscidi; **Qəbələdə** Həzrə kəndi–türbələr kompleksi; **Göyçayda** Yeraltı hamam (1902); Alpoud kənd məscidi və digər bölgələrimizdə yerləşən məşhur abidələrin adlarını çəkmək olar. Ümumiyyətlə, Azərbaycan Respublikasında 2005-ci ildə dövlət uçotuna götürülmüş 6300-dən çox tarix və mədəniyyət abidəsi qeydə alınmışdır. Onlardan 3858-i memarlıq abidəsi, 2041-i arxeoloji abidə, 207-si dekorativ tətbiqi sənət abidəsi, 194-ü bağ-park, memorial və monumental xarakterli abidə kimi qeydiyyata alınmışdır.

Qeyd etmək lazımdır ki, işğal olunmuş ərazilərimizdə də çoxlu sayda mədəniyyət müəssisələri–927 kitabxana, 808 mədəniyyət sarayı, klub və mədəniyyət evi, 85 musiqi və rəssamlıq məktəbi, 4 rəsm qalereyası, 22 muzey və onların filialları, dünya əhəmiyyətli 13, ölkə əhəmiyyətli 242 və yerli əhəmiyyətli 434 tarix və mədəniyyət abidələri qalmışdır.

«Yalnız öz keçmişini xatırlayan, bilən və göz bəbəyi kimi qoruyan xalqın gələcəyi var» demişlər. Lakin təəssüflə qeyd etmək lazımdır ki, uzun illərdən bəri Azərbaycanın nadir tarixi-memarlıq abidələri lazımınca qorunmamış, onlardan bir çoxu baxımsızlıq üzündən yararsız hala düşmüş, səriştəsizlik nəticəsində bəzilərinin bərpası tikililərin heyrətamiz tarixi görünüşünə və çoxəsrlik memarlıq irsi ənənələrinə ciddi xələl gətirmişdir. Onu da qeyd edək ki, bundan əvvəlki illərdə mədəniyyət abidələrinin mükəmməl surətdə qorunmasına o qədər də ciddi fikir verilməmişdir. Buna görə də indi buraxılan səhvlər bir-bir islah olunur. Odur ki, tarixi-memarlıq abidələrini milli-mədəni sərvət kimi qoruyub saxlamaq, yetişməkdə olan gənc nəslin vətənpərvərlik ruhunda tərbiyə olunmasında onların rolunu artırmaq və ölkəmizə gələn çoxsaylı qonaqlar arasında lazımi səviyyədə təbliğini təmin etmək məqsədi ilə ölkə qanunvericiliyində bir sıra qanunlar, sərəncamlar verilmişdir. İndi Azərbaycan abidələri aşağıdakı rəhbər sənədlər əsasında qorunur və bərpa olunur:

«Azərbaycan Respublikasının Konstitusiyası» (12 noyabr, 1995 (maddə 77)

«Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunu ( 06 fevral, 1998)

«Muzeylər haqqında» Azərbaycan Respublikasının Qanunu (24 mart, 2000)

«Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu (10 aprel, 1998)

«Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» Azər-

baycan Respublikası Prezidentinin Sərəncamı (6 mart, 2007)

«Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi-memarlıq abidələrinin bərpası və qorunması haqqında» Azərbaycan Respublikasının Prezidentinin Sərəncamı (18 avqust, 2006)

«Azərbaycan Respublikasında monumental heykəltaraşlıq abidələri, xatirə, memorial və memarlıq kompleksləri haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (2 aprel, 2007)

Bundan əlavə ölkə rəhbərliyinin bu məsələyə daim diqqət və qayğısının nəticəsi kimi Respublikamızda əlaqədar təşkilatların nadir tarix və mədəniyyət irsinin qorunub saxlanılması sahəsində müxtəlif beynəlxalq və regional təşkilatlarla qarşılıqlı fəaliyyəti də xeyli gücləndirilmişdir. Təkcə son bir neçə ildə YUNESKO, IKROM (Beynəlxalq Muzey Sərvətlərinin Qorunması Təşkilatı), IKOMOS (Beynəlxalq Xatirə Yerlərinin Qorunması Təşkilatı), ISESKO (Beynəlxalq Islam Ölkələrinin Mədəniyyət və Tarix Irsinin Qorunması Təşkilatı) kimi beynəlxalq təşkilatlarla əlaqələr yaradılmışdır.

Bu işin mühüm bir vəzifə kimi daima diqqət mərkəzində saxlanılmasını onun ayrı-ayrı problemlərinə aid nəşr olunan tədqiqat materiallarının gündən-günə artan sayından da aydın şəkildə görmək mümkündür. Bunun üçün aşağıdakı siyahıya diqqət yetirmək kifayətdir.

## *ƏDƏBIYYAT*


Azərbaycan Respublikasının paytaxtı Bakı şəhərində tarixi memarlıq abidələrinin bərpası və qorunması haqqında: Sərəncam. Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev. 18 avqust, 2006-cı il //Azərbaycan.– 2006.– 19 avqust.– S. 1.

Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında: Sərəncam Azərbaycan Respublikası Prezidenti Ilham Əliyev. 6 mart, 2007-ci il //Azərbaycan.– 2007.– 7 mart.– S. 1.

Azərbaycan Respublikasında monumental heykəltaraşlıq abidələri, xatirə, memorial və memarlıq kompleksləri haqqında: Sərəncam. Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyev. 2 aprel, 2007-ci il //Azərbaycan.– 2007.– 3 aprel.– S. 1.

«Mədəniyyət haqqında» Azərbaycan Respublikasının Qanunu 6 fevral, 1998-ci il //Azərbaycan Respublikasının qanunlar külliyatı.– B.: Qanun, 2001.– S. 681-688.

«Muzeylər haqqında» Azərbaycan Respublikasının Qanunu 24 mart, 2000- ci il //Azərbaycan.– 2000.– 22 iyun.– S. 2.

«Tarix və mədəniyyət abidələrinin mühafizəsi haqqında» Azərbaycan Respublikasının Qanunu 10 aprel, 1998-ci il //Azərbaycan.– 1998.– 19 iyun.– S. 1.

* * *

Abbasova F. Bulaqbaşı abidələri.– B.: Elm, 2003.– 98 s.

Azərbaycan Respublikası ərazisində dövlət mühafizəsinə götürülmüş daşınmaz tarix və mədəniyyət abidələrinin dərəcəsinə görə bölgüsü.– B.: Azərnəşr, 2001.– 202 s.

Ələkbərli Ə. Qərbi Azərbaycan abidələri.– B.: Nurlan, 2007.– 272 s.

Əliyev I., Məmmədzadə K. Qarabağın alban abidələri.–B.: Azərnəşr, 1997.– 32 s.

Əliyev N. H. Əliyev və Bakının memarlığı.–B.:Ulduz, 2005.- 223 s.

Fiqarov Ş. F. Abşeron memarlıq abidələri.– B.: Çaşıoğlu, 2003.– 95 s.

Həsənoğlu H. Azərbaycanın dini-tarixi abidələri.–2 hissədə.– B.: Nasir, 2005.– 524 s.; II hissə.– 2005.– 584 s.

Ismizadə Ö., Ciddi H. Bakı Qız qalası.– B.: Azərnəşr, 1968.– 40 s.

Mehdiyeva A. Azərbaycanda qız qalalarının tarixi.– B.: Elm, 2000.– 122 s.

Mehdiyev N. Bakının ədəbiyyat muzeyləri.– B., 2002.– 68 s.

Mədəni irsin qorunmasına dair normativ hüquqi aktlar toplusu: (1 sentyabr, 2001-ci ilədək olan vəziyyətə görə) .– B.: Elm, 2001.– 275 s.

Məmmədova Z. Memarlıq abidələrinin bərpasının əsasları.– B.: Çaşıoğlu, 2004.–199 s.

Muradxanov T. Q. Arxitektura abidələrinin mühafizəsi, bərpası və uyğunlaşması.– B., 1979.– 37 s.

Rüstəmov C. Qobustan – Azərbaycanın qədim mədəniyyət ocağı.– B.: Nurlan, 2006.– 94 s.

Salamzadə Ə.V. Əcəmi Əbubəkr oğlu və Naxçıvanın memarlıq abidələri.– B.: Işıq, 1976.– 83 s.

Salamzadə Ə.V., Məmmədzadə K. M. Arazboyu abidələr.– B.: Elm, 1980.– 72 s.

Salamzadə Ə.V., Məmmədzadə K.M. Şəkinin memarlıq abidələri.– B.: Elm, 1980.– 138 s.

Səidov Ə. Azərbaycanın memarlıq abidələrinin bərpası.– B.: Azərnəşr, 1963.– 44 s.

Tahirzadə Ə. Şəkinin tarixi qaynaqlarda.– B.: Master, 2005.– 255 s.

* * *

Adıgözəlova E. Muzey mənəvi tərbiyə ocağıdır //Mədəni-maarif.– 2003.– № 7.– S. 30-31.
Əliyeva S. Qobustan qayalar üzərində salnamədir //Respublika.– 2005.– 9 iyul.– S. 6.
Əsədov B. Memarlarına baş-ucalığı gətirməyən uca binalar: Paytaxtın memarlıq siması //Azərbaycan.– 2004.– 7 aprel.– S. 5.
Əsədov V. Tariximiz, abidələrimiz, sərvətlərimiz //Mədəni-maarif.– 2004.– № 2-3.– S. 60-65.
2006-2016-cı illər üçün Mədəniyyət Sahəsində Dövlət Inkişaf Konsepsiyası //Mədəni-maarif.– 2006.–№ 11.–S. 5-13.
Kazımova S. Keçmişsiz gələcək yoxdur //Xalq qəzeti.– 2005.– 9 iyul.– S. 5.
Xəlilzadə F. Tarixi memarlıq abidələri //Azərbaycan.– 2006.– 25 avqust.– S. 5.
Vəliyev Y. Milli-mədəni irsimizin qorunması və kulturoloji problemləri //Mədəni-maarif.– 2005. – № 11.– S. 11-13.
Zəkiyev F. Içərişəhərin incisi //Xalq qəzeti.– 2005.– 9 iyul.– S.5.

***RUS DILINDƏ***

О реставрации и охране историко-архитектурных памятников в столице Азербайджанской Республики города Баку: Распоряжение Президента Азербайджанской Республики, 18 августа, 2006 г. //Бакинский рабочий.– 2006.– 22 августа.– С. 1.
Об улучшении музейного дела в Азербайджане: Распоряжение Президента Азербайджанской Республики, 2 апреля, 2007 г. //Бакинский рабочий.– 2007.–8 марта.– С. 5.
О памятниках монументальной скулптуры, мемориальных и архитектурных комплексах в Азербайджанской Республике: Распоряжение Президента Азербайджанской Республики, 2 апреля, 2007 г. //Бакинский рабочий.– 2007.– 3 апреля.– С. 2.

* * *

Адыгезалов Э. Дворец Ширваншахов-жемчужина зодчества Азербайджана.– Б.: Элм, 1986.– 18 с.
Алекперли А. Памятники Западного Азербайджана.–Б.: Нурлан, 2007.– 272 с.
Имамкулийев Ф. Г. Мавзолей Н. Гянджеви .– Б.: Элм, 1991.- 18 с.
Маммедова Г. Г. Зодчество Кавказской Албании.– Б.: Чашиоглы, 2004.– 224 с.
Музеи и театры Баку.– Б.: Элм, 2005.– 19 с.

**HƏSƏN TURABOV-70**

*Aktyor*

***Aprel***
**24.03.1938-**
**23.02.2003**



Azərbaycanda lirik-psixoloji aktyor məktəbinin banisi Həsən Turabov sayılır. Lap gənc yaşlarından ona hörmət əlaməti olaraq afişa və proqramlarda adından sonra «ağa» sözü də yazılır. Onun yaradıcılığı təkcə möhtəşəm rolların siyahısı ilə deyil, həm də yaratdığı xarakterlərin mənəvi-əxlaqi, fəlsəfi, çoxşaxəli olması ilə zəngindir.

Həsən Səttar oğlu Turabov 1938-ci il martın 24-də Bakıda anadan olmuşdur. Yeddinci sinfə qədər Bakıdakı 31 saylı məktəbdə oxuyub və orta təhsilini 14 saylı məktəbdə başa vurmuşdur. Azərbaycan Dövlət Teatr Institutunda təhsil ala-ala həm radioda, həm də yenicə açılan televiziyada diktor işləmişdir. Institutu komik aktyor kimi qurtarmışdır. 1960-cı ildən müəyyən qısa fasilələrlə Akademik Milli Dram Teatrında aktyor işləmişdir. 1962-ci ildə teatrdan uzaqlaşaraq Bakıdakı Odessa Dənizçilik Institutuna daxil olub və az sonra yenə səhnəyə qayıdaraq təhsilini yarımçıq saxlamışdır.

Görkəmli aktyor 1987-ci il fevralın 18-də kollektivin səsverməsi ilə Akademik Teatra direktor seçilmişdir. 1989-cu il yanvarın 15-dən həm də sənət ocağının bədii rəhbəri idi. 2001-ci il dekabrın 13-dən öz ərizəsi ilə hər iki vəzifədən istefa vermişdir.

1971-ci il aprelin 29-da Respublikanın Əməkdar artisti, 1982-ci il dekabrın 1-də Xalq artisti fəxri adlarına layiq görülmüşdür. 1991 və 1996-cı illərdə Azərbaycan Teatr Xadimləri Ittifaqının prezidenti seçilmişdir.

Artıq dörd ildir ki, Həsənağa Turabov aramızda yoxdur. Indi biz onu yalnız filmlərdə görürük. Həsənağa Turabovun itkisi Azərbaycan mədəniyyətinə, incəsənətinə böyük zərbə oldu. Bu böyük sənətkar, teatrımızın, kinomuzun aparıcı aktyorlarından idi. Onun sənət yolu böyük bir epoxanı əhatə edir. 60-cı illərdən sənətə gəlmiş Həsənağa Turabovun milli teatrımızın, aktyor sənətimizin inkişafında xidmətləri misilsizdir. Yaratdığı rolları say-

maqla qurtaran deyil. Onun yaradıcılığının böyük bir dövrü Akademik Milli Dram Teatrı ilə bağlı olub.

Kimlərin əsərlərində oynamadı? M.F.Axundov, N.B. Vəzirov, C.Məmmədquluzadə, Ə.B. Haqverdiyev, C.Cabbarlı kimi klassik Azərbaycan ədiblərinin, demək olar ki, əksər əsərlərində baş rolları oynayıb. Aydından tutmuş Kefli Iskəndərə qədər bütün rollarında təbii idi. Onun yaratdığı «Yeddi oğul istərəm»də Gəray bəy, «Atları yəhərləyin»də Qaçaq Nəbi, «Dantenin yubileyi»ndə Kəbirlinski kinomuzun qızıl salnaməsi deyilmi? Tam bir-birinin əksi olan, müxtəlif səpgili obrazlardır. Birincisi kişilik, ikincisi qəhrəmanlıq, üçüncüsü ziyalılıq rəmzi olan bu üç obrazın hansını Turabov o birindən zəif yaradıb? Onun Azərbaycan kinosunda yaratdığı obrazlar yazıya gəlməz.

Həsən Turabov böyük ehtiraslar aktyoru idi, güclü faciə xarakterli sənətkar idi.

Həsən Turabov ən gözəl səhnə və ekran rollarını otuz beş yaşına qədər oynayıb. Səhnədə son dərəcə səmimi və cazibəli, ifadə vasitələri sadə və eyni zamanda fəlsəfi-psixoloji cəhətdən dəyərli təsir bağışlayan aktyorun rolları milli teatrımızın klassik obrazları siyahısına parlaq səhifələr yazmışdır.

Qüdrətli aktyor 2003-cü il fevralın 23-də ürək xəstəliyindən vəfat etmişdir.

***HAQQINDA***

Behbudqızı S. Həsənağa Turabov işığı: («Yuğ» Dövlət Teatrı Həsənağa Turabovun xatirə gecəsini keçirməsi haqqında) //Həftə içi.- 2006.- 24 fevral.- S.4.

Hacıyeva Y. Sənətin sehri: Həsənağa Turabov və Azərbaycan teatrı //Mədəni-maarif işi.- № 5.- S.9-10.

Mükərrəmoğlu M. Ömrün xatirəyə dönmüş anları: (Görkəmli aktyor Həsənağa Turabov haqqında) //Xalq qəzeti.- 2005.- 30 mart.- S.4.

«Qızıl Dərviş» mükafatı sahibləri məlum oldu: Qaliblər sırasında Həsənağa Turabovun da adı var //Xalq cəbhəsi.- 2003.- 11 mart.- S.16.

Qurbanlı R. Ağayana Həsən-ağa: (Xalq artisti Həsənağa Turabov haqqında) //Gün.- 2006.- 23 fevral. – S.7.

Səriştəli bələdçi olmaq vəzifəsi: (Azərbaycan Teatr Xadimləri Ittifaqının prezidenti, Xalq artisti H.Turabov ilə müsahibə) Müsahibəni apardı: F.Xəlilzadə //Azərbaycan.- 2002.- 27 mart.- S.6.

Son mənzilə: (Xalq artisti, professor Həsənağa Turabov) //Azərbaycan.- 2003.-fevral.- S.16.

**ZENFIRA QULAMOVA**

**HEYDƏR ƏLIYEV-85**

***Ümummilli Lider***

*May*
**10.05.1923-**
**12.12.2003**



Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyev 10 may 1923-cü ildə Naxçıvan şəhərində anadan olmuşdur. Heydər Əliyev Naxçıvan Pedaqoji Texnikumunu bitirdikdən sonra 1939-1941-ci illərdə Azərbaycan Sənaye Institutunun (indiki Azərbaycan Dövlət Neft Akademiyası) Memarlıq fakültəsində təhsil almışdır. 1941-ci ildən Naxçıvan MSSR Xalq Daxili Işlər Komissarlığında və Naxçıvan MSSR-in Xalq Komissarları Sovetində şöbə müdiri vəzifəsində işləmişdir. Heydər Əliyev 1944-cü ilin may ayında Naxçıvan Vilayət Partiya Komitəsi tərəfindən dövlət təhlükəsizliyi orqanlarına işə göndərilmiş, Leninqradda (indiki Sankt-Peterburq) xüsusi təhsil almış və sonrakı illərdə general rütbəsinədək yüksəlmişdir. 1957-ci ildə Azərbaycan Dövlət Universitetinin Tarix fakültəsini bitirmişdir. 1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə həmin komitənin sədri vəzifəsinə irəli çəkilmişdir. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin (1969) Plenumunda Heydər Əliyev Azərbaycan KPMK-nın birinci katibi, Mərkəzi Komitənin büro üzvü seçilmişdir. Azərbaycan KPMK-nın avqust (1969) Plenumunda Heydər Əliyevin məruzəsi əsasında respublikada xalq təsərrüfatına və mədəni quruculuğa rəhbərliyi əsaslı surətdə yaxşılaşdırmaq, dövlət və əmək intizamını möhkəmləndirmək, kadrların məsuliyyətini artırmaq xətti müəyyən olunmuşdur. Bu xətt Heydər Əliyevin sonrakı fəaliyyəti sayəsində daha da inkişaf etdirilərək elmi surətdə əsaslandırılmış, o vaxtlar respublikanın iqtisadi-siyasi həyatında xalqın mənəviyyatına mənfi təsir göstərən tənəzzül meyllərinin qarşısının alınması, sağlam mənəvi-psixoloji iqlimin, ictimai ovqatın bərqərar olması uğrunda mübariz proqrama çevrilmişdir. Heydər Əliyevin Azərbaycan KP-

nin XXVIII (1971, mart) və XXIX (1976, yanvar) Qurultayla-rında hesabat məruzələri bu proqramın həyata keçirilməsində çox mühüm rol oynamışdır. Heydər Əliyev Sov.IKP MK-nın XXIV (1971, mart-aprel) və XXV (1976, fevral-mart) Qurultayların-da çıxış etmiş, həmin qurultay-larda Sov.IKP MK-nın üzvü seçilmişdir. Bu illərdə Heydər Əliyev Sov. IKP MK Siyasi Bürosu üzvülüyünə namizəd (1976), Siyasi Büro uzvü (1982) seçilmiş və SSRI Nazirlər Soveti Sədrinin birinci müavini təyin edilmişdir. SSRI Konstitusiyası Komissiyasının üzvü olan Heydər Əliyev ölkənin yeni Konstitusiyasının hazırlanmasında fəal iştirak etmiş və Konstitusiyanı qəbul edən SSRI Ali Sovetinin Sessiyasında çıxış etmişdir. Heydər Əliyev Azərbaycan SSR-nın yeni Konstitusiyasının layihəsini hazırlayan Komissiyanın sədri kimi Azərbaycan dilinin, Azərbaycan SSR-nin Dövlət Dili olması haqqında maddənin Respublika Konstitusiyasına daxil edilməsinə nail olmuşdur.

Heydər Əliyev Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə əlaqədar mərkəzin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq 1991-ci ilin iyul ayında Sov.IKP sıralarını tərk etmişdir. Heydər Əliyev doğma xalqını milli siyasi fəlakət burulğanından xilas etmək üçün 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, ilk əvvəl Bakıda, sonra isə Naxçıvanda Qurtuluş mübarizəsini davam etdirmiş, həmin ildə də Azərbaycan SSR-in Ali So-vetinə deputat seçilmişdir. 1992-ci ildə Yeni Azərbaycan Partiyasının Təsis Qurultayında partiyanın sədri seçilmişdir.

Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilmişdir. Həmin gün Azərbaycan xalqının tarixinə Qurtuluş Günü kimi daxil olmuşdur. Heydər Əliyevin başçılıq etdiyi Qurtuluş mübarizəsi zəfər çaldı. Bununla Azərbaycan dövlətçiliyinin məhv edilməsi, vətəndaş müharibəsi və ölkənin parçalanması təhlükəsi birdəfəlik aradan qalxdı. Həmin il iyunun 24-dən isə Heydər Əliyev Milli Məclisin Qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı. 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı.

Heydər Əliyev Azərbaycanın təbii ehtiyatlarından və əlverişli coğrafi-strateji mövqeyindən ölkənin milli mənafelə-rinə uyğun olan irimiqyaslı bey-

nəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində çox gərgin fəaliyyət göstərdi. 1994-cü il sentyabrın 20-də Bakıda «Əsrin müqaviləsi» adını almış neft müqaviləsi bağlandı. Heydər Əliyevin yeritdiyi müdrik siyasət nəticəsində Azərbaycan neftinin dünya bazarlarına nəqli sahəsində də uğurlu addımlar atılmış «Bakı-Supsa» boru kəməri tikilib istifadəyə verilmişdir. Onun müdrikliyi, uzaqgörənliyi və siyasi iradəsi sayəsində «Bakı-Tbilisi-Ceyhan» əsas ixrac boru kəmərinin inşa olunması haqqında müqavilə imzalanmışdır.

Onun rəhbərliyi ilə həmçinin qonşu dövlətlərlə əvvəllər korlanmış münasibətlər düzəldilərək yeni əsaslar üzərində quruldu, Azərbaycan Beynəlxalq qurum və təşkilatlara üzv seçildi.

Azərbaycanın siyasi və hüquqi sahədə apardığı islahatlar lazımınca qiymətləndirildi, Avropa Şurasına üzv qəbul olundu. 1995-ci ildə H.Əliyevin başçılığı ilə müstəqil Azərbaycan Konstitusiyası qəbul olundu. Həmin il Azərbaycanın ilk Milli Məclisi seçildi. Azərbaycan xalqı bunların nəticəsində öz müstəqil ölkəsində tam azadlığa çıxdı.

Heydər Əliyevin təşəbbüsü ilə tarixi Böyük Ipək Yolunun bərpasına yönəlmiş Beynəlxalq Proqramın həyata keçirilməsində Azərbaycan aparıcı rol oynamış, 1998-ci ilin sentyabrında 32 ölkənin və 14 Beynəlxalq təşkilatın nümayəndələrinin Bakıda konfransı keçirilmiş, konfrans proqramın icraçı katibliyinin Bakıda yerləşməsi haqqında qərar qəbul etmişdir.

Heydər Əliyevin çoxşaxəli və genişmiqyaslı fəaliyyətində iqtisadi islahatlar, bazar iqtisadiyyatının təşkili, iqtisadi böhranın aradan qaldırılması və tərəqqinin təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, ölkə iqtisadiyyatında ilk artım meyllərinin başlanması, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi və inflyasiyanın qarşısının alınması, manatın alıcılıq qabiliyyətinin davamlı surətdə sabit saxlanması prioritet sahələrdir.

Heydər Əliyev Ermənistanın təcavüzü nəticəsində Azərbaycanın ərazi bütövlüyünün pozulması, işğal olunmuş Dağlıq Qarabağ və ətraf rayonlardan 1 milyondan artıq soydaşımızın didərgin salınması, çadırlarda qaçqın və köçgün vəziyyətində yaşamağa məcbur olması, Azərbaycan ərazisinin 20 faizdən çoxunun Ermənistan silahlı birləşmələrinin işğalı altında qalması və s. haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması sahəsində çox gərgin və geniş miqyaslı fəaliyyət göstərmişdir. O, Ermənistan –Azərbaycan– Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həll olunmasına tərəfdar olduğunu bildirmiş, bu yolda ardıcıl mübarizə aparmış, problemin sülh yolu ilə həlli baş tutmadıqda

Qarabağın silahla azad ediləcəyini əzmlə bəyan etmişdir.

Heydər Əliyevin tarixin acı və amansız sınaq dövrlərində, ermənilərin xüsusi qəddarlıqla həyata keçirdikləri soyqırımları nəticəsində, dünyanın ayrı-ayrı ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin yaradılması işində müstəsna xidmətləri olmuşdur. Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti kimi xarici ölkələrə rəsmi səfərləri zamanı, istisnasız olaraq, həmin məmləkətdə yaşayan azərbaycanlıların nümayəndələri ilə çox önəmli görüşlər keçirmiş, Azərbaycan diasporunun formalaşması və təşkilatlanması, onların azərbaycançılıq ideyası altında ana Vətən – Azərbaycan ətrafında sıx birləşməsi üçün misilsiz xidmətlər göstərmişdir. Heydər Əliyevin təşəbbüsü və bilavasitə rəhbərliyi ilə 2001-ci il noyabrın 9-10-da Bakıda Dünya Azərbaycanlılarının I Qurultayı keçirilmiş, Azərbaycan diasporunun fəaliyyətinin canlandırılması və gücləndirilməsi sahəsində çox mühüm tarixi qərarlar qəbul edilmişdir.

Heydər Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə səslərin 76,1 faizini toplayaraq yenidən Azərbaycan Respublikasının Prezidenti seçilmişdir. Heydər Əliyev dahi siyasi və dövlət xadimi olmaqla yanaşı, həm də tarix, fəlsəfə, ədəbiyyat və incəsənətin gözəl bilicisi, elmin və mədəniyyətin himayəçisi idi. Onun bilavasitə təşəb-büsü və iştirakı ilə neçə-neçə ədəbiyyat, incəsənət və elm xadimlərinin yubileyləri keçiril- miş, onların fəaliyyəti yüksək dövlət mükafatları və fəxri adlarla qiymətləndirilmiş, abidələri ucaldılmışdır. Azərbaycan mədəniyyətinin inkişafında böyük xidmətləri olan qocaman sənətkarlara, istedadlı gənc şair və yazıçılara, müxtəlif yaradıcılıq sahələrində ümidverici yeniyetmələ-rə, fərdi təqaüdlər təyin etməsi də mədəniyyətimizin inkişafına Heydər Əliyevin böyük qayğısının bariz nümunələrindəndir.

Azərbaycan Respublikası -nın Prezidenti Heydər Əliyevin Silahlı Qüvvələrə göstərdiyi diqqət və qayğının nəticəsində ordunun mərkəzləşdirilmiş maddi-texniki təminatı əvvəlki illərdən fərqli olaraq əhəmiyyətli dərəcədə yaxşılaşdırılmış, hərbi birləşmə və hissələrin maddi-texniki, tibbi və digər vasitələrlə təmin edilməsi təşkil olunmuş, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmışdı. Azərbaycanın Silahlı Qüvvələrinə tələb olunan silah, hərbi texnika, döyüş sursatı, arxa xidmət əmlakı və digər maddi vasitələrin istehsal olunması üçün sifarişlərin Azərbaycan Respublikasının sənaye müəssisələrində yerləşdirilməsi ölkə iqtisadiyyatının inkişafına təkan verdi. Orduda şəxsi heyətin mənəvi-psixoloji hazırlığına, döyüş ruhunun yüksəldilməsinə diqqət artı-

rıldı, hərbi vətənpərvərlik işi gücləndirildi.

2001-ci ildə Azərbaycanın Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi də göstərdi ki, Azərbaycan demokratik, hüquqi dövlət qurmaq yolunda inamla irəliləyir.

Azərbaycanda latın əlifbasına keçilməsi, dövlət dilinin tətbiqi işinin təkmilləşdirilməsi, Azərbaycan Əlifbası və Azərbaycan Dili Gününün təsis edilməsi haqqında 2001-ci ildə imzalanmış Fərmanlar, Ümummilli Liderin milli-mənəvi dəyərlərin qorunub saxlanması çağırışı ilə Azər baycan xalqına müraciətləri, türk xalqları və dövlətləri arasında əlifba və dil birliyinin təmin edilməsi və bir çox digər sahələrdəki coşqun fəaliyyəti Heydər Əliyevə böyük şöhrət gətirmişdir. Rəhbər Bakı Dövlət Universitetini «Azərbaycan xalqının milli sərvəti», Elmlər Akademiyasını isə Azərbaycan xalqının tarixi nailiyyəti adlandırmış və respublikada elmin, təhsilin inkişafına daim diqqət və qayğı göstərmişdir. Heydər Əliyev 2001-ci il 15 may tarixli Fərmanı ilə Elmlər Akademiyasına Azərbaycan Milli Elmlər Akademiyası statusu verməklə bu nəhəng elm ocağının Azərbaycan xalqı qarşısındakı xidmətlərini və akademik elmin ölkənin inkişafının əsas təminatçılarından olduğu faktını bir daha təsdiqləmişdir. Ulu öndərin yeritdiyi idman siyasəti sahəsində Azərbaycan indi bütün dünyada tanınır.

Zəngin, hərtərəfli və tarixi biliyə malik olan Heydər Əliyev doğma tariximizin doğru, düzgün araşdırılması, öyrədilməsi və təbliğ olunmasını daima diqqət mərkəzində saxlamış, bu mühüm sahəyə çox böyük qayğı göstərmişdir.

Heydər Əliyev bir sıra xarici ölkələrin yüksək ordenlərinə, beynəlxalq mükafatlara, o cümlədən Türkiyənin Sənaye və Iş Adamları Vakfının 1997-ci ilin insan haqları və ilin dövlət adamı mükafatına, ən nüfuzlu televiziya kanallarından biri- «Nərgiz TV» nin apardığı rəy sorğusuna görə planetimizin siyasi xadimləri arasında «Dünyada ilin adamı» fəxri adına (1997), «Ipək Yolu Fondu»nun təsis etdiyi «Ipək Yolu Xidmət Mükafatı»na (1998), Beynəlxalq Atatürk Sülh Mükafatına (1999), müxtəlif ölkə Universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara, mükafatlara layiq görülmüşdür. Dövlətlərarası əlaqələrin inkişafında regional münasibətlərin, siyasi sabitliyin tənzimlənməsində yorulmaz səylərinə görə Heydər Əliyev 2001-ci ildə «Qızıl fortuna» Beynəlxalq Reytinq Təşkilatının ali mükafatı- «Qızıl Ulduz» («Qloriya populi») ilə təltif olunmuşdur. XX əsrin son ilində Rusiyada təzəcə çapdan çıxmış «XX əsrin 100 böyük rəhbəri» kitabında son yüz ilin süzgəcindən keçən adlar sırasında

Azərbaycan Prezidenti Heydər Əliyevin də adı var.

Ümumdünya tarixinin nadir şəxsiyyətlərindən olan Heydər Əliyevin əbədiyyətə qovuşduğu gün Azərbaycan xalqının, bütün türk-islam dünyası və mütərəqqi bəşəriyyətin tarixinə ən ağır hüzn kimi daxil oldu. Azərbaycan xalqı Heydər Əliyevin adını geniş miqyasda əbədiləşdirmişdir. Azərbaycan Respublikasının bütün rayon, şəhər, böyük qəsəbə və kəndlərində Heydər Əliyevin şərəfinə bağ və parklar, meydanlar salınmış, mu-zeylər yaradılmışdır. Kiyevdə Heydər Əliyev adına Siyasi Elmlər və Beynəlxalq Münasi-bətlər Institutu fəaliyyət göstərir. Heydər Əliyev məktəbləri və universitetlərində elmi-nəzəri mühazirələr, məruzələr dinlənilir, seminarlar keçirilir. Bakının Beynəlxalq Hava Limanı, Bakı-Tbilisi-Ceyhan neft kəməri, Respublika sarayı, Bakı Idman-Konsert kompleksi və s. Heydər Əliyevin adını daşıyır.

Heydər Əliyev Bakıda Fəxri Xiyabanda, ömür-gün yoldaşı, akademik Zərifə xanım Əliyevanın məzarının yanında dəfn olunmuşdur. Ulu öndərin məzarı qədirbilən Azərbaycan xalqının müqəddəs ziyarətgahına çevrilmişdir.

## *ƏDƏBIYYAT*

Azərbaycan Respublikasının Prezidenti Azərbaycan xalqının ümummilli lideri Heydər Əlirza oğlu Əliyevin xatirəsinin Əbədiləşirilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı //Azərbaycan.– 2004.– 11mart.– S.1.

### *Əsərləri*

Müstəqilliyimiz əbədidir: Çıxış lar, nitqlər, bəyanatlar, məktublar, müsahibələr.1-21 C.-B.:Azərnəşr, 1997-2007.

C.1. Iyun,1993-may, 1994.-568 s.

C.2. May,1994-dekabr,1994.-604 s.

C.3. Dekabr, 1994-iyun,1995.-488 s.

C.4. Iyun,1995-noyabr,1995.-528 s.

C.5. Noyabr,1995-mart,1996.-500 s.

C.6. Mart,1996 -iyun, 1996.-512 s.

C.7.Iyun, 1996 -noyabr, 1996.-520 s.

C.8. Noyabr, 1996 -mart, 1997.-488 s.

C.9. Mart,1997 -may,1997.-466 s.

C. 10.May, 1997 -iyul, 1997.-472 s.

C.11.Iyul,1997 - oktyabr, 1997.-451 s.

C.12. Avqust, 1997 - oktyabr, 1997. - 432 s.
C.13. Oktyabr, 1997 - dekabr, 1997. - 519 s.
C.14. Dekabr,1997 -fevral,1998.- 520 s.
C.15. Mart,1998 -iyun,1998.- 527 s.
C.16. Iyun,1998 -iyul,1998.- 551 s.
C.17. Iyul, 1998 -oktyabr,1998.- 528 s.
C. 18. Oktyabr, 1998 - dekabr, 1998. - 552 s.

Müstəqillik yollarında:2 C-də.- B.: Azərbaycan Universiteti, 1997.- C.1.- 135 s. ; C.2.-145 s.

* * *

Atatürk haqqında / Tərt. ed. Nəzərli S.- B.: Az ata M, 2003.- 78 s.
Azərbaycan bütün azərbaycanlıların vətənidir.- B.: Azərbaycan, 2000.- 143 s.
Azərbaycan XXI əsrin və üçüncü minilliyin ayrıcında.-B.,2001.- 167 s.
Azərbaycanda iqtisadiyyatın və sosial sahələrin yüksəlişi özəl sektorun inkişafından asılıdır.- B.: Nurlan, 2002.- 107 s.
Təhsil millətin gələcəyidir /Tərt.ed. M.Mərdanov, Ə.Quliyev.- B.: Təhsil, 2002.- 574 s.

## *HAQQINDA*

Abdullayev E. Azərbaycan demokratik inkişaf yolunda (Heydər Əliyev haqqında).- B.: Təhsil, 2004.- 279 s.
Abdullayev E. Dövlət quruculuğu.- B.: Ozan, 2002.-230 s.
Abdullayev Ə. Dünya şöhrətli dövlət xadimi: Heydər Əliyev.- B.: Iqtisad Universiteti, 2005.- 250 s.
Abdulov N. Heydər Əliyev dühasını anlamaq gərək.- B.: Adiloğlu, 2005.- 141 s.
Aran S. Üfüqdə Nobel sülh mükafatı görünür.- B.: Azərbaycan, 2003.- 303 s.
Aslanov A. H. Əliyev və Azərtac.- B.: Nurlan, 2005.- 176 s.
Azərbaycan 1994: Milli dövlətçilik sınaq qarşısında.- B., 2002.- I hissə.- 471 s.
Azərbaycan təhsili müstəqillik illərində/Tərt.ed. A.Məmmədov, M.Zeynalov.- B.: Çaşıoğlu, 2003. - 366 s.
Azərbaycan Beynəlxalq Aləmdə: Azərbaycan Respublikasının Prezidenti H.Əliyevin 1993-1999-cu illərdə xarici ölkələrə səfərlərinə dair materiallar.-C.1-5.-B.,1996-1999.
Çobanov M.N. Görkəmli stra tegiyaçı.- B.: AADM, 2003.- 32 s.

Dünyanı heyran qoyan insan /Tərt.ed. A.Aslanov.- B.: Azərnəşr, 2004.- 374 s.
Dirçəliş illərində: Kitab-albom.- B.:Azərbaycan,1998.-80 s.
Əliyev N. Heydər Əliyev və Bakının memarlığı.- B.: Ulduz, 2005.- 223 s.
Əliyev Q. Müasir Azərbaycanın banisi, xilaskarı, qurucusu.- B.:Şəms, 2006.-517 s.
Əliyev V. Heydər Əliyevin dil siyasəti.-B.: Nurlan, 2003.-100 s.
Heydər Əliyev mənim həyatımda /Tərt. ed. I. Hüseynov.- B.: Təhsil, 2005.- 370 s.
Heydər Əliyev müstəqil Azərbaycan neft emalı sənayesinin banisidir.- B., 2003.- 143 s. Foto-albom
Heydər Əliyev irsi və Azərbaycan dövlətçiliyi.- B.: Azərbaycan, 2005.- 911 s.
Heydər Əliyev və Bakı Dövlət Universiteti /Tərt. ed. Ə.Əhmədov.- B.,1997.- 212 s.
Heydər Əliyev və Azərbaycançılıq /Tərt.ed. M.Talıblı.- B., 2006. - 186 s.
Heydər Əliyev və Gəncə: Foto-albom /Bur. məsul R.Daşdəmirov.-B.: Şərq-Qərb,1999.- 156 s.
Həqiqət kimi sadə: Foto-albom (Heydər Əliyev haqqında).- B.,2003.-243 s.
Xələfov A. Heydər Əliyev və Azərbaycanda kitabxana işi.- B.: Azərnəşr, 2006.- 312 s.
Xınalı Z. Hərbi məktəblərin banisi.- B.: Adiloğlu, 2006.- 263 s.
Xudiyev N. Xalq və dövlət naminə.- B.: Azərbaycan, 2004.- 399 s.
Ibrahimova G. Heydər Əliyev və Azərbaycan qadını.- B.: Adiloğlu, 2007.- 234 s.
Qasımlı M. H.Əliyev Istiqlala gedən yol.-B.: Bakı Universiteti, 2006.-606 s.
Qəndilov S. Dövlət Idarəçilik Akademiyası H. Əliyev dühasının bəhrəsidir.- B.: Çaşıoğlu, 2005.- 440 s.
Səfərov S. Heydər Əliyev kursu yeni keyfiyyət halında.- B.: Azərnəşr, 2005.- 503 s.
Mehdiyev R. Vətəndaş cəmiyyətinə yol açan ideyalar.- B.: Azərbaycan, 2006.- 565 s.
«Ömürdən səhifələr»: Foto-kitab /Red.V.Abdullayev; Mətn və fotoşəkil; N.Babayev, T.Silina.- B., Istanbul: «AŞIP»,1998.-30 s.
Prezident Heydər Əliyev.-2 kitab: Kit.1. Foto-albom /Tərt.ed. N.Ibrahimov, A.Muradverdiyev.- Kran,1999.-275 s. (Azərbaycan, ingilis, rus dillərində); Kit.2.- 1999.-183 s.
Tarixin memarı=Arxitektor istorii=Architect of historu: foto-albom /Tərt.ed. T.Həsəno-va.- Ankara, 1998.- 96 s.

* * *

Əliyev I. Heydər Əliyev haqqında fikirləri //Azərbaycan.-2006.-15 iyun.-S.1.

Abdullayev E. Dünya Azərbaycanlılarını birləşdirən Lider //Azərbaycan .-2005.-28 dekabr.-S.4.

Arif Q. 14 iyul 1969-cu il Azərbaycan tarixində əlamətdar gün //Xalq qəzeti.-2006.-16 iyul.-S.4.

Arifoğlu N. Tarixi yaradan və istiqamətləndirən insandır //Iki sahil.-2006.-15 iyun.-S.8.

Cəfərov C. Hüquqi və demokratik dövlətin qurucusu //Hərbi and.-2007.-12 may.-S.11.

Cəfərov I.Ümummilli Liderin anadan olmasının 84-cü ildönümü ehtiramla qeyd edildi //Respublika.-11 may.-2007.-S.6.

Əliyev A. Heydər Əliyev və Azərbaycan gömrüyü //Respublika.-2007.-30 yanvar.-S.5.

Elcanlı S. Milli intibahımızın memarı //Xalq qəzeti.-2006.- 27 iyul.-S.3

H.Əliyevin xatirəsi Azərbaycanın misilsiz nailiyyətlərində və davamlı tərəqqisində əbədiləşib //Fövqəladə hallar.-2007.-5 may.-S.1-3.

Mahmudov Y. Heydər Əliyev ideyalarının zəfər yürüşü //Azərbaycan.-2007.-10 may.-S.7.

Məhərrəmov A. Müstəqil dövlətçilik konsepsiyasının müəllifi //Azərbaycan.-2006.-14 iyul.-S.5.

Mirələmov H. Tanrının və tarixin seçildiyi insan //Respublika.-2007.-10 may.-S.1-5.

Niyazov X. Milyonların taleyinə nur saçan ömür //Azərbaycan.-2006.-15 iyun.-S.1.

Rzalı R. Heydər Əliyev Milli dövlətçilik quruculuğunda ziyalıların rolunu yüksək qiymət - ləndirdi //Azərbaycan.-2005.-13 dekabr.-S.10.

Rəhimzadə V. H.Əliyev və söz azadlığı: Azərbaycan mətbuatı yeni mərhələdə //Şərq.-2007.-11 may.-S.6.

Zbijnev B. Heydər Əliyev siyasi cəhətdən, möhkəm məntiqli zəkalı, istədiyini tez çatdıran, şəxsiyyət, bir sözlə şəksiz liderdir //Azərbaycan.-2006.-6 may.-S.5.

## *RUS DILINDƏ*

Указ Президента Азербайджанской Республики Ильгама Алиева об увековечении памяти общенационального лидера Азербайджанского народа Гейдара Алирза оглы Алиева //Бакинский рабочий.–2004.–12 марта.– С.1.

* * *

Алиев Г. Азербайджан родина всех Азербайджанцев: Речь Президента Азербайджанской Республики Гейдара Алиева на Всероссийском Конгрессе азербайджанцев ( Москва, 22 июня, 2000 года).- Б.: Азербайджан, 2000.- 143 с.

Речь Президента Азербайджанской Республики Гейдара Алиева на инаугурации: Клятва на верность родине, государству, народу (10 октября, 1993 года.- Баку, Дворец Республики).- Б., 1994.- 124 с.

Reçğ Prezidenta Azerbaydjanskoy Respubliki Qeydara Alieva na inauquraüii: Klətva na vernostğ rodine, qosu- darstvu, narodu (10 oktəbrə, 1993 qoda.- Baku, Dvoreü Respubliki).- B., 1994.- 124 s.

* * *

Аббасбейли А., Аббасбейли Э. Гейдар Алиев и мировая политика.-Б.: Азернешр, 1997.- 328 с.

Абдуллазаде Ф. Гейдар Алиев: Политический портрет.-Б.: XXI, 1998.- 100 с.

Агаев Э. Г. От Алиева до Алиева или выборы в Азербайджане.- Б.: Йени несил, 2005.- 336 с.

Андриянов В. И., Мираламов Г.Ф. Гейдар Алиев.- М.: Молодая гвардия, 2005.- 394 с.

Алиев Н.А. и др. ОЭТ Баку-Тбилиси-Джейхан.-Б.:Азербайджан, 2001.-168 с.

Гейдар Алиев: Библиографический справочник.- Б.: Изд -во Бак. Ун-та, 2003.-446 с.

Забелин М. Ю., Татаренко В. Т. Гейдар Алиев: лидер, политик, друг.-2-е изд., доп.- Б.: Нурлан, 2006.- 215 с.

Шукуров И. Будапештский Саммит.-Б.:Азербайджан, 1995.- 28 с.

Яркий пример верности родине, государству, народу.- Б.: Азербайджан, 1998.- 23 с.

* * *

Абуталыбов Т. Блиставший солнцем мудрости венец… //Бакинский рабочий.- 2004.- 4 мая.- С. 4.

Агаев А. Школа гражданственности и духовности //Бакинский рабочий.- 2004.- 5 мая.- С.6.

Адлер М. Экстраординарная личность //Бакинский рабочий.- 2004.- 7 января.- С. 2.

Азербайджан: Вызовы глобализации //Бакинский рабочий.- 2004.- 23 декабря.-С. 2.

Алиев И. Он знал село и любил сельчан //Бакинский рабочий.- 2004.- 12 августа.- С. 2.

Алиев А. Летопись яркой судьбы //Бакинский рабочий.- 2005.- 7 мая.- С. 3.

Андриянов В., Мираламов Т. Звезда Алиева будет светить Азербайджану //Бакинский рабочий.- 2004.- 7 декабря.- С.2, 4.

Асадуллаев М. Он с нами говорил на равных //Бакинский рабочий.- 2004.- 7 мая.- С. 3.

Ахундова Э. Пишите правду //Бакинский рабочий.- 2004.- 8 мая.- С. 4.
Ахундова Э. Это огромный талант-понимать //Бакинский рабочий.- 2004.- 21 августа.- С. 3.
Ахундова Э. Гейдар Алиев: Личность и эпоха //Бакинский рабочий.- 2005.- 7 мая.- С. 4.
Будберг А. Виртуоз Гейдар Алиев – достойная примера уникальная личность //Бакин-

Гаджиев А. Легендарный Президент //Эхо-плюс.-2004.-11 декабря.- С.5.
ский рабочий.- 2004.- 13 января.- С. 2.
Axundova G. Gto oqromnıy talant-ponimatğ //Bakinskiy raboçiy.- 2004.- 21 avqusta.- S. 3.
Ахундова Э. Гейдар Алиев: Личность и эпоха //Бакинский рабочий.- 2005.- 7 мая.- С. 4.
Будберг А. Виртуоз Гейдар Алиев – достойная примера уникальная личность //Бакинский рабочий.- 2004.- 13 января.- С. 2.

***INTERNET***

www.shexsiyyetler.nakhchivan.az .

www.mns.gov.az/haydaraliev_az.

www.heydar-aliyev.org/

www.heydar-aliyev.org/

www.aliyevheritage.org/

www.heydar-aliyev-foundation.org/

www.qeribazeriler.com/

www.news.trendaz.com/

***NAILƏ ALIŞOVA,***

***ADILƏ ABDULLAYEVA***

## ELÇİN -65

*May*
**13.05.1943**

***Xalq yazıçısı***



Elçin – nasir, dramaturq, tənqidçi, ədəbiyyatşünas, ictimai xadim və dövlət xadimi. 1968-ci ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü, filologiya elmləri doktoru, professor, Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi.

O, 1943-cü il may ayının 13-də Bakı şəhərində, XX əsr Azərbaycan ədəbiyyatı klassiki İlyas Əfəndiyevin ailəsində anadan olmuşdur. Orta məktəbi bitirdikdən sonra ADU-nun Filologiya fakültəsində təhsil almış, Universitet Elmi Şurasının zəmanəti ilə Azərbaycan EA Nizami adına Dil və Ədəbiyyat İnstitutunda ədəbiyyat nəzəriyyəsi üzrə aspiranturaya daxil olmuş, "Azərbaycan bədii nəsri ədəbi tənqiddə" mövzusunda namizədlik, daha sonra "Ədəbiyyatda tarix və müasirlik problemi" mövzusunda doktorluq dissertasiyalarını müdafiə etmişdir.

"O inanırdı" adlı ilk hekayəsini 1959-cu ildə 16 yaşında ikən "Azərbaycan gəncləri" qəzetində çap etdirmişdir. Həmin dövrdən etibarən böyük ədibin hekayələrindən, povest, roman və pyeslərindən ibarət müxtəlif dillərdə 100-dən çox kitabı, elmi monoqrafiyaları nəşr edilmişdir. Elçinin məşhur "Mahmud və Məryəm", "Ağ dəvə" və "Ölüm hökmü" romanları Azərbaycan nəsrinin qızıl fonduna daxil edilmişdir.

Onun əsərləri bir çox ədəbi mükafatlar, o cümlədən SSRİ Yazıçılar İttifaqının, "Drujba narodov" və "Smena" (iki dəfə) jurnallarının, "Literaturnaya qazeta"nın (iki dəfə), "Nedelya" həftəliyinin və digər mətbuat orqanlarının "İlin ən yaxşı əsəri" mükafatlarını, Moskvada nəşr olunmuş "Əncir ağacı" adlı povest və hekayələr kitabı keçmiş SSRİ-nin ən nüfuzlu mükafatlarından birini – Lenin komsomolu mükafatını, "Memar Sinan" Universitetinin (İstanbul), Fateh Universitetinin (İstanbul) mükafatlarını və başqa mükafatlar almışdır.

Elçinin "Poçt şöbəsində xəyal", "Ah Paris!..Paris!..", "Mən sənin dayınam", "Dəlixanadan dəli qaçıb, yaxud mənim sevimli dəlim", "Mənim ərim dəlidir",

"Qatil", "Şekspir" və s. kimi pyesləri yalnız Azərbaycanın deyil, xarici ölkələrin, o cümlədən Türkiyənin ən böyük teatrlarında uğurla səhnəyə qoyulmuşdur. Bu pyeslər Azərbaycan teatr sənətinin müasir inkişafında mühüm rol oynamış və sənətşünaslıqda "Elçin teatrı" estetik anlayışı yaratmışdır.

Ssenariləri əsasında səkkiz bədii film: "Baladadaşın ilk məhəbbəti" (rej. F.Əliyev), "Arxadan vurulan bıçaq" (rej. A.Babayev), "Mən hələ qayıdacağam" (rej. K.Rüstəmbəyov), "Gümüşü furqon" (rej. O.Mirqasımov), "Bağ mövsümü" (rej. T.Tağızadə) "Sahilsiz gecə" (rej. S.Ələkbərov), "Milli bomba" (rej. V.Mustafayev), "Hökmdarın taleyi" (rej. R.Fətəliyev, F.Manfov), eləcə də bir çox sənədli və cizgi filmləri çəkilmişdir.

Elçin 1969-1972-ci illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat Institutunun Nəzəriyyə şöbəsində kiçik elmi işçi, 1972-1975-ci illərdə böyük elmi işçi, 1975-1987-ci illərdə Azərbaycan Yazıçılar İttifaqı Idarə Heyətinin katibi, 1987-ci ildən Xaricdə Yaşayan Həmvətənlərlə Azərbaycan Mədəni Əlaqələr Cəmiyyəti – "Vətən" Cəmiyyətinin sədri olmuşdur. 11-ci çağırış Azərbaycan Ali Sovetinin deputatı seçilmiş, Xarici İşlər Komissiyasının üzvü olmuşdur. 1993-cü ildən etibarən Azərbaycan Respublikası Baş nazirinin müavini vəzifəsində çalışır.

Bir çox nüfuzlu Beynəlxalq qurumların, redaksiya heyətinin, bədii şuraların üzvüdür. ABŞ, Fransa, Almaniya, Hollandiya, Belçika, Lüksemburq, İsveç, Danimarka, Çexiya, İngiltərə, Slovakiya, İraq, İspaniya, İrlandiya, Yunanıstan, Polşa, Monako, Avstriya, Yuqoslaviya, Macarıstan, Rumıniya, Türkiyə, İsveçrə, Tunis, Bolqarıstan, Çin, Qana, Pakistan, İran, Birləşmiş Ərəb Əmirlikləri və sair ölkələrdə rəsmi səfərlərdə olmuşdur. 1994-cü ildə Məkkədə Müqəddəs Kəbəni və Mədinədə Həzrət Peyğəmbərin qəbrini ziyarət etmişdir.

Bədii əsərləri keçmiş SSRİ xalqlarının dillərinə, eləcə də ingilis, ispan, türk, çin, ərəb, alman, fransız, fars, macar, çex, slovak, bolqar və digər dillərə tərcümə olunmuşdur.

Xarici ölkə yazıçılarının (Molyer, Pirandello, Morua, A. Kristi və s.) bir sıra əsərlərini Azərbaycan dilinə çevirmişdir.

"İstiqlal ordeni" ilə, eləcə də bir sıra digər orden və medallarla təltif edilmişdir.

## *ƏSƏRLƏRI*

Seçilmiş əsərləri. 10 C-də.- B.: Çinar-Çap, 2005.

Seçilmiş əsərləri. 2 C-də.- B.: Azərnəşr, 1987.- C.1.- 452 s.

Seçilmiş əsərləri. 2 C-də.- B.: Azərnəşr, 1987.- 2 C.- 443 s.
Seçilmiş əsərləri.- B.: Avrasiya-Press, 2005.- 421 s.
Seçilmiş əsərləri.- B.: Çaşıoğlu, 2005.- 599 s.
Açıq pəncərə.- B.: Azərnəşr, 1969. - 155 s.
Ağ dəvə.- B.: Yazıçı, 1985.- 355 s.
Ağ dəvə.- B.:Çinar çap, 2003.- 238 s.
Azərbaycan ədəbi tənqidinin və ədəbi prosesin problemləri.- B.: Çinar-Çap, 2003.- 301 s.
Baladadaşın ilk məhəbbəti.-B.: Qarp -Poliqrafiya, 2000.- 478 s.
Bayraqdar.- B.: Qarp-Poliqrafiya, 2004.- 169 s.
Beş dəqiqə və ədəbiyyat.-B.: Gənclik, 1984.- 372 s.
Bəstəkarın vətandaş sözü.- B.: Azərnəşr, 1995.- 87 s.
Bir görüşün tarixçəsi.-B.:Azərnəşr, 1987.- 339 s.
Bu dünyada qatarlar gedir.- B.: Azərnəşr, 1974.- 234 s.
Bülbül.- B.: Yazıçı, 1987.- 40 s.
Bülbülün nağılı.- B.: Yazıçı, 1983.- 420 s.
Dəlixanadan dəli qaçıb.- B.: Gənclik, 1996.- 194 s.
Ədəbi düşüncələr.- B.:Qarp-Poliqrafiya, 2002.- 293 s.
Ədəbiyyatımızın yaradıcılıq problemləri.- B.: Təhsil, 1999.- 563 s.
Fikrin karvanı.- B.: Yazıçı, 1984.- 348 s.
Gümüşü, narıncı, məxməri.- B.: Gənclik, 1973.- 154 s.
Günay, Yalçın, Nigar, bir də Səlim.- B.: Gənclik, 1978.- 31 s.
Humayın yuxusu.- B.: Gənclik, 1989.- 52 s.
"Kitabi -Dədə Qorqud" aliliyi.- B.: Azərbaycan, 1999.- 142 s.
Klassik aşıq poeziyasında "dünya" obrazı.- B.: Azərnəşr, 1996.- 48 s.
Klassiklər və müasirlər.- B.: Yazıçı, 1987.- 406 s.
Kukla, yoxsa Aysu.- B.: Azərbaycan, 1998.- 48 s.
Mahmud və Məryəm.- B.: Çinar-Çap, 2003.- 205 s.
Məhəmməd Əmin Rəsulzadə.- B.: Qərb-Şərq, 1994.- 21 s.
Min gecədən biri.- B.: Azərnəşr, 1966.- 100 s.
Ölüm hökmü.- B.: Yazıçı, 1989.- 365 s.
Ömrün son səhəri.- B.: Gənclik, 1993.- 476 s.
Özümüz və sözümüz.-B.: Azərnəşr, 1993.- 111 s.
Povestlər.- B.: Gənclik, 1979.- 200 s.
SOS.- B.: Gənclik, 1969.- 95 s.
Şəxsiyyət və istedad: C.Cabbarlının həyat və yaradıcılığı haqqında düşüncələr.-B.:Azərbaycan, 2002.- 46 s.
Tənqid və ədəbiyyatımızın problemləri.- B.: Yazıçı, 1981.- 380 s.
Tənqid və nəsr.- B.: Günəş, 1999.- 214 s.
Ürəklərə yol tapanda.-B.: Təhsil, 2003.- 247 s.

## *HAQQINDA*

Bayramov N. Elçin nəsrinin poetikası.- B.: Azərbaycan, 2003.- 160 s.
Ələsgərov B. Elçin (Biblioqrafiya).- B.: İsmayıl, 1997.- 194 s.
Ələsgərov B. Elçin-60.- B.: ADMK, 2003.- 61 s.
Əlizadə E. Elçinin yaradıcılıq təkamülü.- B., 2004.-176 s.
Hüseynov B. Elçin-zaman səddini aşmış insan.- B.: Təhsil, 2004.- 371 s.
Paşayeva N. İnsan bədii tədqiq obyekti kimi.- B.: Yeni nəşrlər evi, 2003.- 255 s.
Paşayeva N. Yeniləşən ədəbiyyatın yeni insanı.- B., 2004.- 216 c.
Sona X. Elçin: Yaradıcılığı üzərində düşüncələr.- B.: Azərnəşr, 2006.- 159 s.
Ürəklərə yol tapanda.- B.: ATI Nəşriyyatı, 2003.- 223 s.

* * *

Abbasov T. "Ulduz, məhəbbət və şampan" //Mədəniyyət.- 2006. -1 aprel.-S.5.
Böyük uğur qazanmış tamaşa //Azərbaycan.- 2006.-29 mart.- S. 8.
Etibar poeziya //Yeni Azərbaycan.- 2002.- 6 sentyabr.-S.-10
Ədəbiyyatımızın baysman xəstəliyi //525. -2006.- 4 mart .-S.6.
Fəxr etməyə layiq alim: Əkrəm Cəfər //Ədəbiyyat.- 2005.- 17.- noyabr. -S. 1.
Hökmdarın taleyi //Azəraycan.- 2005.- N.5.- S. 17-68.
Qabil //Azərbaycan.-N.5.- 2003 .- S.5.-39
Qasımov C. İblisin qatili //Xalq qəzeti.- 2005.- 8 may. -S. 17.
Qələmi ilə bələkdən intiqam alan alim //525.- 2006.- 27 mart.-S.
Neçə illərdir ki, Rəsulzadə vətənə qayıtmır //Şərq.- 2003.- 31 yanvar. -S.8.
Ötən günlərin xiffəti //Ədəbiyyat.- 2006.- 6 oktyabr. -S.-3.
Sadəlik və müdriklik: Mir Cəlal //Ədəbiyyat. -2005.-25 noyabr.- S. 1.
Salmanov R. Poçt şöbəsində xəyal //Xalq qəzeti.- 2005.- 14 dekabr.- S. 7.

## *RUS DILINDƏ ƏSƏRLƏRI*

Автокатастрофа в Париже.- М.: Молодая гвардия, 1987.- 460 с.

Белый верблюд.- М.: Советский писатель, 1990.- 411 с.

Бюльбюль.- Б.: Язычы, 1987.- 39 с.

Джафар Джабарлы: Размышления о жизни и творчестве.- Б.: Азернешр, 2000.- 32 с.

Караван высоких дум.- Б.: Язычы, 1989.- 388 с.

Личность и талант.- Б.: Кооперация, 2002.- 48 с.

Махмуд и Марям.- Б.: Гянджлик, 1985.- 362 с.

Пашаева Н. Человек-образ-литература: (На основе творчества народного писателя Эльчина).- Б., 2003.- 182 с.

Первая любовь Балададаша.- М.: Молодая гвардия, 1975.- 106 с.

Поле притяжения.- М.: Советский писатель, 1987.- 285 с.

Рассказы.- Б.: Книга, 1996.- 94 с.

Серебристый фургон.- М.: Советский писатель, 1978.- 344 с.

Смертный приговор.- М.: Авалон, 2003.- 567 с.

Смертный приговор.- М.: Советский писатель, 1994.- 272 с.

Смоковница.- М.: Известия, 1981.- 430 с.

Стеклянная роза.- М.: Детская литература, 1986.- 32 с.

***Bəybala Ələsgərov***

**MEHDI MƏMMƏDOV –90**

May

**22.05.1918** – **28.01.1985**

*Xalq artisti*



Mehdi Əsədulla oğlu Məmmədov 1918-ci il may ayının 22-də Şuşada doğulsa da, məktəb təhsilini Bakıda almışdır. Yeddinci sinifdən Bakı Türk Işçi Teatrının tamaşalarında küt-ləvi səhnələrə çıxan Mehdi Məmmədov 1935-ci ildə Bakı Teatr Məktəbini bitirib. Həmin il Moskvada Ali rejissor təhsili al-mışdır.

1940-cı ildə Gəncə Dövlət Dram Teatrında Məmmədhüseyn Təh-masibin «Bahar» dramını diplom işi kimi tamaşaya hazırlayıb. Təyinatla Gəncəyə göndərilən gənc rejissor 1945-ci ilin yay mövsümünün sonunadək burada işləyərək sentyabrda Bakıya gəlmişdir. Burada müxtəlif sənət ocaqlarında, əsasən, monumental səpkili tamaşalar hazırlamışdır.

Mehdi Məmmədov Gən-cə Dövlət Dram Teatrında işlə-yəndə burada «Madrid», «Od gə-lini», «Oqtay Eloğlu», «Vaqif», «Nizami», «Toy» və s. əsərləri tamaşaya qoymuşdur. Ayrı-ayrı illərdə Gəncə Dövlət Dram Teat-rında (1942-1945), Opera və Balet Teatrında (1956-1960), Milli Dram Teatrında (1960-1963), Azərbaycan Dövlət Rus Dram Teatrında (1978-1982) baş rejissor kürsüsünü tutmuşdur. Quruluşçu rejissor kimi ən çox Milli Dram Teatrında quruluşlar vermişdir. Yüksək səviyyəli sə-nətçi 1945-ci ildən ömrünün sonuna qədər Azərbaycan Dövlət Teatr Institutunda aktyor və re-jissor sənətindən dərs deyib və kafedra müdiri olub. 1968-ci ildə «Azəri dramaturgiyasının estetik problbemləri» mövzusunda dok-torluq dissertasiyası müdafiə et-mişdir. 1960-cı ildən professor vəzifəsini tutan, sənətşünaslıq doktoru Mehdi Məmmədov «Azəri dramaturgiyasının estetik problemləri», «Teatr düşüncə-ləri», «Teatrlar. Aktyorlar. Tama-şalar», «Hüseyn Ərəblinski»,

«Onun sənət ulduzu», «Moskva Akademik Bədaye Teatrı», «Aleksandr Tuqanov» (rus dilində), «Rejissor sənəti», «Sabit Rəhman» və digər kitabların müəllifidir.

Sənətdə qazandığı uğurlara görə Mehdi Məmmədov respublikanın Əməkdar incə-sənət xadimi (21 iyul, 1949), Xalq artisti (26 aprel, 1958) və SSRI Xalq artisti (7 avqust, 1974) fəxri adlarına layiq görülmüşdür.

Akademik Teatrda hazırladığı Hüseyn Cavidin «Iblis» faciəsinə görə 1984-cü ildə Azərbaycan Dövlət mükafatı ilə təltif olunmuşdur.

Mehdi Məmmədovun Milli Dram Teatrında ilk işi 1964-cü ildə Şekspirin «On ikinci gecə» komediyasının tamaşası olmuşdur. Müəyyən fasilələrlə bu sənət ocağında C.Cabbarlının «Yaşar» (1947), A.Fadeyevin «Gənc qvardiya» (1948), S.Rəhmanın «Aydınlıq» (1949), Ə.Haqverdiyevin «Dağılan tifaq» (1950), M.Təhmasibin «Çiçəklənən arzular» (1951), N.Qoqolun «Müfəttiş», K.Haldoninin «Mehmanxana sahibəsi» (1952), Y.Yanovskinin «Prokurorun qızı» (1954), N.Vəzirovun «Yağışdan çıxdıq, yağmura düşdük» (1955), I.Qasımovla H.Seyidbəylinin «Uzaq sahillərdə» (1956), «Əliqulu evlənir» (1961), V.Rozovun «Sadlıq sorağında» (1961), M.Hüseynin «Alov» (1961), M.Ibrahimovun «Kəndçi qızı» (1962), L.Tolstoyun «Canlı meyit» (1968) və s. əsərlərinə müxtəlif janrlarda səhnə həyatı verib .

Görkəmli rejissor Opera və Balet Teatrında bir neçə operaya, Rus Dram Teatrında M. Qorkinin «Həyatın dibində» və M.Şatrovun «Mənim Nadejdalarım» dramlarının quruluşçu rejissoru olub.

M.Məmmədov səhnə həyatına aktyorluqla başlayıb. 1959–cu ildə «Azərbaycanfilm»in istehsal etdiyi «Onu bağışlamaq olarmı?» filmində Qaya roluna çəkilib. Radio teatrında Şekspirin «Hamlet» faciəsində baş rolu səsləndirib.

M.Məmmədov 1971-1976-cı illərdə Azərbaycan Teatr Cəmiyyətinin sədri seçilmişdir.

Görkəmli rejissorun yazdığı və dərslik kimi keçilən «Rejissor sənəti», «Həyat və sənət yollarında», «Malı teatr» kitabları elmi dəyərlərini bu gün də saxlamaqdadır.

Teatr sənətinin görkəmli xadimi, SSRI Xalq artisti, Azərbaycan SSR Dövlət mükafatı laureatı, sənətşünaslıq doktoru, M.A.Əliyev adına Azərbaycan Dövlət Incəsənət Institutu Rejissorluq kafedrasının müdiri, professor Mehdi Əsədulla oğlu Məmmədov 1985-ci il yanvarın 28-də 67 yaşında qəflətən vəfat etmişdir.

## *ƏDƏBIYYAT*

Mehdi Məmmədovun 80 illik yubileyi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı //Azərbaycan.-1988.-17 iyun.- S.1.

* * *

Acı fəryadlar, şirin arzular.- B.:Gənclik, 1983.- 192 s.
Estetika haqqında söhbətlər.- B.: Gənclik,1975.-126 s.
Incəsənət və din.-B.: Gənclik, 1971.-141s.
Rejissor sənəti. –B.: Maarif, 1971.-168 s.
Teatr düşüncələri.- B.: Işıq, 1977.- 231 s.

## *HAQQINDA*

Abdullayev K. Mehdi Məmmədovun sənət xatirəsi //Qobustan.- 1988.- №3.-S.27-34.
Xəlilzadə F. Sənət yanğılı, vətəndaş mövqeli rejissor: (Xalq artisti, görkəmli teatr rejissoru Mehdi Məmmədov haqqında) //Azərbaycan.- 2005.-14 oktyabr.-S.7
Israfilov I. Mehdi Məmmədovun rejissor sənəti //Azərbaycan.-№5.- 2003.- S.207.
Mehdi Əsədulla oğlu Məmmədov: (SSRI Xalq artisti. Nekroloq) //Ədəbiyyat və incəsənət.- 1985.-1 fevral.-S.2
Rəhimli I. Mehdi Məmmədov //Rəhimli I. Azərbaycan teatr tarixi.- B.: Çaşıoğlu, 2005.- S. 311-315.

## *RUS DILINDƏ*

Джафаров Д. Искусство режиссера /О творческом пути Мехти Маммедова.– Б.: Азернешр, 1969.- С.138.
Азеряр Р. Вся жизнь на авансцене (О Народном артисте СССР Мехти Маммедове) //Бакинский рабочий.- 1995.-10 июня.- С.2.

***SARA QƏDIMOVA***

May
23.05.1923



M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası Azərbaycanda Kitabxana işi sahəsində dövlət siyasətini həyata keçirən, milli nəşrləri, xarici ölkələrdə Azərbaycan haqqında nəşr olun muş çap məhsullarını və Azərbaycan müəlliflərinin əsərlərini, dünya əhəmiyyətli nəşrləri, o cümlədən xarici dillərdə çap olunmuş məlumat daşıyıcılarını toplayıb mühafizə edən milli xəzinə və dövlət kitabsaxlayıcısıdır.

Ulu öndər H.Əliyev respublikamıza başçılıq etdiyi dövrdə, vaxtının məhdud olduğu bir şəraitdə, 1995-1997-ci illərdə dörd dəfə Dövlət Kitabxanasına gəlmiş, onun işi, əməkdaşları ilə tanış olmuş və kitabxananın fonduna 300-dən artıq kitab bağışlamışdı. Bu kitablar qiymətli kolleksiya kimi kitabxanada mühafizə olunur.

2005-ci il 80 ildən artıq xalqın xidmətində olan kitabxana üçün çox əlamətdar olmuşdur. Belə ki, Nazirlər Kabinetinin qərarı ilə ona verilmiş «Milli Kitabxana» statusu kitabxananın fəaliyyətinə verilən ən yüksək qiymətdir.

Respublikamızın ən böyük kitabsaxlayıcısı olan M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası ölkəmizin kitabxana sistemində görkəmli yer tutur və aparıcı rol oynayır. Bu kitabxananın 85 illik fəaliyyəti Azərbaycan mədəniyyət tarixinin parlaq səhifələrindən biridir.

Kitabxananın əsası 1923-cü ildə qoyulmuşdur. Kitabxana açılarkən Imperator Texniki Cəmiyyəti Bakı şöbəsinin və Bakı Ictimai Cəmiyyətinin 5 min nüsxə kitab fondu ona verilmişdir. Yeni yaranan kitabxana əsas diqqəti fondunun təşkilinə və komplektləşdirilməsinə vermiş və o qısa zamanda Zaqafqaziyada ən böyük kitabxanalardan birinə çevrilmişdir. 1923-cü ildə onun kitab fondu 120 646 nüsxəyə çatmışdır. Artıq 1928-ci ildə kitabxananın fondunda Azərbaycan, rus və onlarla xarici dillərdə 300 mindən

artıq kitablar top-lanmışdı və kitabxana xaricdən 50 adda dövri mətbuat alırdı.

1939-cu ildə kitabxanaya görkəmli mütəfəkkir, filosof və dramaturq M.F.Axundovun adı verilmiş və M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası adı ilə fəaliyyət göstərməyə başlamışdır.

Hazırda Milli Kitabxanada 25 şöbə, 50 bölmə fəaliyyət göstərir. Kitabxananın fondunda 5 milyon 500 min nüsxədən artıq ədəbiyyat saxlanılır. Dövri mətbuat bölməsinə bu günə kimi 674 adda 889 nüsxə dövri nəşrlər daxil olmuşdur. Bunlardan 101 adda Azərbaycan dilində, 51 adda rus dilində jurnal, 73 adda Azərbaycan dilində, 97 adda rus dilində elmi əsərlər, 313 adda Azərbaycan dilində, 47 adda rus dilində qəzet alınmışdır. «Kitabxana işi haqqında» və «Nəşriyyat işi haqqında» Azərbaycan Respublikası Qanunlarına əsasən Milli Kitabxana ölkə ərazisində nəşr olunan çap məhsullarından pulsuz məcburi nüsxələr alır və onların əsasında Milli mətbuatın arxiv fondunu yaradır. Burada elmin bütün sahələri üzrə ölkəmizdə və xaricdə nəşr edilən ədəbiyyat toplanır.

Çap Məhsullarının qeydiyyatı və milli biblioqrafiya şöbəsi (Kitab palatası) tərəfindən 2005-ci ildə nəşri bərpa olunan «Birillik Azərbaycan Kitabiyyatı»nın respublikamızda nəşr olunmuş kitabları əhatə edən 1990, 1991, 2000-ci illəri, 2007-ci ildə isə 2006-cı ili əhatə edən «Yeni kitablar» adlı annotasiyalı biblioqrafik göstəricilər (II buraxılışda) nəşr olunmuşdur. Bundan əlavə 2007-ci ildə «Birillik Azərbaycan Kitabiyyatı»nın 2001, 2003, 2004-cü illərin buraxılışları və «Yeni kitablar»ın 2007-ci ilin yarım ilini əhatə edən I buraxılışı nəşrə hazırlanır.

Milli Kitabxananın Azərbaycan ədəbiyyatının arxivi şöbəsinin fondunda 85000 nüsxədən artıq Azərbaycan dilində nəşr edilən bütün çap məhsullarından bir nüsxə kitab və dünya kitabxanalarında olan Azərbaycan kitablarının mikrofilmləri və surətləri qorunur.

Nadir kitablar fondu bölməsində 16 dildə 700-ə yaxın əsər qorunub saxlanılır. Burada «Qafqaz Arxeologiya Komissiyasının topladığı aktlar», «1897-ci il üçün Bakı məlumat təqvimi», «1920-ci il üçün Azərbaycan Respublikasının ünvan təqvimi» kimi qədim təqvimimizin müxtəlif dövrlərini əks etdirən nadir nəşrlər mühafizə olunur. Bu bölmədə qiymətli miniatür kitablar kolleksiyası saxlanılır.

Arxiv və nadir kitablar fondunda olan, oxucular tərəfindən daha çox istifadə olunan 46 nüsxə kitab və 11 qəzet komplekti cari ildə mikrofilm-ləşdirilərək oxucuların istifadə-sinə verilmişdir.

Milli Kitabxananın oxucu tərkibinin müxtəlifliyi ilə əla-

qədar olaraq 13 oxu zalı vardır. Ali məktəb tələbələrinə, gənc-lərə və digər oxuculara xidmət edən 280 oxucu yeri olan ümumi oxu zalı, sahəvi elmi zallar, humanitar, texniki və dəqiq elmlər zalı, yeni ədəbiyyat, sərgi, dövri mətbuat, mikrofilmlər, not-musiqi ədəbiyyatı və xarici ədəbiyyat zalları oxuculara xidmət edir.

Xarici ədəbiyyat və Beynəlxalq kitab mübadiləsi şöbəsinin fondunda 40-a yaxın dildə 304 000 nüsxə ədəbiyyat toplanmışdır. 2006-cı ildə Xarici ədəbiyyat və Beynəlxalq kitab mübadiləsi şöbəsinə 1296 nüsxə ədəbiyyat daxil olmuşdur ki, bunlardan Beynəlxalq Mübadilə xətti ilə 270 nüsxəsi ABŞ-ın Konqress Kitabxanasından, Fransa Milli Kitabxanasından, Yaponiya Parlamentinin Milli Kitabxanasından və s. alınmışdır. Eyni zamanda Beynəlxalq kitab mübadiləsi xətti ilə xarici ölkələrin Milli kitabxanalarına onların sorğuları əsasında 900 nüsxə kitab göndərilmişdir.

Milli Kitabxana üçün 2006-cı il Beynəlxalq əlaqələr baxımından çox uğurlu olmuşdur. Milli Kitabxana həmin il Belarus, Qazaxıstan, Qırğızıstan, Rusiya və Türkiyənin Milli Kitabxana-ları, Çelyabinsk Vilayətinin Uni-versal Elmi Kitabxanası ilə əmək-daşlıq haqqında müqavilələr im-zalamış, müqavilələrə əsasən qar-şılıqlı əməkdaşlıq planları işləyib hazırlamış və onların icrasına başlamışdır.

Diyarşünaslıq və elmi biblioqrafiya şöbəsi oxucular üçün Azərbaycanla bağlı toplu, məlumat-biblioqrafiya aparatı yaratmış, məlumat-biblioqrafiya və informasiya xidməti təşkil etmişlər. 2006-cı ilin ikinci yarısından qəzetlərin analitik biblioqrafik yazılarının kitabxananın elektron kataloquna daxil edilməsi işinə başlanılmışdır.

Zəngin məlumat fonduna ensiklopediyalar, lüğətlər, salnamələr və müxtəlif məlumat kitabları daxil olan Sorğu informasiya xidməti şöbəsi isə oxuculara kataloq və kartoteka sistemi vasitəsilə biblioqrafik xidmət işini təşkil edir.

Nəşriyyat işləri şöbəsi yarandığı dövrdən bu günə kimi Respublikanın Mədəniyyət və Turizm Nazirliyinin sənədlərinin, Milli Kitabxananın şöbələrinin nəşr olunmaq üçün təqdim etdiyi bütün materialların redaktə və korrektə işi ilə, habelə elmi tədqiqatların yekunlarının, metodik tövsiyələrin, normativ vəsaitlərin çapa hazırlanması və nəşri ilə məşğuldur.

Milli Kitabxananın Kitabxana siyasəti və metodik rəhbərlik şöbəsi MKS-lərə, eləcə də digər kitabxanalara metodik köməklik göstərir, müxtəlif metodik materiallar, təlimatlar, təlimati-metodik tövsiyələr, kitabxana işinə dair normativ-hüquqi aktlar hazırlayır. Şöbə 2005-ci ildən kitabxanalara virtual rejimdə metodik xidmət göstərməyə baş-

lamışdır. Bu iş forması nəticəsində Milli Kitabxananın hazırladığı materiallar, vəsaitlər və tövsiyələr kitabxananın saytında yerləşdirilir, kitabxanalar istədikləri suala birbaşa şöbədən cavab ala bilirlər.

Milli Kitabxananın ən son nailiyyətlərindən biri də Not nəşrləri və səsyazmaları şöbəsinin fonoteka bölməsinin yenidən qurulmasıdır. Artıq kitabxanada qrammofon valları, audiokasset və CD disklərə köçürə bilən müxtəlif cihazlar oxucuların ixtiyarına verilmişdir.

Məlum olduğu kimi, müasir dövr informasiya kommunikasiya texnologiyalarının ictimai həyatımızın bütün sahələrinə tətbiqi ilə xarakterizə olunur və yeni informasiya texnologiyalarının kitabxanaların işinə tətbiqi də bu gün üçün çox aktual əhəmiyyətə malikdir.

Bütün bu proseslərdən kənarda qalmayan Milli Kitabxana 2000-ci ildə Avrasiya Fondunun köməkliyi ilə yaradılan Internet zalda oxucuların Beynəlxalq Internet Şəbəkəsinə qoşulması üçün şərait yaratmışdı. 2001-ci ildən ölkə kitabxanaçılarının fasiləsiz təliminin təşkili üçün Milli Kitabxanada USAID vəsaiti hesabına, Avrasiya Fondunun və ASIÜF (Soros Fondu)-nun maliyyə dəstəyi ilə Tədris Mərkəzi fəaliyyət göstərir.

2003-cü ildən Milli Kitabxana «Maşınla oxunan elektron kataloqun yaradılması» adlı layihəni həyata keçirir. Kitabxana bu məqsədlə Amerikanın VTLS Beynəlxalq Proqram Təminatı Təşkilatı ilə müqavilə bağlayaraq Avtomatlaşdırılmış Idarəetmə Sisteminin bütöv komplektini almışdır. Buraya elektron kitabxananın təşkili, oxucuların qeydiyyatı, kitab verilişi, kitab fondunun komplektləşdirilməsi, milli biblioqrafiyanın və respublikanın bütün iri kitabxanalarının toplu kataloqunun yaradılması, bir sözlə bütün kitabxana proseslərinin avtomatlaşdırılması modulları daxildir. Bütün bu işlərin informasiya kommunikasiya texnologiyalarının kitabxana işinə tətbiqi, kitab fondlarının təhlükəsizliyi, konservasiya və bərpası, ölkədə kitabxana siyasətinin həyata keçirilməsi, kitabxana işinə dair normativ-hüquqi aktların hazırlanması, milli ədəbiyyatın və mətbuatın arxiv fondunun yaradılması, milli biblioqrafiyanın tətbiqi, elektron kataloqun, elektron kitabxananın yaradılması və avtomatlaşdırılması ilə əlaqədar yeni şöbələr yaradılmışdır. 2006-cı ildə Kitabxana işinin avto-



matlaşdırılması və informasiya texnologiyaları, elektron-informasiya xidməti, elektron resursların yaradılması kimi yeni şöbələr təşkil olunmuşdur.

2005-ci ildə Milli Kitabxanada avtomatlaşdırma işinə kitabxananın ən vacib sahəsi olan elektron kataloqun tərtibindən başlanılmışdır. Kitabxananın elektron kataloqu dünyanın bir çox Milli Kitabxanaları tərəfindən geniş tətbiq olunan «VTLS-Virtua» proqramı əsasında qurulmuşdur. Elektron kataloqla yanaşı Milli Kitabxanada kitab fondlarının elektron versiyasının elektron kitabxananın da tərtibinə yəni kitabların mətnin kompyuter yaddaşına köçürülməsi işinə də başlanılmışdır. Elektron resursların yaradılması şöbəsi kitabxananın kataloq və kartotekaların elektron yaddaşına köçürməklə elektron məlumat bazasının yaradılması ilə məşğul olur və bu günə kimi 17120-dən çox milli ədəbiyyata dair təsvir məlumat bazasına daxil edilmişdir.

2006-cı ildə Milli Kitabxananın həyatında baş verən əlamətdar hadisələrdən biri də kitabxananın www.anl.az. ünvanlı Internet səhifəsinin və elektron kataloqunun təqdimat mərasiminin keçirilməsidir.

Artıq Milli Kitabxananın Elektron kataloqu vasitəsilə ABŞ-ın Konqress və Rusiyanın Dövlət Kitabxanası ilə biblioqrafik yazı mübadilələri aparılır. Oxucu Milli Kitabxananın saytı vasitəsilə birbaşa bu kitabxanaların elektron kataloqlarında axtarış apara bilir.

Milli Kitabxananın 2005-ci ildən başlayaraq Avropa Milli Kitabxanalar Konfransının Beynəlxalq Təşkilatına üzv olması xüsusi qeyd edilmişdir. Belə ki, Milli Kitabxananın Avropa Milli Kitabxanaları ailəsinə daxil olması beynəlxalq əməkdaşlıq üfüqlərinin genişlənməsinə, Ümumavropa və Ümumdünya layihələrində iştirakına real imkanlar yaradacaqdır.

2006-cı ildə Milli Kitabxanada açılan NATO Informasiya Mərkəzi ölkə vətəndaşlarına NATO və AVRO-ATLANTIKA təhlükəsizliyi mövzularında informasiya, tədqiqat yardımı göstərəcək, NATO sənədləri və nəşrlərinin əldə olunmasına kömək edəcəkdir. Milli Kitabxana bu məqsədlə Mərkəzi Beynəlxalq Internet Şəbəkəsinə qoşulmuş 10 ədəd müasir kompyuterlərlə, printerlərlə və digər avadanlıqlarla təmin olunmuşdur.

## *ƏDƏBIYYAT*

Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı. 20 aprel, 2007-ci il //Azərbaycan.-2007.-20 aprel.-S.1.

M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanasına Milli Kitabxana statusu verilməsi barədə: Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı //Qanunvericilik toplusu.-2004.-30 aprel.-S.1143.

* * *

Xələfov A. M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası /Xələfov A. Kitabxanaşünaslığa giriş: III hissə.-B.-2003.-S.44.

Xələfov A. M.F.Axundov adına Milli Kitabxana müstəqillik illərində /Xələfov A. Azərbaycanda kitabxana işi.-B., 2006.-S.96.

Xələfov A. və b. M.F.Axundov adına Respublika Dövlət Kitaxanası /Xələfov A., Kazımov R., Bədəlov E. Kitabxana işçisinin məlumat kitabı.-B., 1986.-S.104.

70 il xalqın xidmətində: M.F. Axundov adına Azərbaycan Respublikası Dövlət Kitabxanasının tarixinə dair materiallar məcmuəsi.-B.,1993.-156 s.

M.F.Axundov adına Azərbaycan Respublika Dövlət Kitabxanasının nəşrləri: 1923-1993/Biblioqrafik göstərici.-B.,1993.-114 s.

Təltif olunmuş kitabxana işçiləri haqqında məlumat kitabı.-B., 1986.-52 s.

* * *

Bayramzadə F. Milli Kitabxanada Avroatlantika Mərkəzi açılıb // Səs.- 2006.- 4 iyul.- S.4.

Qafurova L. Nur xəzinəmiz//Xalq qəzeti.-2003.-15 fevral.-S.5-6.

Mənəvi xəzinəmizin yerləşdiyi ünvan: M.F.Axundov adına Milli Kitabxana haqqında //Azərbaycan.- 2004.- 5 dekabr.-S.4.

Mükərrəmoğlu M. Yaponiya hökuməti M.F.Axundov adına Azərbaycan Dövlət Kitabxanası üçün Qrant ayırıb //Xalq qəzeti.-2004.-25 sentyabr.-S.6.

Tahirov K. Milli Kitabxana ikinci həyatını yaşayır //Olaylar.-2006.-25 iyul.-S.14.

Tahirov K. Axundov Kitabxanası elektronlaşır //Mərkəz.-2005.-12 avqust.-S.12.

Tahirov K. Internet və kitabxana //Respublika.-2003.-23 iyul.-S.6.

## *RUS DILINDƏ*

Распоряжение Президента Азер байджанской Республики об улучшении деятельности библиотек в Азербайджане //Бакинский рабочий.-21 апреля.- 2007.- С.1

* * *

Аббасова А. Тенденция развития и совершенствования деятельности Азербайджанской государственной Библиотеки им. М.Ф.Ахундова.- В.,1990.-26 с.

Азербайджанская Государственная Библиотека им. Ахундова.-Б.,1989.-10 с.

* * *

Алескероглу Ф. Национальная библиотека культурное и историческое богатство нашего народа //Эхо плюс.-6 августа.-2005.-С. 4.

Бабаева Х. Новинка: Об открытии в Библиотеке. им. М.Ф. Ахундова Интернет зала //Бакинский рабочий.-2000.-5 августа. - С. 3.

Ханджанбекова Ф. Библиотека и Интернет: в библиотеке им. М.Ф.Ахундова //Бакинский рабочий.-2001.-25.-января.-С.4.

Гейдарова С. Читать никогда не вредно (о Гос Биб. им. М.Ф. Ахундова) //Известия-2002.-7 июня.-С.10.

Открыт учебный Центр библиотекарей //Бакинский рабочий.- 2002.-9 мая.-С.4.

Тахиров К.М., Сафаралиева Г. Достояние наций-достояние мира, Азербайджанская Национальная Библиотека имени М.Ф.Ахундова //Ирс.-2006.-№4.-С. 22-24.

Тахиров К.М. Главная библиотека Азербайджанской Республики //Вестник библиотечных Ассамблей Евро-Азий.-2006.-№3.-С.38-41.

Эльчинли Э. Кямалгызы Д. В Библиотеке им. М.Ф.Ахундова будут микрофильмированы книги //Эхо.-2004.-24 сентября.-С.8.

***INTERNET***

www.anl.az
www.google.az

***NAILƏ ALIŞOVA***

**RƏŞID BƏY ƏFƏNDIYEV-145**

*Maarif xadimi*

***May***
**24.05.1863-**
**31.08.1942**



Görkəmli maarif xadimi, yazıçı, alim Əfəndiyev (Əfəndizadə) Rəşid bəy Ismayıl oğlu 1863-cü il may ayının 24-də Şəkidə ruhani ailəsində anadan olmuşdur. Nuxada (Şəkidə) cümə məscidindəki mollaxanada ibtidai (1870-1876), dörd sinifli şəhər məktəbində orta (1876-1879), Qori Müəllimlər Seminariyasında orta pedaqoji (1879-1882), Aleksandr Müəllimlər Institutunda isə (Tiflis) ali təhsil almışdır. O, Nuxa qəzasının Qutqaşen kəndindəki ikisinifli məktəbində (1882-1892), Xaçmaz kənd məktəbdə (1890-1892) müdir, Qafqaz Müsəlmanları Ruhani Idarəsində katib müavini (1892-1900), Qori Müəllimlər Seminariyasının «tatar şöbəsi»ndə Azərbaycan dili və şəriət müəllimi (1902-1916), Irəvan quberniyası xalq məktəblərinin müfəttişi (1916-1918) işləmişdir. Əfəndiyev 1918-ci ildə Bakıya gələrək, Azərbaycan Xalq Cümhuriyyətinin xalq maarifi sahəsində tədbirlərinin həyata keçirilməsinə yaxındanköməklik göstərmiş, Maarif nazirinin əmri ilə Bakı Kişi Seminariyasının direktoru təyin olunmuşdur. Maarif Nazirliyi yanında Əlifba Komissiyasının tərkibində latın qrafikasına keçmək üçün təqdim olunmuş layihələrin müzakirəsində fəal iştirak etmişdir. Sovet hakimiyyəti illərində Şəki Pedaqoji Texnikumunda müəllim işləmişdir.

Görkəmli maarif xadimi geniş yaradıcılıq diapazonuna malik yazıçı və alim idi. Əsasən, uşaq ədəbiyyatı, dramaturgiya və bədii tərcümə sahəsində çalışmışdır. Əfəndiyev pedaqoji fəaliyyətinin ilk günlərindən milli zəmində hazırlanmış dərsliyə, uşaqların sağlam məzmunlu... mündəricəli ədəbiyyata ehtiyacı ilə qarşılaşmış, orijinal əsərlərdən iqtibas və tərcümələrdən ibarət «Uşaq bağçası» (1898), «Bəsi-rətülətfal» (1901) kimi tarixi dərsliklərini nəşr etdirmişdir. Hər iki dərslik Qafqazda və türk xalqları yaşayan digər məktəblərin bölgələrində uzun illər tədris olunmuşdur. Böyük sənətkarın adı Mirzə Fətəli Axundzadənin dramaturgiya

ənənələrini inkişaf etdirən komediyanəvislər arasında şərəfli yer tutur. Məşhur pedaqoq A.O.Çernyayevskinin tövsiyəsi ilə «Qan ocağı» adlı ilk pyesini Qori Seminariyasında yazıb tamaşaya qoyan Əfəndiyev XX əsrin əvvəllərində «Qonşu qonşu olsa, kor qız ərə gedər», «Saq-qalın kəraməti», «Pul dəlisi», «Bir saç telinin qiyməti», «Tiflis şəfəqləri», «Qızılgül» əsərlərini nəşr etdirmişdir.

Rəşid bəyin ədəbi-bədii və pedaqoji əsərlərinin çoxu gənclərdə güclü vətənpərvərlik hissi tərbiyə edir. O, bu əsərlərində göstərir ki, vətən hamı üçün əziz olmalıdır. Vətənini sevməyən adam xoşbəxt ola bilməz. Vətən insana qüvvət və fərəh verir, vətəndən ayrı düşmək, yad ölkədə yaşamaq insanın mənəvi qüvvəsini məhv edir. Müəllifin «Doğma yurd» hekayəsi vətənpərvərlik tərbiyəsi üçün xüsusilə böyük əhəmiyyətə malikdir.

Əfəndiyevin «Arvad məsələsi» adlı kitabı qızların təhsilinə və qadının cəmiyyətdə yeri probleminə həsr olunmuşdur. O, iki hissədən ibarət «Müxtəsər şəriət» dərsliyinin də müəllifidir. Əfəndiyev etnoqrafiya («Nuxada evlənmək adətləri», «Qəbələ mahalı», «Qutqaşen kəndi haqqında bir neçə məlumat»), ədəbiyyatşünaslıq («Azərbaycan türklərinə məxsus ədəbiyyat», «Azərbaycan ədəbiyyatı nümunələri», «Lev Nikolayeviç Tolstoy», «Seyid Əzim Şirvani») və publisistika («Ibtidai savad təlimi haqqında müsəlmanın rəyi», «Bizə kitab nidası») sahəsində də geniş fəaliyyət göstərmişdir.

R.Əfəndiyev tərcüməçilik fəaliyyətinə çox gənc yaşlarında, Zaqafqaziya Müəllimlər Seminariyasında oxuyarkən başlamışdır. Eyni zamanda rus pedaqoji ənənələri əsasında tərbiyə alan, rus ədəbiyyatı ilə yaxından tanış olan R.Əfəndiyev o dövrdə rus şairlərinin əsərlərini xüsusi bir səylə tərcümə etmişdir. I.A. Krılovun təmsillərinin mühüm bir qismini, A.S.Puşkinin, M.Y.Lermontovun şeir və poemalarını, F.Şillerin «Cam» mənzuməsini ilk dəfə dilimizə çevirmişdir.

R.Əfəndiyev L.N.Tolstoydan «At və eşşək», «Ana və oğul», «Maqnit», «Qaravaşlar və xoruz», «Bayquş və dovşan», «Baba və nəvəsi», K.D.Uşinskidən «Insan bədəninin əzaları», «Donuz və palıd ağacı», «Qurbağa və öküz» kimi bir sıra uşaq hekayələrini, habelə M. Lermontovun «Hava gəmisi» və «Dua» şeirlərini, Koltsovun «Tənbəl kəndli» və «Əkinçinin nəğməsi» əsərlərini Azərbaycan dilinə tərcümə etmişdir.

Rəşid bəyin tərcüməçilik fəaliyyəti Firdovsi, Sədi və Hafizi də əhatə etmişdir. O, Firdovsinin «Şahnamə» epopeyasından «Rüstəm və Söhrab» dastanını, Sədinin bir sıra rübailərini və Hafizin bəzi qəzəllərini ilk dəfə Az-

ərbaycan dilinə tərcümə edib xalqa çatdırmışdır.

Əfəndiyev Azərbaycan xalq əfsanə və rəvayətləri, adət və ənənələri barədə, həmçinin xalq sənətkarlığı və təbabətinə aid məlumatlar toplayıb, «Sbor-nik materialov diəopisaniə mestnostey i plemen Kavkaza» məcmuəsində çap etdirmişdir. Əfəndiyev 1924-cü ildə Azər-baycanın I Ölkəşünaslıq Qurul-tayının nümayəndəsi və Etnoq-rafiya Cəmiyyəti Şəki şöbəsinin elmi katibi seçilmişdi. Rəşid bəy Əfəndiyev Azərbaycan xalqının milli oyanışında mühüm rol oynamışdır.

## ƏSƏRLƏRI

Seçilmiş əsərləri.-B.,1979.-136 s.
Dram əsərləri.-B.,1961.-168 s.

## HAQQINDA


Abdullayev Ə. Görkəmli maa-rifçi-demokrat yazıçı Rəşid bəy Əfəndiyev.-B.,1960.-76 s.

Abdullayev Ə. Maarif pərvanəsi.-B.:Maarif,1982.-95 s.

Azərbaycan uşaq ədəbiyyatı müntəxəbatı (XIX-XX əsrlər) /Tərt.ed. X.Məmmədov, A.Həsə-nov.-B., 2002.-324s.

Əfəndiyev (Əfəndizadə) Rəşid-bəy Ismayıl oğlu /Azərbaycan Xalq Cümhuriyyəti Ensiklopedi-yası.-2 C-də.-B.: Lider nəşriyya-tı, 2005.-II C.-S.323-324.

Əhmədov C. Azərbaycan ədə-biyyatının tədrisi tarixindən.-B., 1971.-231s.

Qurbanov Ş. Ömrün fikir kar-vanı.-B.,1991.-232 s.

Mürşüdova U. Rəşidbəy Əfən-diyev və folklor.-B.: Koope-rasiya, 2004.-104 s.


## RUS DILINDƏ

Художественное ремесло Азербайджана в музеях мира.-Б.: Ишыг,1980.-166 с.

## HAQQINDA


Абдуллаев А.С. Жизнь, творчество Рашидбека Эфендиева.-Б., 1963.-112 с.

## 28 MAY -
## RESPUBLIKA GÜNÜ

**May**
**28.05.1918**



*Azərbaycan Xalq Cümhuriyyəti az bir müddət yaşayıbdır. Ancaq o, XX əsrdə Azərbaycan xalqının həyatında tarixi bir mərhələ olub və xalqımızın gələcəyinin müstəqilliyinin, azadlığının, suverenliyinin təməlini qoyubdur. Məhz buna görə də Azərbaycanın bütün vətəndaşları– Azərbaycan Xalq Cümhuriyyətinin yaranmasını, onun fəaliyyətini və Xalq Cümhuriyyətini yaradanları, böyük minnətdarlıq hissi ilə yad edirlər.*

***Ümummilli lider, Heydər Əliyev***

Müstəqil Azərbaycan Respublikasının əlamətdar tarixi günləri və bayramları sırasında bir əziz bayram da var: Respublika Günü.

1918-ci il may ayının 28-də Azərbaycan Milli Şurası Istiqlal Bəyannaməsi ilə Demokratik Respublikasını yaratmışdı. Məmməd Əmin Rəsulzadə Milli Şuranın sədri seçilmişdir. Mayın 28-də M.Ə.Rəsulzadənin sədrliyi ilə keçirilən Milli Şuranın ilk iclasında qəbul olunan 6 maddədən ibarət «Istiqlal Bəyannaməsi» bütün dünyaya müstəqil Azərbaycan dövlətinin yarandığını bəyan etdi.

Azərbaycan Demokratik Respublikasının yarandığı ilk aylardan bütün sahələrdə, o cümlədən təhsil və mədəniyyət sahəsində də dəyərli işlər görülməyə başlandı. Ancaq bütün bunlar xaricdəki və daxildəki əks qüvvələrin ürəyincə deyildi.

Bu səbəbə görə də Azərbaycan 1920-ci il aprelin 28-də öz müstəqilliyini itirdi. Qürur hissi ilə qeyd etməliyik ki, Azərbaycan Demokratik Respublikası cəmi 23 ay yaşayıb fəaliyyət göstərmə-sinə baxmayaraq, Azərbaycan tarixinə şanlı səhifələr yazdı.

Xalq Cümhuriyyətinin fəaliyyəti ərzində 5 dəfə hökumət təşkil edilmişdir. Hökumət kabinəsinin belə tez-tez dəyişməsi ilk növbədə o dövrdəki mürəkkəb daxili və xarici şəraitlə, ölkədəki

siyasi çəkişmələrlə, dövlət quruculuğundakı çətinliklərlə əlaqədar idi. Lakin bütün bunlara baxmayaraq, Azərbaycan Demokratik Respublikası dövlət atributlarını yaratmaq sahəsində mühüm addımlar atmış, Azərbaycan dilinə dövlət dili statusu vermiş, dövlət bayrağını, dövlət himnini qəbul etmişdir.

XX əsr 80-ci illərin sonu, 90-cı illərin əvvəlində Azərbaycanda başlamış milli-azadlıq hərəkatı bolşevik rejiminin süqutunu yaxınlaşdırdı. Xalqın təkidli tələbi ilə 1991-ci il fevralın 5-də Azərbaycan SSR Ali Sovetinin sessiyası dövlətin adını dəyişdirərək «Azərbaycan Respublikası» adlandırdı. Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, ay-ulduzlu bayrağı bu respublikanın da dövlət bayrağı kimi təsdiq olundu. 1991-ci il mayın 21-də verilmiş xüsusi Fərmanla 28 May Respublika Günü elan edildi.

Hər il Mayın 28-i Respublika Günü kimi bayram edilir.

Bayram günü münasibətilə kitabxanalarda müxtəlif kütləvi tədbirlər keçirmək, məruzə və mühazirələr təşkil etmək lazımdır.

Əliyev H. Müstəqil Azərbaycan dövləti yaşayır, bundan sonra da əbədi, uğurla yaşayacaqdır: Azərbaycan Xalq Cümhuriyyətinin 80 illik yubileyi münasibətilə Milli Məclisin təntənəli iclasında Azərbaycan Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan.- 1998.- 27 may.- S.1.

Əliyev H. Bugünkü müstəqil dövlət Azərbaycan Xalq Cümhuriyyətinin layiqli varisidir: Azərbaycan Xalq Cümhuriyyətinin keçirilməsi üzrə Dövlət Komissiyasının iclasında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi //Azərbaycan.- 1998.- 21 may.- S.1.

Əliyev I. 28 May – Respublika Günü münasibətilə Azərbaycan xalqına təbrik //Xalq qəzeti.- 2005.- 28 may.- S.1.

Əliyev I. Ümummilli liderimiz H.Əliyevin siyasi xəttini uğurla davam etdirən Azərbaycan regionda lider ölkədir: Azərbaycan Respublikasının Prezidenti I.Əliyevin nitqi //Azərbaycan.- 2006.- 27 may.- S.1.

* * *

Qocayev Ə. 28 May Respublika Günü /Qocayev Ə. Bayramlar və tarixi günlər.- B.: Altun Kitab, 2006.- S.26-30.

*   *   *

Hacıyev H. Şərqdə ən demokratik respublika //Respublika.- 2005.- 28 may.- S.6.

Hacızadə A. Moskvada Azərbaycanın Milli bayramı – Respublika Günü //Azərbaycan.- 2006.- 28 may.- S.9.

Yaqublu H. 28 may istiqlalının mənası //Yeni Müsavat.- 2001.- 27 may.- S.15.

## *RUS DILINDƏ*

Официальный прием от имени Президента Азербайджана Ильхама Алиева, по случаю 28 Мая –Дня Республики (Речь Президента Азербайджана Ильхама Алиева) //Бакинский рабочий.- 27 мая.- С.1.

*   *   *

Абдуллаев Р. Наша независимость вечна и необратима.- //Вышка.- 2006.- 26 мая.- С.1.

***ZENFIRA QULAMOVA***

## HÖKÜMƏ QURBANOVA – 95

*Xalq artisti*

***Iyun***
**11.06.1913-**
**02.12.1988**



Milli səhnəmizin misilsiz faciə aktrisası Hökümə Abbasəli qızı Qurbanova 1913-cü il iyun ayının 11-də Bakıda ziyalı ailəsində doğulmuşdur.

Hökümə xanım 1931-ci ildə Bakı Pedaqoji Texnikumunu bitirmişdir. Elə həmin il Azərbaycan Dövlət Konservatoriyasına daxil olmuş, iki il fortepiano sinifində təhsil almışdır. Konservatoriyada təhsil alarkən dramaturq və teatr xadimi C.Cabbarlının təkidi və təşəbbüsü ilə «Almaz» filmində Yaxşı roluna çəkilmişdir.

Milli Dram Teatrının tamaşalarında əvvəllər ara-sıra çıxış edən Hökümə Qurbanova 1938-ci ildən ömrünün sonunadək bu kollektivin əvəzolunmaz aktrisası kimi şöhrətlənmişdir. Hökümə xanımın xırda-para epizodik rollarını nəzərə almasaq, o, 1940-cı illərdən əsas rolların ifaçısına çevrilmişdir.

Teatr tariximizdə Hökümə Qurbanova kimi gözəl və məlahətli səs variasiyaları ilə oynaya bilən ikinci qadın sənətkar olmamışdır. Aktrisa lazım gələndə səhnədə dəqiqələrlə mərmər abidə kimi donub qala bilirdi. Onun mənalı, zərif və cazibəli plastikası vardı. Hökümə Qurbanovanın çöhrəsində Cakondanın sirli təbəssümü özünə əbədi məskən tapmışdı. Aktrisa o təbəssümün sehrindən və hüsnündən dramatik rollarda məharətlə istifadə edirdi. Janr-üslub və oyun-forma baxımından Hökümə Qurbanovanın yaradıcılığını bir sıra bölgülərə ayırmaq olar.

Hökümə xanımın Hüseyn Cavidin «Şeyx Sənan» dramında Xumar, Fridrix Şillerin «Orlian qızı» əsərində Janna Dark, C.Cabbarlının «Od gəlini» pyesində Solmaz kimi oynadığı mürəkkəb obrazların səhnə təvsiri faciə bölümünə aiddir. O, səhnə fəaliyyətinin ən gur çağlarında S.S. Axundovun «Eşq və intiqam»ında Zöhrə, Nəcəf bəy Vəzirovun «Müsibəti-Fəxrəddin» əsərində Gülbahar, Nazim Hikmətin «Məhəbbət əfsanəsi»ndə Məhmənə banu, Səməd Vurğunun «Vaqif» tamaşasında Tamara, Süleyman

Rüstəmin «Qaçaq Nəbi» tamaşasında Həcər, Bəxtiyar Vahabzadənin «Ikinci səs» tamaşasında Arzu, Mirzə Ibrahimovun «Kəndçi qızı»nda Bənövşə, Avksenti Saqarelinin «Xanuma» satirasında Xanuma, «Şərqli diş həkimi»ndə Marta rollarını təkrarsız məharətlə oyna-mışdır.

Hökümə xanım Azərbaycan kinosunun tarixində də silinməz izlər qoymuşdur. Aktrisa «Azərbaycanfilm»in istehsal etdiyi «Bir ailə» filmində Leyla, «Onu bağışlamaq olarmı?», «Mən rəqs edəcəyəm» kinolentlərində Laçın, Mahmudun anası, «Insan məskən salır»da Ana rollarına çəkilmişdir. Böyük sənətkar bu rolların hamısını xüsusi bir məharətlə oynamışdır. O, həm də ictimai xadim kimi tanınmışdır.

Hökümə Qurbanova Azərbaycan SSR Ali Sovetinin deputatı olmuşdur. O, 1943-cü ildə Azərbaycan SSR Əməkdar artisti, 1965-ci ildə isə SSRI Xalq artisti fəxri adlarına layiq görülmüşdür.

Unudulmaz sənətkar 1988-ci il noyabr ayının 2-də Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur.

### *MƏQALƏLƏRI*

Fəxrlə, qürur hissi ilə/ Incəsənət sahəsində calışan qadınlarımız haqqında //Azərbaycan qadını. – 1980.- № 4.- S.17.

Incəsənət xalqa məxsusdur //Azərbaycan qadını. – 1967.- № 8. – S. 5-6.

Mədəniyyətimizin baharı //Kommunist. – 1965. – 4 mart. – S.2

Rəsul Rza teatrda və kinoda: Rəsul Rza– 70// Qobustan. – 1980. - № 3.- S.58.

Sizə səadət! Sizə alqış! //Kommunist.- 1967. – 8 mart.-S.2.

Teatr düşüncələri //Qobustan. – 1974. - № 2. – S.28.

### *HAQQINDA*

Rəhimli I. Azərbaycan teatr tarixi. – B.:Çaşıoğlu, 2005.- S.354.

* * *

Abbasova Ş.Səhnəmizin Hökümə Qurbanova sehri // Kaspi. – 2003. – 24 iyun.- S.7.

Abdin T. Ikilikdə söhbət: (Hökümə Qurbanova haqqında //Qobustan. – 2003. - № 3. – S.19.

Bayramova S. Ecazkar səhnə ustadı: (Hökümə Qurbanova

haqqında) // Yeni Azərbaycan. – 2003. – 6 iyun. – S.8.
Xəlilzadə F. Sənət ulduzu: (Hökümə Qurbanova – 90) //Azərbaycan. – 2003. – 11 iyul. – S.8.
Sağlığında əfsanəyə çevrilən aktrisa: (Hökümə Qurbanova) //Xalq cəbhəsi. – 2003.–24 iyun. – S.16.
Sağlığında əfsanəyə çevrilən sənətkar…(Xalq artisti Hökümə Qurbanovanın 90 illik yubileyi haqqında) //Şərq.-2003.- 24 iyul.- S.3.
Talıbzadə A. Abdin Q. Qalateya və arfa: (Hökümə Qurbanova –90) //Qobustan .– 2003. - № 3. – S.15.

***SAMIRƏ EMINOVA***

## NIGAR RƏFIBƏYLI – 95

*Xalq şairi*

***İyun***
***23.06.1913-***
***07.10.1981***



Nigar Xudadat qızı Rəfibəyli Azərbaycanın görkəmli şairlərindəndir. Onun yaradıcılığında zərif məhəbbət lirikası, analıq, Vətən, təbiət mövzuları əsas yer tutur. Ana surətini Nigar Rəfibəyli poeziyasının baş qəhrəmanı hesab etmək olar. Analığın daxili məlahəti, Şərq özünəməxsusluğu, mərhəməti və fədakarlığı bu kövrəklikdə və narınlıqda öz bədii ifadəsini çox az şairlərdə tapmışdır.

Nigar xanım 1913-cü il iyun ayının 29-da Gəncədə anadan olmuşdur. Onun atası Xudadat bəy Rəfibəyov əsrimizin əvvəllərində Avropada oxumuş ziyalılarımızdan biri, ali təhsilli ilk azərbaycanlı cərrah idi. Nigar Rəfibəyli ibtidai təhsilini Gəncədə almış, sonra Bakı Pedaqoji Texnikumunu bitirmişdir. O, əmək fəaliyyətinə müəllimliklə başlamış, həm də bədii yaradıcılıqla məşğul olmuşdur. Bakı Kinostudiyasında Ssenari şöbəsində, eyni zamanda fəhlə-gənclər məktəbində işləmişdir.

Nigar xanımın 1928-ci ildə «Çadra» adlı ilk şeiri «Dan ulduzu» jurnalında dərc edilmişdir. Onun ilk «Şeirlər» kitabı isə 1934-cü ildə nəşr olunmuşdur. Gənc müəllif 20 yaşında olarkən keçmiş SSRI Yazıçılar Ittifaqına üzv qəbul edilmişdir.

Nigar Rəfibəyli 1936-cı ildə Moskva Pedaqoji Institutunu müvəffəqiyyətlə bitirmiş, sonrakı illərdə isə tərcüməçilik fəaliyyətinə başlamışdır.

N.Rəfibəylinin dilimizə çevirib nəşr etdirdiyi əsərlər Azərbaycan bədii tərcümə sənətinin çox qiymətli bir sahəsini təşkil edir. Onun tərcümələri arasında Nəvainin qəzəlləri, Puşkin, Lermontov, Anna Axmatova, Marina Svetayevanın və bir çox müəlliflərin əsərləri vardır. Nigar xanımın uğurlu tərcümələri arasında Evripidin «Ifigeniya», Şillerin «Məkr və məhəbbət», Çexovun «Albalı bağı» pyesləri,

Viktor Hüqonun «93-cü», E.L. Voyniçin «Ovod» romanları kimi dünya ədəbiyyatının klassik nümunələrinə rast gəlmək mümkündür.

Indiyə kimi yazıçının tərcümələri, böyüklər və uşaqlar üçün yazdığı əsərlərindən ibarət 35 kitabı nəşr olunub Nigarsevərlərə çatdırılmışdır.

N.Rəfibəylinin bir şair kimi sənətkarlıq xüsusiyyətlərinin parlaq təzahürü də ən çox onun lirikasında müşahidə olunur. «Dəniz», «Çiçəklər», «Ağ çiçək», «Qərənfil», «Nərgiz gülü», «Yasəmən» kimi şeirləri buna parlaq misaldır.

Şairin yaradıcılığında müharibə əleyhinə mübarizə mövzusu mühüm yer tutur. Böyük Vətən müharibəsi illərində Rəfibəyli keçmiş sovet döyüşçülərinin rəşadətini və xalqın qələbəyə inamını 1943-cü ildə «Zəfər nəğməsi» kitabındakı alovlu misralarda tərənnüm etmişdir. N.Rəfibəyli uşaqlar üçün də «Balaca qəhrəman» (1942), «Günəşin cavabı» (1966), «Məstanın balaları» (1968), «Bizə bahar yaraşır» (1978) kimi gözəl əsərlər yazmışdır.

N.Rəfibəylinin əsərləri keçmiş SSRI xalqları dillərinə və xarici dillərə tərcümə olunmuşdur.

N.Rəfibəyli «Şərəf nişanı» ordeni və bir sıra medallarla təltif edilmişdir.

1967-ci ildə ona Azərbaycanın Əməkdar mədəniyyət işçisi fəxri adı verilmişdir. 1981-ci ildə Azərbaycan Respublikasının Xalq şairi adına layiq görülmüşdür. Unudulmaz sənətkar 1981-ci ildə oktyabr ayının 7-də Bakıda vəfat etmişdir. Bakı küçələrindən birinə, Gəncə məktəblərindən birinə onun adı verilmişdir. Gəncədə Xan bağında abidəsi ucaldılmışdır.

Nigar Rəfibəylinin anadan olmasının 95-illiyi münasibətilə onun yaradıcılığının daha geniş təbliği üçün kitabxanalarda müxtəlif tədbirlər keçirmək olduqca zəruridir.

## *ƏSƏRLƏRI*


Seçilmiş əsərləri. -Bakı, «Şərq-Qərb»,-2004.-392 s.

Ana səsi.-B.:Azərnəşr,1969.-246 s.

Bir cüt xurma.- B.: Azərnəşr, 1965.-25 s.

Dənizin səsi gəlir.-B.:Azərnəşr,1964.-180 s.

Günəşin cavabı.-B.:Azərnəşr, 1966.-12 s.

Günəşdən gənclik istədim.-B.: Gənclik,1974.-119 s.

Bizə bahar yaraşır.-B.:Gənclik,1978.-22 s.

Bir həzin axşamda düşsəm yadına.-B.:Gənclik, 1982.-192 s.

*   *   *

Dünyadan nə gözəl bir xanım getdi…/ Hüseyn Cavidin həyat yoldaşı Müşginaz xanımın əziz xatirəsinə həsr olunmuş şeir //Yeni Azərbaycan.-2001.-23 noyabr .-S.9.

*   *   *

Türkiyədə Nigar Rəfibəylinin kitabı nəşr olunmuşdur //Ədəbiyyat qəzeti.-2006.-17 fevral.-S.1.

Heydərova A. Nigar Rəfibəylinin çiçəkləri /Şairin poeziyası haqqında //525-ci qəzet.-2006.-23 iyun.- S.7.

Ağabalayeva S. Yazılmayan şeirlərin şöhrəti: Nigar Rəfibəyli–90 //Azərbaycan.-2003-№7.-S. 168-173 .

## *TƏRCÜMƏLƏRI*

Arazi M.Seçilmiş hekayələri.-B.: Azərnəşr,1937.-137s.

Gəncəvi. M. Rubailər.-B.: Azərnəşr,1961.-72 s.

Gəncəvi. M. Rübailər.-B.: Azərnəşr,1975.-70 s.

Çexov A.P. Pyeslər.-B.: Gənclik,1980.-112 s.

## *RUS DILINDƏ*

Распоряжение Президента Азербайджанской Республики, об увековечении памяти Нигяр Рафибейли //Бакинский рабочий-1998 .- 4 августа.-С.3.

*   *   *

Радость встречи: Стихи.-Баку.: Язычы,1981.-193 с.

*   *   *

Одно слово: Женщина; Спит раненый солдат: Стихи //Бакинский рабочий.-1980.-3 января.-С.4.

***SAQIBƏ MEHRƏLIYEVA***

**CEYMS OLDRİC-90**

İyul
10.07.1918

*Yazıçı*



Görkəmli ingilis yazıçısı Ceyms Oldric 1918-ci ildə Avstraliyada anadan olmuşdur. 1939-1945-ci illərdə hərbi müxbir işləmiş, müxtəlif ölkələrdə, o cümlədən İranda Cənubi Azərbaycanda olmuşdur. Oldric 1942-ci ildə yazdığı "Şərəf işi", 1944-cü ildə yazdığı "Dəniz qartalı" roman-larında yunan xalqının faşizmə qarşı mübarizəsini təsvir etmişdir. Yaradıcılığında Azərbaycan mövzusu əhəmiyyətli yer tutur. Ceyms Oldric 1949-cu ildə yazdığı Yaxın Şərq, o cümlədən İran, Cənubi Azərbaycan və kürd xalqlarının milli azadlıq hərə-katından, imperializmin müstəm-ləkəçilik siyasətinə qarşı mübarizəsindən bəhs edən "Diplomat" əsərinin və onun davamı olan 1974-cü ildə yazdığı "Əli silahlılar" romanının, "Qafqaz haqqında nəğmə"(1942) bədii reportajının müəllifidir. "Diplomat" romanında Azər-baycan qəhrəmanlarının Cavad Qoçəli, Mirzə Cahansız və b. obrazlarını yaratmışdır. Müəllifin həmin romanı, bəzi hekayələri Azər-baycan dilinə tərcümə edilmişdir. Oldric dəfələrlə SSRİ-də, o cümlədən Azərbaycanda olmuşdur. O,1953-cü ildə Ümumdünya Sülh Şurasının Qızıl medalını almışdır. 1973-cü ildə isə "Xalqlar arasında sülhü möhkəmlətməyə görə" Beynəlxalq Lenin mükafatı laureatı adına layiq görülmüşdür.

## *ƏSƏRLƏRİ*

Diplomat: Roman / tərc.: Cəlal Nurov-Nuhbalayev.-B.: Gənclik, 1981.-772 s.

*HAQQINDA*

İsmayıl Şıxlı. XX əsr xarici ədəbiyyat tarixi.-B.:Maarif,1974.-256s.

**RUS DİLİNDƏ**

Избранные произведение: в.2 Т.х.-.М.: Художественная литература, 1986.-Т.1.-509 с.; Т.2.-493 с.

Каир:Биография города.- М.: Вече, 2006.-381 с.

* * *

Балашов П.Джеймс Олдридж: Биографические очерки.- М.:Гос.издат, 1963.-247 с.

*MƏDİNƏ VƏLİYEVA*

**YEVTUŞENKO YEVGENİY ALEKSANDROVİÇ -75**

**İyul**
**18.07.1933**

***Yazıçı***



Görkəmli rus şairi Yevgeniy Aleksandroviç Yevtuşenko 1933-cü il iyulun 18-də İrkutski vilayətinin Zima stansiyasında geoloq ailəsində anadan olmuşdur. Balaca Yevgeni Moskvada məktəbə getmiş, eyni zamanda Pionerlər Evindəki şeir studiyasının məşğələlərində iştirak etmişdir.

O, M.Qorki adına Ədəbiyyat institutuna daxil olmuş, lakin 1957-ci ildə yazıçı V. Dudinsevin romanını müdafiə etdiyi üçün institutdan qovulmuşdur. İlk şeiri 1949-cu ildə "Sovetskiy sport" qəzetində çap olunmuşdur.1952-ci ildən SSRİ Yazıçılar İttifaqının üzvüdür. Elə həmin ildə ilk kitabı "Gələcəyin kəşfiyyatçıları" çapdan çıxmışdır. 1957-ci ildə "Bəd", 1962-ci ildə "Zəriflik", 1966-cı ildə "Rabitə qatarı", 1969-cu ildə "Ağ qar yağır", 1975-ci ildə "Ata səsi" və s. şeirlər kitabı, "Bratsk SES-i" (1965), "Kazan universiteti" (1970), "Santyaqo göyərçini" (1978) və s. poemaları çap olunmuşdur. 1981-ci ildə onun "Giləmeyvəli yerlər" romanı, "Ardatola" fantastik povesti nəşr olunmuşdur.

Yevtuşenkonun sosializm ideologiyasına qarşı kəskin mövqeyi 1963-cü ildə Fransada çıxan "Ekspres" jurnalında çap olunan "Avtobioqrafiya" adlı yazısında öz əksini tapmışdır.

## ƏSƏRLƏRİ

Yevtuşenko A.Mənə qulaq asın:Şeirlər.-B.:Yazıçı,1980.-138 s.

***NƏZİRƏ NAĞIYEVA***

**ABDULLA SUR – 125**

***Ədəbiyyatşünas***

***İyul***
**23.07.1883-**
**08.05.1912**



Ədəbiyyatşünas Məmmədzadə Abdulla Ağa Məhəmməd oğlu (Abdullla Sur) 1883-cü il iyul ayının 23-də Gəncə şəhərində anadan olmuşdur. Burada “Məktəbi-xeyriyyə”də ilk təhsilini almış, Şah Abbas “Cameyi-şərifinin” mədrəsəsində ərəbcə oxumuşdur (1892-1898). 1898-ci ildən müəllimliklə məşğul olmuşdur. 1903-1912-ci illərdə Tbilisidə “Şərqi-Rus” qəzeti nəşrə başladığı vaxtdan onun səhifələrində və “Tərcüman” (Baxçasaray) qəzetində “A.Sur”, “Məhəmmədzadə”, “Qafqazi yalı”, “A.Tofiq”, “Abdulla Məhəmədzadə”, “Gənclik”, “Bir adam” və s. imzaları ilə maarif, ədəbiyyat və mədəniyyət mövzularında məqalələr dərc etdirmişdir.

Məhəmməd Ağa Şahtaxtlı onu “Şərqi-Rus” qəzetinə müsəhhih vəzifəsinə dəvət etmişdir. O, qəzet bağlandıqdan sonra Gəncəyə qayıdıb yenə müəllimliklə məşğul olmuşdur. 1906-1908-ci illərdə Türkiyədə İstanbul şəhərində təhsilini davam etdirmişdir. Burada yerli dövri mətbuatda, eləcə də Azərbaycanın qəzet və jurnallarında müxtəlif mövzularda məqalələri, felyeton, hekayə və şeirləri dərc olunmuşdur. O, 1908-ci ildə “Türk ədəbiyyatına bir nəzər” monoqrafik əsərini başa çatdırmışdır. Bundan sonra Xətmə qayıdaraq Gəncə Ruhani Seminariyasında ana dili və tarix müəllimi vəzifəsində çalışmışdır. Gənc Abdulla Sur bu dövrdə dərslik tərtibatı ilə yanaşı, Şünasinin “Şairin evlənməsi” vodevilini doğma dilə çevirmiş, onun mənzum əsərlərindən ibarət müntəxəbat tərtib etmişdir. Daha sonra klassiklərin seçilmiş əsərlərindən ibarət “Ədəbiyyat məcmuəsi”nin hazırlanmasına kömək etmişdir.

A.Surun dünyagörüşü ziddiyyətli olmuşdur. İlk məqalələrində ictimai qüsurları, cəhaləti və yerliliyi tənqid etmək, xalqı maarif və mədəniyyətə çağırmaqla yanaşı, həqiqi mədəniyyəti islamiyyətdə görür, elmlə dini eyniləşdirirdi. 1905-1907-ci illər inqilabı onun dünyagörüşünə müsbət təsir göstərmişdir. A.Sur dini gö-

rüşlərindən, türkçülük ideyalarından tamamilə uzaqlaşa bilməsə də, məqalələrində ictimai, mədəni inkişafa dair təkliflər irəli sürmüşdür. Ədəbi-tənqidi məqalələrində tənqidçiliyin əleyhinə çıxaraq, ideyalılığı və novatorluğu ön plana çəkmişdir.

"Füzuliyə bir nəzər", "Azərbaycan-gürcü ədəbi əlaqələri" mövzuları onun yaradıcılığında mühüm yer tutur. F.Köçərli "Azərbaycan ədəbiyyatı tarixi" əsərini yazarkən ona Gəncə şair və yazıçılarının tərcümeyi-hallarını və əsərlərindən nümunələri göndərmişdir… "İqbal", "İrşad", "Günəş", "Həyat", "Həqiqət", "Füyüzat" və s. mətbuat səhifələrində ədəbiyyat tarixinə, müasir ədəbi prosesə, klassik irsin təbliğ və təhlilinə, elm və sənətin qarşılıqlı əlaqəsinə dair çap etdirdiyi məqalələri ilə ədəbi-ictimai fikrin inkişafına təsir göstərmişdir. A.Sur ədəbi, elmi və pedaqoji fəaliyyətinin ən qızğın çağında, 1912-ci il mayın 8-də 29 yaşında vəfat etmişdir. Gəncədə dəfn olunmuşdur.

***HAQQINDA***


Azərbaycan ədəbiyyatı tarixi. II C.-B.: Azərnəşr, 1960.- 908 s.
Elçin. Fikrin karvanı.- B.: Yazıçı, 1984.- 348 s.
Köçərli F. Azərbaycan ədəbiyyatı. I S.- B.: Elm, 1979.- 609 s.
Köçərli F. Azərbaycan ədəbiyyatı. II S.- B.: Elm, 1981.- 460 s.
Mirəhmədov Ə. Azərbaycan ədəbiyyatına dair tədqiqlər.- B.: Maarif, 1983.- 964 s.
Talıbzadə K. Azərbaycan ədəbi tənqidinin tarixi.- B.: Azərnəşr, 1984.- 340 s.
Talıbzadə K. XX əsr Azərbaycan tənqidi.- B.: MEA, 1966.- 540 s.


***BƏYBALA ƏLƏSGƏROV***

**QASIM QASIMZADƏ – 85**

*Şair*

*İyul*
**23.07.1923-**
**28.07.1993**



Şair və alim Qasım Xansuvar oğlu Qasımzadə 1923-cü il iyulun 23-də Qubadlı rayonunun Xocamsaxlı kəndində anadan olmuşdur. Şəki Pedaqoji Texnikumunu bitirdikdən sonra Kəlbəcərdə orta məktəb müəllimi, Yevlax Rayon Xalq Maarifi şöbəsində metodist işləmişdir. 1945-1950-ci illərdə Bakı Dövlət Universitetinin (o vaxtkı ADU-nun) Filologiya fakültəsində təhsilini davam etdirmişdir. 1947-1949-cu illərdə "Azərbaycan gəncləri" qəzeti redaksiyasında Ədəbiyyat və incəsənət şöbəsinin müdiri olmuşdur. Ədəbi fəaliyyətə 1944-cü ildə "Kommunist" qəzetində çap etdirdiyi "Vəfasız olmaz" adlı ilk şeiri ilə başlamışdır. Sonrakı illərdə dövri mətbuatda şeirləri, ədəbi-tənqidi və publisistik məqalələri ilə ardıcıl olaraq çıxış etmişdir. 1950-1953-cü illərdə "Ədəbiyyat və incəsənət "qəzeti redaksiyasında Tənqid şöbəsinin müdiri, 1950-1953-cü illərdə Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutunun aspirantı, 1953-1954-cü illərdə baş elmi işçi əvəzi, 1954-1959-cu illərdə baş elmi işçi, 1957-1963-cü illərdə "Ədəbiyyat və incəsənət" qəzetinin redaktoru olmuşdur. Q.Qasımzadə M.Tursunzadənin "Hindistan balladası", "Asiyanın səsi", M.Mirşəkərin "Qızıl qışlaq", İ.Noneşvilinin "Qonaq gəlin Gürcüstana" əsərlərini rus dilindən Azərbaycan dilinə tərcümə etmişdir. 1963-1973-cü illərdə yenidən Azərbaycan EA Nizami adına Ədəbiyyat İnstitutuna qayıtmış, burada baş elmi işçi, 1973-cü ildən Sovet ədəbiyyatı tarixi şöbəsinin müdiri vəzifəsində işləmişdir. 1950-ci ildə Bakıda rayon Xalq Zəhmətkeş Deputatları Sovetinə deputat seçilmişdir. 1982-ci ildə Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına və bir medala layiq görülmüşdür.

O, 1993-cü il iyul ayının 28-də Bakıda vəfat etmişdir.

## ƏSƏRLƏRI

Seçilmiş əsərləri.- B.: Azərnəşr, 1988.- 366 s.
Aşıq gördüyünü çağırır.-B.: Gənclik, 1969.- 300 s.
Bənövşə yarpağı.- B.: Azərnəşr, 1964.- 286 s.
Bizim dağlar.- B.: Uşaqnəşr, 1955.- 74 s.
Bizim kənd.- B.: Uşaqnəşr, 1951.- 56 s.
Bizim şəhər.- B.: Uşaqnəşr, 1953.- 40 s.
Dağlar buraxmır məni.- B.: Yazıçı, 1978.- 402 s.
Daşdan keçən söz.- B.: Gənclik, 1981.- 206 s.
Ədəbiyyatda millilik və beynəlmiləlçilik.- B.: Elm, 1982.- 274 s.
Ədəbiyyatımız və mənəviyyatımız.- B.: Yazıçı, 1988.- 405 s.
İnsan min il yaşardı.-B.: Azərnəşr, 1973.- 366 s.
İsmət.- B.: Azərnəşr, 1966.- 160 s.
Getdim, gördüm, düşündüm.- B.: Azərnəşr, 1973.- 366 s.
Keçmə namərd körpüsündən.- B.: Gənclik, 1975.- 182 s.
Kiçik dayə.- B.: Uşaqnəşr, 1962.- 16 s.
Nəğməli ürəklər.-B.: Azərnəşr, 1963.- 68 s.
Nikolay Ostrovski.- B.: 1955.- 72 s.
Səndən ayrılalı.-B.: Yazıçı, 1985.- 296 s.
Son görüş.- B.:Uşaqnəşr, 1960.- 86 s.
Süleyman Rəhimov.- B.: Azərnəşr, 1960.- 119 s.
Şəfa çantası (şeirlər).- B.: Gənclik, 1986.- 13 s.
Ürək döyüntüləri.- B.: Azərnəşr, 1959.- 156 s.

## RUS DILINDƏ

Весна на море.- М.: Молодая гвардия, 1962.- 95 с.
Дружба народов в Азербайджанской советской литературе.- Б.: Азернешр, 1963.- 165 с.
Лес дышал.- М.: Советский писатель, 1970.- 96 с.
Утешение.- Б.: Азернешр, 1968.- 139с.

**BƏYBALA ƏLƏSGƏROV**

# N.Q.ÇERNIŞEVSKI – 180

*Yazıçı*

***İyul***
**24.07.1828-**
**29.10.1889**



Rus inqilabçı və mütəfəkkiri, yazıçı, iqtisadçı, filosof Nikolay Qavriloviç Çernışevski 1828-ci il iyul ayının 24-də Saratov şəhərində keşiş ailəsində doğulmuşdur.

1853-cü ildə Peterburqa köçmüş, «Oteçestvennıe zapis-ki» jurnalında əməkdaşlıq etmiş-dir. Nikolay Qavriloviç 1853-1856-cı illərdə «Sovremennik» jurnalının redaktoru və ideya rəhbəri olmuşdur. 1850-ci ildə Peterburq Universitetinin Tarix filologiya fakültəsini bitirmişdir.

1861-1862-ci illərdə «Zem-lə i volə» inqilabi təşkilatının ilhamçısı və məsləhətçisi olan Çernışevskinin daim artan nüfuzundan təşvişə düşən çar hökuməti onu 1862-ci ildə həbs edərək, Petropavlovsk qalasına salmış, sonra katorqaya Sibirə ömürlük sürgünə məhkum et-mişdir.

1883-cü ildə Çernışevski-yə Həştərxanda yaşamağa, 1889-cu ildə isə Saratova qayıtmağa icazə vermişdir. Çernışevskinin dünya görüşünün formalaşmasında A.I.Gertsen və V.Q.Belinskinin, həmçinin klassik alman fəlsəfəsinin (xüsusilə L.Feyerbaxın), ingilis siyasi-iqtisadının, fransız utopik sosializminin güclü təsiri olmuşdur. Çernışevski idrak məsələsində qəti materialist mövqedə durmuş, aqnostisizmi kəskin tənqid etmişdir. Çernışevski praktikaya böyük əhəmiyyət vermiş, onu həqiqətən əsl meyar adlandırmşdır. 1855-ci ildə «Sənətin varlığı estetik münasibətləri» adlı magistrlik dissertasiyası ilə Rusiyada materialist estetikanın əsasını qoymuş, incəsənəti «həyat dərsliyi» adlandıraraq «sənət, sənət üçün» nəzəriyyəsinə güclü zərbə vurmuşdur.

Çernışevskinin publisistikası çarizmə, təhkimçiliyə qarşı mübarizəyə həsr olunmuşdur. Onun ədəbi-tənqidi məqalələri qabaqcıl rus ədəbiyyatı və incəsənətinin inkişafına böyük təsir göstərmişdir. Həbsdə olarkən Çernışevski 1862-1863 cü illərdə

«Nə etməli?» romanını, 1863-cü ildə «Alferyev» povestini, 1864-cü ildə «Kiçik hekayələr» və sairə ədəbi-bədii əsərlərini yazmışdır.

K.Marks və F.Engels Çernışevskinin əsərlərini oxumuş, onu «böyük rus alimi və tənqidçisi» adlandırmışlar.

Çernışevski Şərq, eləcə də Qafqaz, o cümlədən Azərbaycan mədəniyyətinə dərin maraq göstərmiş, onu təbliğ etmişdir. 1855-ci ildə Tiflisdə nəşr olunmuş «Zurna» almanaxı haqqında «Sovremennik» jurnalının həmin ilin 7-ci nömrəsində dərc olunmuş resenziyada Çernışevski almanaxın nəşrini müsbət qiymətləndirmiş, onun müəllifləri sırasında M.F. Axundovun adını ikinci çəkmişdir. Tədqiqatçılar S.S.Pencinin 1856-cı ildə rus dilində nəşr etdirdiyi «Koroğlu» eposu haqqında «Sovremennik»in həmin ilin 10-cu nömrəsində imzasız dərc olunmuş resenziyanın da Çernışevskiyə məxsusluğunu göstərirlər. Resenziyada «Koroğlu»dan Azərbaycan xalqının milli ədəbi abidəsi kimi bəhs edilir. Koroğlu xalqın müdafiəçisi kimi qiymətləndirilir, azərbaycanlıların «milli qəhrəmanı», eyni zamanda «milli şairi» adlandırılır. Çernışevski məşhur şərqşünas alim Kazım bəylə tanış olmuş, ondan şərq dillərini öyrənmişdir. Hələ inqilabdan əvvəl qabaqcıl Azərbaycan ziyalıları Çernışevskinin yaradıcılığına dərin hörmət bəsləmiş, onun irsindən, ideyalarından bəhrələnmişlər.

Nikolay Qavriloviç Çernışevski 1889-cu ildə oktyabr ayının 29-da Saratov şəhərində vəfat etmişdir.

Kitabxanalarda N.Q.Çernışevskinin yubileyi ilə əlaqədar geniş tədbirlər həyata keçirilməsini məsləhət görürük.

## *ƏSƏRLƏRİ*

Nə etməli?.-B.: Gənclik,1987.–705 s.

Sənətin varlığa estetik münasibətləri.- B., 1956. –145 s.

## *HAQQINDA*

Köçərli F., Rüstəmov I. N.Q.Çernışevski və Azərbaycanda ictimai fikir.–B.: Azərnəşr,1979. – 62 s.

### *RUS DILINDƏ*


Избранные педагогические сочинения.- М.: Педагогика, 1983. – 335 с.

Избранные сочинения.- М.: Художественная литература, 1989. – 527 с.

Избранные статьи.-М.: Советская Россия,1978. – 368 с.

Письма без адреса.- М.: Советская Россия,1986. – 362 с.

Что делать? Рассказы о новых людях. – М.: Правда, 1987. – 507 с.


* * *


Демченко А.А. Н.Г.Чернышевский.- М.: Просвещение, 1989. – 159 с.

Ланщиков А.П. Н.Г.Чернышевский.–М.: Современник. 1987. – 382 с.

Меснянкина И.Б. Поиски нравственной свободы.- М.: Знание, 1987. – 62 с.

Пыпина Е.Н. Беседы о прошлом.– Саратов: При волж. кн. изд.-во, 1983. – 127 с.

Паперно И. Семиотика поведения: Николай Чернышевский – человек эпохи реализма. – М., 1996. – 153 с.

Рустамова З.И. Концепция человека в наследии Н.Г.Чернышевского: Монография. – Б.: Нурлан, 2006. – 271 с.


***SAMIRƏ EMINOVA***

## TOLSTOY LEV NİKOLAYEVİÇ -180

Avqust
28.08.1828-
22.11.1910

*Yazıçı*



Rus xalqı dünya mədəniyyətinə bir çox görkəmli sənətkarlar vermişdir. İstər rus ədəbiyyatının özündə və istərsə də dünya ədəbiyyatında bədii təfəkkürün ən yüksək nümunələrindən, ədəbiyyatın tərbiyəvi təsir qüvvəsindən, həyatı düzgün və dolğun əks etdirməsindən və nəhayət, bədii sözün valehedici gözəlliyindən söhbət düşəndə həmişə bir nadir dühanın, misilsiz sənətkarın adı xüsusi hörmət və ehtiramla çəkilir ki, o da 2008-ci ildə anadan olmasının 180-illiyini qeyd edəcəyimiz Lev Nikolayeviç Tolstoydur.

L.Tolstoy 1828-ci il avqust ayının 28-də (yeni stillə sentyabrın 9-da) Tula şəhərinin 15 kilometrliyindəki məşhur Yasnaya Polyana malikanəsində anadan olmuşdur. Valideynlərinin vəfatından sonra o, Kazana köçmüşdür. 1844-cü ildə Kazan universitetinin Fəlsəfə fakültəsinin Şərq şöbəsinə daxil olmuşdur. Az sonra L.Tolstoy təhsilini yarımçıq qoyaraq, Qafqaza getmişdir. 1857-ci ildə hərbi qulluğa girən Tolstoy iki il yarım, 1855-ci ilin payızına qədər orduda xidmət etmişdir.

Tolstoyun ilk hekayə və povestlərinin bir qismi Qafqaz həyatı ilə bağlıdır. Sonralar yazdığı məşhur “Kazaklar” və “Hacı Murad” povestlərinin və başqa əsərlərinin materiallarını da Tolstoy Qafqazda toplamışdır.

1854-cü ildə Tolstoy hərbi qulluq zamanı Sevastopola, döyüşən orduya dəyişilir. Hərbi qulluq zamanı o, rus, bəlkə də dünya ədəbiyyatında müharibə səhnələrini düzgün, real təsvir edən özünün gözəl “Sevastopol hekayələri” ni yazır.

Artıq 1855-ci ildə L.Tolstoy tanınmış bir yazıçı kimi Sevastopoldan Peterburqa qayıdaraq “Ailə xoşbəxtliyi” əsərini çap etdirir.

O, 1862- ci ildə “Yasnaya Polyana” adlı pedaqoji jurnal buraxmağa müvəffəq olur. 1863-1869 -cu illərdə “Hərb və sülh” romanı üzərində işləmişdir.

Dünya ədəbiyyatında belə geniş planda yazılmış kamil əsər tapmaq çətindir. G.Plexnov və A.Lunaçarski, Tolstoy dühasını yüksək qiymətləndirib, onun "Hərb və sülh" romanını dünya ədəbiyyatında ən gözəl əsər saymışdır. "Hərb və sülh"dən sonra dünya şöhrəti qazanan əsəri "Anna Karenina" romanı olmuşdur.

Tolstoy 1880-1890-cı illərdə "İvan İliçin ölümü" (1884-86), "Xolstomer" (1885), "Kreyser sonatası" (1887-1889), "Sergi ata" (1898), "Cəhalət hökmranlığı" (1886), "Maarifin bəhrələri" (1891) əsərlərini yazmışdır.

Ömrünün altmış ilini bədii yaradıcılığa həsr etmiş və dünya ədəbiyyatında ən yüksək yerlərdən birini tutan L.Tolstoy 1910-cu il noyabr ayının 22-də Yasnaya Polyanada dəfn olunmuşdur.

### *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri: 14 cilddə.- B., 1975- 1984.

### Haqqında

Alməmmədov A. L.Tolstoy və Azərbaycan ədəbiyyatı: "Dərs vəsaiti".-B., 1972.- 112 s.

Arif M. L.N. Tolstoy: (vəfatının 50 illiyi).- B., 1960.-58 s.

Azərbaycan Sovet Ensiklopediyası.-B., 1986.- C. 9.-S.308-309.

Sənətkara töhfə: dahi rus yazıçısı Lev Nikolayeviç Tolstoyun anadan olmasının 150 illiyinə həsr olunur /Tərt.ed.Əkbər Ağayev.- B.: "Yazıçı", 1978.- 166 s.

### *RUS DILINDƏ*

Собрание: в 22 Тт-х.-М.: Худежественная литература, 1978-1985

***MƏMMƏD MƏMMƏDOV***

## *HƏMZƏTOV RƏSUL HƏMZƏTOVİÇ-85*

*Şair*

***Sentyabr***
**08.09.1923-**
**03.11.2003**



Rəsul Həmzətov 1923-cü ilin 8 sentyabrında Dağıstanın Sada kəndində anadan olmuşdur. 1959-cu ildə Dağıstanın Xalq şairi adına layiq görülmüşdür. 1950-ci ildə Moskvada M.Qorki adına Ədəbiyyat İnstitutunu bitirmişdir.

İlk şeir kitabı "Alovlu məhəbbət, yandırıcı nifrət" 1943-cü ildə nəşr edilmişdir. Onun "Bizim dağlar" (1947), "Torpağım mənim" (1948), "Doğulduğum il" (1950), "Böyük qardaş haqqında söz" (1952), "Dağıstan baharı" (1955), "Anaları qoruyun" (1979) poemalarında xalqlar dostluğu, ülvi məhəbbət tərənnüm edilir. Həmzətov "Ulduz ulduzla danışır", "Mulat qadın", "Şeirlər", "Məhəbbət kitabı" və s. şeir kitablarının, "Mənim Dağıstanım" (1967-71) lirik povestinin və çoxsaylı ədəbi-tənqidi məqalələrin müəllifidir.

Yazıçının Azərbaycana həsr olunmuş bir sıra şeirləri, Azərbaycan poeziyasından tərcümələri də vardır. Əsərləri SSRİ xalqları dillərinə və bir çox xarici dillərə çevrilmişdir.

Dağıstan Yazıçılar İttifaqı İdarə Heyyətinin üzvü olmuş yazıçı 2003–cü ildə Dağıstanda vəfat etmişdir.

### *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri.- B: Azərnəşr, 1962.-151 s.

Dostları qoruyun.-B.:Yazıçı, 1984.-304 s.

Durnalar.-B.:Azərnəşr, 1973.-235 s.

Mənim Dağıstanım.-B.: Gənslik,1977.-301s.

**RUS DİLİNDƏ**

Дементьев В. В. Расул Гамзатов: Жизнь и творчество.- М.: Сов. Россия, 1984.- 160 с.

Султанов К. Д. Расул Гамзатов: Очерк творчества.- Махачкала.- Кн. Изд-во, 1973.- 222 с.

***HİCRAN BƏŞİROVA***

## ARIF MƏLIKOV – 75

***Bəstəkar***

***Sentyabr***
**13.09.1933**



SSRI Xalq artisti, Dövlət mükafatı laureatı, professor Arif Cahangir oğlu Məlikov 1933-cü il sentyabr ayının 13-də Bakı şəhərində anadan olmuşdur. Uşaq yaşlarından musiqiyə göstərdiyi dərin maraq ilk təhsil illərində daha parlaq şəkildə nəzərə çarpmışdır. Ali musiqi təhsili almaq arzusu onu Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasına gətirmişdir. O, görkəmli bəstəkar Qara Qarayevin sinfində oxumuş və Konservatoriyanı 1958-ci ildə müvəffəqiyyətlə bitirmişdir.

Gənc bəstəkarın nadir istedadı hələ tələbəlik illərində özünü göstərmişdir. O, müxtəlif janrlı əsərlər yazmışdır. Lakin yaradıcılığının ən qaynar çağında – 28 yaşında böyük türk şairi Nazim Hikmətin eyni adlı pyesi əsasında yazdığı «Məhəbbət əfsanəsi» baleti ona əbədi şöhrət gətirmişdir. Bu gözəl sənət əsəri elə həmin il Leninqrad Opera və Balet Teatrında böyük müvəffəqiyyətlə tamaşaya qoyulmuşdur. Qara Qarayev iftixar hissi ilə yazırdı: «Hər dəfə Bakıdan uzaqlarda doğma Azərbaycan musiqisini eşidəndə qəlbim sevinc və fərəhlə dolur. «Məhəbbət əfsanəsi»nin yaranması musiqi həyatımızda əlamətdar hadisədir. Mən istərdim ki, bizim bəstəkarlarımız zamanla səsləşən bu cür əsərlərlə Azərbaycan torpağını daha da şöhrətləndirsinlər».

A.Məlikov görkəmli özbək yazıçısı Şərəf Rəşidovun əsəri əsasında yazdığı «Iki qəlbin poeması» baleti ilə də tamaşaçıların rəğbətini qazanmışdır.

Arif Məlikovun yaradıcılıq diapazonu çox genişdir. Bəstəkarın balet əsərləri, simfoniya-ları, «Vətən» və «Dünyanın səsi» kantataları, «Dalğalar» operettası, 20-dən artıq filmə, 15-dən çox dram tamaşasına yazdığı musiqi gərgin yaradıcılıq axtarışlarının nəticəsidir.

Bütün bunlara görə də dünya şöhrətli görkəmli bəstəkarın əməyi yüksək qiymət-

ləndirilmişdir. 1965-ci ildə ona Əməkdar incəsənət xadimi, 1978-ci ildə Azərbaycan Xalq artisti fəxri adları verilmişdir. 1982-ci ildə Ü.Hacıbəyov adına Azərbaycan Dövlət Konservatoriyasında kafedra müdiri vəzifəsində işləmişdir. 1986-cı ildə Azərbaycan Dövlət mükafatı laureatı adına layiq görülmüş, SSRI Xalq artisti fəxri adı verilmiş, Ali Sovetə deputat seçilmişdir.

A.Məlikov musiqi yaradıcılığı ilə yanaşı, həm də Ü.Hacıbəyov adına Bakı Musiqi Akademiyasının professoru kimi gənc musiqiçi kadrların yetişməsi sahəsində səmərəli pedaqoji fəaliyyət göstərir.

Görkəmli bəstəkarın yubileyi ilə əlaqədar olaraq kitabxanalar geniş tədbirlər planı keçirməlidirlər.

## *ƏSƏRLƏRI*

Məlikov A. Qonaq gəlir bizə (Sözləri I.Səfərlinindir).- B.: Işıq.- 1976.- S.86.

Məlikov A. Dön geri bax (Sözləri F.Qocanındır).- B.: Işıq.- 1976.- S.183.

Məlikov A. Məhəbbət əfsanəsi: 3 pərdəli balet (Librettosu N.Hikmətindir).- M.: Muzıka.- 1982.- 136 s.

Məlikov A. Romanslar (Sözləri N.Hikmətindir).- M.: Sovetskiy kompozitor, 1987.- 39 s.

Məlikov A. Simfoniya № 2. (Böyük simfonik orkestr üçün partitura).- M.:Sovetskiy kompozitor.- 1990.- 47 s.

## *HAQQINDA*

Ələkbərova N. Arif Məlikov: (Monoqrafiya).- B.:Şur, 1993.- 32 s.

Qasımova S., Bağırov H. Arif Məlikov: Həyatı və yaradıcılığı /Qasımova S., Bağırov H. Azərbaycan sovet musiqi ədəbiyyatı.- B.: Maarif, 1984.- S.189-197.

* * *

Əliyev T. 20 Yanvar faciəsi Azərbaycan xalqının azadlıq və demokratiya ideyalarına qarşı yönəlmiş tarixi cinayət aktıdır: Arif Məlikov ittiham edir //Xalq qəzeti.- 2006.- 20 yanvar.- S.5.

Əliyev H. Xalq artisti Arif Məlikov (70 illik yubileyi münasibətilə təbrik) //Azərbaycan.- 2003.- 13 sentyabr.- S.1.

Hacıyev T. Mən Azərbaycan xalqının oğluyam: (Bəstəkar A.

Məlikov haqqında) //Xalq qəzeti.- 7 sentyabr.- 2004.- S.7.
Kərimli A. Arif Məlikov həqiqəti: (Arif Məlikov-70) //Qobustan.- 2003.- № 4.- S.14-17.
Tahirə. Acınacaqlı xaosa son qoymaq lazımdır (Arif Məlikovla müsahibə) //Şərq.- 2006.- 11 avqust.-S.14.
Şərif. Azərbaycanlı olduğu ilə fəxr edən bəstəkar: (Arif Məlikov -70) //Yeni Azərbaycan.- 2003.- 19 sentyabr.- S.16.
Zöhrabov R. Dünya şöhrətli bəstəkar: (Arif Məlikov-70) //Respublika.- 2003.- 16 sentyabr.- S.5.

***RUS DILINDƏ***

Алекперова Н.Ю. Ариф Меликов.- Б.: Ишыг, 1988.- 176. с.
Меликов А. Пьесы для фортепиано.- М.: Советский композитор.- 1973.- 55 с.
Меликов А. Легенда о любви: Балет в 3-х актах.- Б.: Ишыг, 1981.- 127 s.
Меликов А. Альбом пьес для фортепиано.-М.:Советский композитор, 1990.- 47 с.

***ZENFIRA QULAMOVA***

**FIRƏNGIZ ƏHMƏDOVA - 80**

***Müğənni***

***Sentyabr***
**23.09.1928**



Məşhur opera müğənnisi və kamera-vokal əsərlərinin ifaçısı, zil, cingiltili və çoxçalarlı səsə malik olan Firəngiz Əhmədova Azərbaycanın görkəmli müğənnilərindəndir. Onun ifasında Üzeyir bəy Hacıbəyovun «Sənsiz», Asəf Zeynallının «Ölkəm» romansları, Niyazinin «Arzu», Əşrəf Abbasovun «Heyran olmuşam», Ağabacı Rzayevanın «Oxuma, gözəl» mahnıları, Pyotr Çaykovskinin, Sergey Raxmaninovun mürəkkəb sənət nümunələri radionun qızıl fondunda fəxri yer tutur.

Firəngiz Yusif qızı Əhmədova 1928-ci il sentyabr ayının 23-də Bakıda anadan olmuşdur. O, əvvəlcə Asəf Zey-nallı adına Musiqi Məktəbində təhsil almış və vokal sənətinə yiyələnmişdir. F.Əhmədova ilk vaxtlar Azərbaycan Dövlət Radiosunun xorunda solist işləmişdir. Müğənni Moskvada, Kiyevdə, Tiflisdə, Orta Asiya respublikalarında qastrol səfərlərində olmuşdur. Konservatoriyanın hazırlıq şöbəsində Marqarita Kolotovanın sinfində təhsil almışdır. 1951-ci ildə ikinci kurs tələbəsi olan Firəngiz Əhmədova Opera və Balet Teatrına solist dəvət olunmuşdur. Onun ilk rolu Müslüm Maqomayevin «Nərgiz» operasında Nərgizin partiyası olmuşdur. 1955-ci ildə F. Əhmədova Konservatoriyanı bitirdikdən sonra Azərbaycanın müasir və klassik dünya bəstəkarlarının operalarının tamaşalarında əsas partiyaların mahir ifaçısı kimi tanınmışdır.

F.Əhmədova teatrda dahi Üzeyir bəy Hacıbəyovun «Koroğlu» (Nigar), Müslüm Maqomayevin «Şah Ismayıl» (Gülzar), F.Əmirovun «Sevil» (Sevil), Cahangir Cahangirovun «Azad» (Səriyyə), Ramiz Mustafayevin «Vaqif» (Xuraman), Vasif Adıgözəlovun «Ölülər» (Nazlı), Süleyman Ələsgərovun «Bahadır və Sona» (Sona) operalarında baş partiyaları ifa etmişdir. F.Əhmədova uzun illər «Arşın mal alan» operettasında Gülçöhrənin

ariya və mahnılarının mahir ifaçısı kimi tanınmış və şöhrət qazanmışdır. Bütün bunlarla yanaşı o, dünya klassiklərinin şah opera əsərlərində Maqo-(«Daisi», Zaxari Paliaşvili), Floriya Toska («Toska», Cakomo Puççini), Mikaela («Karmen», Jorj Bize) və s. məşhur obrazların partiyalarını ifa etmişdir.

F.Əhmədova opera səhnəsində və solist-ifaçı kimi qazandığı sənət uğurlarına görə Azərbaycan Respublikasının Əməkdar artisti, Xalq artisti və SSRI Xalq artisti (1967) fəxri adlarına layiq görülmüşdür. Şöhrətli müğənni dünyanın bir çox məşhur sənət ocaqlarının səhnələrində dəfələrlə və böyük müvəffəqiyyətlə çıxış etmişdir.

Firəngiz Əhmədova hazırda teatrda məşqçi-pedaqoq kimi çalışır. Yeni-yeni istedadların yetişdirilməsi üçün əlindən gələni əsirgəmir.

Firəngiz Əhmədovanın anadan olmasının 80 illiyi münasibətilə onun yaradıcılığının kitabxanalarda daha geniş təbliği üçün müxtəlif tədbirlər keçirmək lazımdır.

### *ƏDƏBIYYAT*


Azərbaycan Respublikasının Prezidentinin F.Y.Əhmədovanın «Şöhrət» ordeni ilə təltif edilməsi haqqında: Fərmanı //Azərbaycan.-1998.- 24 sentyabr. - S.1.

Heydər Əliyev. Xalq artisti F.Əhmədovaya 70 illik yubileyi münasibətilə təbriki //Azərbaycan.-1998.-23 sentyabr.-S.1.

* * *

Rəhimli I. Firəngiz Əhmədova / Rəhimli I. Azərbaycan teatr tarixi.-B.: Çaşıoğlu, 2006.-S.596-599.

* * *

«Mən Bakını heç bir şəhərə dəyişmərəm. (Görkəmli müğənni ilə müsahibə) //Azadlıq.-1996.- 29 noyabr- S.3.

Sənət süniliyi sevməz (Gənc müğənnilərin fonoqramma üsulu ilə oxuması haqqında) //Ədəbiyyat və incəsənət.-1980.-4 yanvar.- S.5.

Həmişə müasir: (M.Maqomayevin anadan olmasının 100 illiyi münasibətilə) //Kommunist.- 1986.- 24 may.-S.3.

Xalqımızın, milli mədəniyyətimizin iftixarı (Bülbülün 100 illiyinə həsr olunmuş təntənəli yubiley gecəsində çıxışı) //Azərbaycan.- 1997.-5 dekabr.- S.1

* * *

Eyvazlı A. Daşkənddə görüşdüyüm iki böyük sənətkarla söhbətdən fraqmentlər (Firəngiz Əhmədova və Firidun Səfərovla olan görüşlər haqqında) //Panorama.- 1999.-9 avqust.–S. 4.

Ülvi A. Mahnılardan yoğrulmuş ömür: (Müğənni F.Əhmədova haqqında) //Xalq qəzeti.-1996.- 3 dekabr.- S.4.

.

Səttarbəyli M. Istəmirəm desinlər bunun da bir vaxtı var idi (F. Əhmədova ilə söhbət //7 gün.- 1998.- 16-17 iyul.- S.6.

Məmmədova G. Hər zamanın Firəngizi (SSRI Xalq artisti, vokalçı F.Əhmədovanın 70 illiyi münasibətilə) //Panorama.- 1998.- 22 sentyabr.-S.8

***SAQIBƏ MEHRƏLIYEVA***

**AZAD MIRZƏCANZADƏ –80**

***Akademik***

*Sentyabr*
**30.09.1928-**
**17.07.2006**



XX əsrin II yarısı və XXI əsrin əvvəllərində Azərbaycan elminin, xüsusilə neft sənayesinin inkişafında misilsiz xidmətləri olan görkəmli elm xadimi Azad Mirzəcanzadə geniş elmi əhatə spektrinə malik olan bir şəxsiyyət olmuşdur.

Mirzəcanzadə Azad Xəlil oğlu 1928-ci ildə sentyabr ayının 30-da Bakıda anadan olmuşdur. Fitri istedada malik olan gənc Azad 23 yaşında (1951) namizədlik, 29 yaşında (1957) doktorluq dissertasiyasını müvəffəqiyyətlə müdafiə etmişdir. O, 34 yaşında AzSSR EA-nın müxbir üzvü (1962), 40 yaşında isə həqiqi üzvü (1968) seçilmişdir.

Akademik Azad Mirzəcanzadə özünün parlaq və səmərəli fəaliyyəti ilə əlaqədar olaraq Beynəlxalq Şərq Akademiyasının prezidenti seçilmiş, 3 dəfə Qubkin adına mükafata layiq görülmüş, 2 dəfə Azərbaycanın Dövlət və SSRI Nazirlər Sovetinin xüsusi mükafatlarının laureatı (1980; 1986) adını almış, Ukrayna Neft-qaz Akademiyası və Rusiya Təbiət Elmləri Akademiyasının həqiqi üzvü olmuş, SSRI-nin Əməkdar elm xadimi (1970), SSRI qaz sənayesinin və Bolqarıstanın fəxri neftçisi (1971) kimi şərəfli adlar almış, «Istiqlal», «Qırmızı əmək bayrağı», «Oktyabr inqilabı» «Şöhrət» ordenləri ilə təltif olunmuş, P.L.Kapitsa adına «Qızıl medal» mükafatçısı olmuş, habelə elm və texnika sahəsində hökumət və dövlət mükafatlarına layiq görülmüşdür.

Akademik Mirzəcanzadənin özünəməxsus bir dəst-xətti olmuşdur. O, güclü və böyük tezliklə informasiya qəbuletmə zəkasına və informasiyanın tezliklə emal olunub yeni keyfiyyətlərlə, elmi yeniliklərlə, ideyalar «selinə» çevirmə qabiliyyətinə malik idi. Onun 300-dən çox elmlər namizədi və 120 elmlər doktorunun hazırlanmasında bir elmi rəhbər kimi misilsiz xidmətləri olmuşdur.

Azad Mirzəcanzadə eyni zamanda, çoxsaylı monoqrafiya, dərslik və dərs vəsaitlərinin, elmi

məqalələrin, qiymətli ixtiraların müəllifidir. Onun Bakıda ilk dəfə olaraq nəşr olunan «Neft və qaz yataqlarının işlənməsi və istismarı» (2 cilddə), «Ixtisasa giriş», «Neft-mədən işində rəqsi hərəkətin nəzəriyyəsi» adlı dərs kitabları və Moskva Dövlət Universitetində buraxılmış «Fiziki proseslərin mexanikası» dərsliyi, habelə «Özülü plastik mayelərin qeyri-stasionar hərəkəti», «Neft və qaz laylarının fizikası», «Yer-altı hidravlika», «Riyazi moza-ika», «Təhsilin humanitarlaşdı-rılması etüdləri», «Azərbaycanın neft konsepsiyası etüdləri», «Layların neftverimi prosesləri-nin diakoptikası», «Neft ya-taqlarının işlənməsi, neft və neft məhsullarının nəqli proseslərinin sistemli analizi», «Dəniz neft-qaz yataqlarının işlənməsi fraqmentləri», «Neft çıxarmada dinamiki proseslər», «XXI əsrə aparan yol», «Neft və qaz laylarının fizikası» və s. əsərləri xüsusi əhəmiyyət kəsb edir.

Böyük alim geniş elmi-pedaqoji fəaliyyətlə ABŞ-da, Ingiltərədə, Yaponiyada, Almaniyada, Qərbi Sibirdə, Tümen vilayətində, Tatarıstanda, Başqırdıstanda, Əlcəzairdə, Vyetnam-da, Çin Xalq Respublikasında, eləcə də dünyanın bir çox başqa ölkələrində məşğul olmuşdur. Akademik Mirzəcanzadə elmi və pedaqoji fəaliyyəti dövründə yüzlərlə mütəxəssis və elmi işçi hazırlamışdır ki, onlar da respublikada və onun hüdudları xaricində–Rusiyada, Ukraynada, Hindistanda, Vyetnamda, Əfqanıstanda, Almaniyada və digər ölkələrdə müvəffəqiyyətlə fəaliyyət göstərirlər.

Görkəmli alim ilk dəfə olaraq Azərbaycanın neft-qaz sənayesində 2006-2010-cu illər üçün elmi-tədqiqatların konsepsiyasını işləmiş və müzakirəyə təqdim etmişdir. O, uzun illər bir çox monoqrafiya və dərs vəsaitlərində texnoloji proseslərin mexanikasının ümumiləşdirilmiş problemləri ilə məşğul olmuşdur.

Akademik Mirzəcanzadə ADNA-da Neft və Qaz yataqlarının işlənməsi və istismarı kafedrasının müdiri (1962), Azərbaycan SSR Elmlər Akademiyasının Riyaziyyat Institutunda şöbə müdiri (1988) olmuşdur. 1988-ci ildən o, UFA Neft Institutunun Qaz və Qaz-kondensat yataqlarının işlənməsi kafedrasının müdiri seçilmiş, geofiziki mürəkkəb mühitlərdə texnoloji proseslərin riyazi modelləşdirilməsi məsələlərini tədqiq edən elmi məktəbin yaradıcısı olmuşdur.

Son 10 ildə görkəmli alim «Azərbaycan neft təsərrüfatı» jurnalına başçılıq etmişdir və onun səyi nəticəsində jurnal beynəlxalq statusa layiq görül-müşdür. Jurnalın səhifələrində ilk dəfə olaraq neft işində taleyüklü əhəmiyyət kəsb edən materiallar, Azərbaycanın, MDB ölkələrinin, Şimal dənizinin, Ingiltərənin, ABŞ-ın, Vyetnamın cənub şelfi

yataqlarında sınaqdan keçirilmiş işlərin nəticələri dərc edilmişdir.

Akademik Azad Mirzəcanzadə 17 iyul 2006-cı ildə, ömrünün 78-ci ilində vəfat etmişdir. Lakin onun elmi və pedaqoji irsi, fundamental əsərləri, elmi məktəbi daima yaşayacaqdır.



## *ƏSƏRLƏRI*

Ixtisasa giriş: Neft və qaz profilli ali məktəblər üçün dərs vəsaiti.– B.: BDU, 1990.– 367 s.

Mirzəcanzadə A., Əhmədov Z. Yeraltı hidroqazodinamika: Dərs vəsaiti /M.Əzizbəyov adına AzNKI.– B., 1986.– 99 s.

Mirzəcanzadə A., Maqsudov F. Riyazi mozaika.– B.: Elm,1992.– 175 s.

Mirzəcanzadə A., Şıxəliyev F. Ixtisasa giriş: Ali texniki məktəblərin qaz-neft mədən fakültəsi tələbələri üçün dərslik.– B.: Maarif, 1985.– 158 s.

Mirzəcanzadə A. və b. Hidravlika: Neftçi mühəndis hazırlayan ali texniki məktəb və fakültələr üçün dərslik /A.Mirzəcanzadə, Z.Əhmədov, R.Qurbanov.– B.: Maarif, 1990.– 274 s.

Mirzəcanzadə A. və b. Neft çıxarılmasının texnikası və texnologiyası: Dərs vəsaiti /A.Mirzəcanzadə, A.M.Xasayev, M.M. Bayramov.– B.: Az NKI, 1981.– 73 s.

Mirzəcanzadə A. və b. Neft layının fizikası: Ali texniki mək-təblər üçün dərslik /A.Mirzə-canzadə, Z.Əhmədov, R.Qurba-nov.– B.: Maarif, 1983.– 332 s.

Yaradıcılıq haqqında düşüncələr.– B.: Yazıçı, 1984.– 192 s.

* * *

Gələcək haqqında mülahizələr //Təfəkkür.– 2000.– № 1.– S. 6-8.

Müəllim və şagird haqqında //Təhsil və zaman.– 2005. – 29 sentyabr.– S. 2.

## *HAQQINDA*

Tədqiqatlar: (Məqalələr toplusu) .– B.: Elm, 1998.–125 s.

* * *

Məmmədov S. O, maaşını yetimxanalara göndərir //Yeni Müsavat.- 2000.– 6 yanvar.-S.4.

Şahbazov E. Akademik A.Mirzəcanzadə //Respublika.– 2006.– 29 sentyabr.– S. 6.

### *RUS DILINDƏ*

Распоряжение Президента Азербайджанской Республики: О предоставлении А.Х. Мирзаджанзаде персональной стипендии Президента Азербайджанской Республики //Бакинский рабочий.– 2005.– 30 сентября.– С.1.

* * *

Введение в специальность: Учебное пособие для вузов нефтегазового профиля.– Б.: Маариф, 1987.– 276 с.

Газогидродинамические основы анализа разработки место рождений нефти и газа.– Б.: Азинефтехим, 1983.– 113 с.

Мирзаджанзаде А. Х., Ентов В.М. Гидродинамика и бурение.– М.: Недра, 1985.– 196 с.

Мирзаджанзаде А. Х., Алиев Р. Т. Добыча нефти, газа и газоконденсата в море: Учебное пособие.– Б.:Азинефтехим, 1983.– 61 с.

Мирзаджанзаде А. Х., Султанов Ч.А. Диакоптика процессов нефтеотдачи пластов.–Б.: Азербайджан, 1995.– 366 с.

Мирзаджанзаде А.Х., Ширинзаде С.А. Повышение эффэктивности и качества бурения глубоких скважин.– М.: Недра, 1986.– 277 с.

Парадоксы нефтяной физики.– Б.: Азернешр, 1981.– 148 с.

Прикладная геохимия нефти и газа.– Б.: Азернешр, 1985.– 291 с.

Технология добычи природных газов.– М.: Недра, 1987.– 414 с.

Технология и техника добычи нефти.– М.: Недра, 1986.– 381 с.

Этюды о гуманитаризации образования.–Б.:Азернешр, 1993.– 416 с.

* * *

Жилин Г. Еще одна награда именитому ученому: (Азаду Мирзаджанзаде) //Баку.– 2001.– 19-25 января.– С.1.

Павлов А., Самедов В. Нефтяной мудрец //Бакинский рабочий .– 1999.– 26 октября.– С.2.

***ADILƏ ABDULLAYEVA***

## GÜLHÜSEYN HÜSEYNOĞLU-85

*Oktyabr*
*16.10.1923*

*Yazıçı*



Gülhüseyn Hüseynoğlu (Abdullayev) 1923-cü il oktyabr ayının 16-da Masallı rayonunun Mollaoba kəndində anadan olmuş, kiçik yaşlarında ikən ailəsi ilə Bakıya köçdüyündən uşaqlığı, gəncliyi və bütün sonrakı fəaliyyəti Bakıda keçmişdir.

1947-ci ildə S.M.Kirov adına ADU-nun Filologiya fakültəsini bitirmiş, aspiranturaya qəbul olunmuş, lakin gizli antisovet fəaliyyətinə görə şəxsiyyətə pərəstiş dövründə həbs olunaraq, 25 il müddətinə azadlıqdan məhrum edilmişdir. 1956-cı ildə ona tam bəraət verilmiş, aspiranturaya bərpa edilmişdir və ADU-da müəllim saxlanılmışdır. Gülhüseyn Hüseynoğlu görkəmli yazıçı, alim, müəllimdir. O, Azərbaycan ədəbiyyatının tamamilə yeni bir janr olan mənsur şeiri daha da zənginləşdirən və yarım əsrdən artıq bu sahədə yorulmadan çalışan bir sənətkardır.

Görkəmli yazıçının mənsur şeirləri həm məzmun, həm də formaca zəngin olub Azərbaycan xalqının mənəviyyatını, əhvali-ruhiyəsini kifayət qədər dolğun şəkildə əks etdirir.

Onun gənclik illərindən gələn daxili narahatlığı, üsyankarlığı yalnız mənsur şeirlərində deyil, yaradıcılığının bütün sahələrində öz əksini tapmışdır. O, neçə illərdir ki, Azərbaycan poeziyasının vaxtsız susdurulmuş bülbülü M.Müşfiq haqqında tədqiqat işi aparır.

Yazıçının «Ana» adlı ilk hekayəsi 1944-cü ildə, «Bənövşə əfsanəsi» adlı ilk mənsur şeiri isə 1946-cı ildə çap olunmuşdur.

Müxtəlif janrlarda əsərlər yazan, lakin bir janrda daha çox müvəffəq olub tarixə düşən yazıçıların yaradıcılığı göstərir ki, müxtəlif janrlara müraciət prinsip etibarilə hər hansı bir janrın ifadə-idrak imkanlarını genişləndirmək ehtiyacından irəli gəlir. Onlarla kitabların müəllifi, əlli ildən artıq kifayət qədər çoxplanlı yaradıcılıq təcrübəsi olan, həyatın hər üzünü görmüş Gülhüseyn Hüseynoğlu hekayələr, oçerklər, povestlər, elmi əsərlər yazsa da, Azərbaycan ədəbi-ictimai mühiti onu birinci növbədə mənsur

şeirlər ustası kimi tanıyır, sevir, qiymətləndirir. G.Hüseynoğlunun qələmindən çıxan nə varsa, hansı janrda jazılmasından asılı olmayaraq məhz mənsur şeir kimi oxunur, dərk edilir. Çünki o, nə düşünürsə mənsur şeir formasında düşünür.

Hüseynoğlu yaradıcılıq həyatını olduqca mənalı yaşamış insanlardandır, o, nə iş görmüşdüsə özündən çox millətini, xalqını, vətənini düşünüb görmüşdü.

O, Azərbaycan Yazıçılar Idtifaqının 5-ci Qurultayında İdarə Heyətinin üzvü, Azərbaycan yazıçılar birliyinin X Qurultayında isə YB Nəsr bölməsinin rəhbəri seçilmişdir. Əsərləri keçmiş SSRI xalqlarının dillərinə tərcümə olunmuşdur. Indiyə qədər 20-dən çox kitabı kütləvi tirajla buraxılmışdır.

Bakı Dövlət Universitetinin Azərbaycan Sovet ədəbiyyatı kafedrasının professoru vəzifəsində işləyir. Universitetin Filologiya fakültəsi elmi şurasının üzvüdür.

## *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri.-B.: Gənclik,1974.-332 s.

Seçilmiş əsərləri.-2 C-də.-B.:Azərnəşr,1993.-I C.-439 s.; II C.-345 s.

* * *

Ana qoynu: Hekayələr /Red. A.Isabəyli.-B.:Şirvannəşr, 2003.-16 s.

Çətin yol.-B.:Gənclik,1987.-184 s.

Insanlar və dalğalar.-B.:Yazıçı, 1982.-316 s.

Kişi kimi.-B.:Gənclik,1992.-90 s.

M.Müşfiqin yaradıcılıq yolu: Dərs vəsaiti.-B.:BDU nəşriyyatı, 1987 .- 112 s.

Məhəbbətdirmi bu.-B.:Gənclik, 1996.- 452 s.

Mikayıl Müşfiq: Albom-kitab.-B.: Işıq, 1999.-152 s.

Ömrümüz boyu: Mənsur şeirlər və hekayələr.-B.:Gənclik,1978.- 274 s.

## *Haqqında*

Cəfərov N. Gülhüseyn Hüseyn oğlu.-B.:BUN, 2001.-331 s.

* * *

Nüsrətbəyli S. Öz həbsxanasından ayrılmadı //Bakı, 2003.-26 sentyabr.-20 oktyabr.-S.4.
Mənsur şeirin cəngavəri: Mədəniyyət fondunda Xalq yazıçısı Gülhüseyn Hüseynoğlu ilə görüş keçirildi // Kaspi.-2006.-25 aprel.-S.8.
Məhərrəmli Z. Mənsur şeirin ustadı /Gülhüseyn Hüseynoğlu haqqında //Bakı.-2001.-26 yanvar.-1 fevral.-S.4.
Türksel Sabir Nuri. Mənsur şeirlər ustadı: Gülhüseyn Hüseynoğlunun 80 yaşı //Azərbaycan.-2003.-№10.- S.152-155.

***NAILƏ ALIŞOVA***

## RASIM OCAQOV – 75

*Noyabr*
**22.11.1933-**
**12.07.2006**

***Kinorejissor***



Azərbaycan kino sənətində öz dəsti-xətti olan görkəmli kinorejissor Rasim Ocaqov 1933-cü il noyabr ayının 22-də Azərbaycanın ən səfalı və qədim şəhərlərindən birində – Nuxada (indiki Şəkidə) həkim ailəsində doğulmuşdur. Onun uşaqlığı və gənclik illəri burada keçmişdir. Hələ gənclik illərində Rasim fotoqrafiya ilə maraqlanmış və həvəskar şəkillər çəkmişdir. Ancaq o, həmişə geoloq olmağı arzulamışdı. Bununla əlaqədar olaraq Azərbaycan Neft və Kimya Institutuna daxil olmaq istəmişdir. Kinoya isə o, təsadüfən gəlib çıxmışdır. Bir dəfə Şəkiyə sənədli film çəkən yaradıcı qrup gəlir. Bu vaxt fotoqrafiya ilə ürəkdən məşğul olan Rasim peşəkarların ipək kombinatında necə işlədiklərini görmək üçün onların yanına gedir. Möcüzəli kino aləmi Rasimi özünə elə çəkir ki, gənc fotoqraf bu sənəti kökündən öyrənməyi qərara alır. Rasim Ocaqov orta məktəbi bitirdikdən sonra bu məqsədlə Moskvaya gedir və imtahanlarını müvəffəqiyyətlə verib Ümumittifaq Dövlət Kinematoqrafiya Institutunun Operatorluq fakültəsinə daxil olur.

O, Institutda B.Qolovnya və L.Kosmatov kimi görkəmli kinematoqrafçılardan, təcrübəli kinooperatorlardan dərs alır, kinonun incəliklərini, operator sənətinin əlifbasını, kinonun texnikasını dərindən öyrənir. 1956-cı ildə diplom müdafiə edib, Institutu uğurla bitirir və təyinatla Bakı kinostudiyasına gəlir.

Rasim Ocaqov operator kimi ilk filmini çəkəndən sonra ona baxmaq üçün atasını Bakıya dəvət edir. Ona elə gəlirdi ki, atası filmi görən kimi çox sevinəcək. Amma o, filmə baxıb bir müddət susur, sonra deyir: «Elə bundan ötrü Şəkidən getmişdin?… Evdə qalaydın, bir işin qulpundan yapışaydın. Məgər həyatda belə şeylər olur, bu nədir çəkmisiniz? Rasim bu sözlərdən bərk utanır. Lakin atasının sözləri ona dərs olur: «Kino əyləncə deyil, dəbdə olan peşə deyil, kino yüksək sənətdir, bütün varlığınla ona xidmət etməlisən».

Bundan sonra R.Ocaqov on iki film çəkir. Lakin o, operator kimi onlarla bədii və sənədli film çəkdiyi illərdə tez-tez rejissorluq barədə də düşünürdü.

Rasim Ocaqovu rejissorluğa çəkən bir neçə səbəb vardı. Onun fikrincə filmdə əsas sima rejissordur, operator isə ikincidir. Gənc Rasim müstəqil olmaq, özü bildiyi kimi film çəkmək istəyirdi. Lakin filmlərə quruluş vermək üçün kinostudiyanın rəhbərliyinə müraciət etsə də, müsbət cavab ala bilməmişdir. Bu zaman kinostudiyanın direktoru Adil Isgəndərov ona bildirmişdir ki, «operatorsan, get operator kimi filmini çək!». Lakin bu cavab operatoru qane etməmişdir. Buna görə də o, Azərbaycan Dövlət Incəsənət Institutunun Rejissorluq fakültəsinə daxil olmuş və bu dəfə Kinostudiyaya rejissor diplomu ilə gəlmişdir. Bundan sonra görkəmli sənətkar Rasim Ocaqovun yaradıcılığının ikinci dövrü – kinorejissorluq fəaliyyəti başlamışdır. Beləliklə, 1974-cü ildə ilk filminin çəkilişi üzərində çalışmağa müvəffəq olmuşdur. Bu «Qatır Məmməd» filmi idi. Bu filmin ardınca «Tütək səsi» (1975), «Ad günü» (1977), «Istintaq» (1979), «Bağlı qapı» (1981), «Park» (1983), «Özgə ömür» (1987) və s. sənət nümunələri yaratmışdır.

R.Ocaqov uzun illər gördüyü səmərəli işlərə görə 1964-cü ildə Çeçen-Inquş Muxtar Respublikasının, 1967-ci ildə isə Azərbaycanın Əməkdar incəsənət xadimi adına layiq görülmüşdür. 1981-ci ildə isə keçmiş SSRI–nin Dövlət mükafatı laureatı, 1980-ci ildə isə Azərbaycan SSR-nin Dövlət mükafatı laureatı olmuşdur.

«Şöhrət» ordenli, Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdçüsü, Xalq artisti Rasim Mirqasım oğlu Ocaqov 2006-cı il iyulun 11-də ömrünün 73-cü ilində vəfat etmişdir.

Qeyd: Görkəmli kinorejissor R.Ocaqovun anadan olmasının 75 illiyi tamam olan günlərdə kitabxanalarda «Azərbaycan Kinosu bu gün», «R.Ocaqov sənətkarlığı lentlərdə», «Kino işinin tarixinə dair» və s. mövzularda söhbətlər keçirmək, məruzə və mühazirələr təşkil etmək faydalı olardı.

***HAQQINDA***

Kazımzadə A. Azərbaycan kinematoqrafçıları.- C.1. –B.: Nağıl Evi, 2002. –S.138 –149.

Kazımzadə A.Rasim Ocaqov. – B.: Nağıl Evi, 2003.- 55 s.

Sadıxov N. Azərbaycan kino rejissorları.-B.:Işıq,1988- 157s.

*   *   *

Isgəndərov Ö. Rasim Ocaqov və Azərbaycan kino sənəti //Mədəni-maarif.-2005.-№10- S.7-8.

Mehdixanlı T. Taleləri yaşadan sənətkar: (Kinorejissor Rasim Ocaqovun 70 illiyi münasibətilə) //Azərbaycan.- 2003.- 28 noyabr.- S.8.

Rasim Mirqasım oğlu Ocaqov (Nekroloq) //Azərbaycan .-2006.- 12 iyul.-S. 5 .

### *RUS DILINDƏ*

Распоряжение Президента Азербайджанской Республики о предоставлении Р. М. Оджагову персональной стипендии //Бакинский рабочий.–2002.– 2 мая .–С.1.

*   *   *

Амаль. Страна простилась с режиссером (Расим Оджагов) // Зеркало.– 2006.–13 июля.– С. 8.

Мусаева Н. Последний интервью с мастером //Каспий.– 2006.–12 июля.–С.1-2.

Некролог Расим Миргасым оглы Оджагов //Бакинский рабочий.–2006.–12 июля.– С. 2.

### INTERNET

www. azerbaijan.news. az
www. xalqqazeti. com
www. respublika. news. az

*SARA QƏDIMOVA*

## IMRAN QASIMOV - 90

*Xalq yazıçısı*

*Noyabr*
**25.11.1918 - 20.04.1981**



Nasir və dramaturq, ssenarist və publisist Imran Qasımov Azərbaycan ədəbiyyatının inkişafında xüsusi xidmətləri olan sənətkarlarımızdan biridir.

Imran Haşım oğlu Qasımov 1918-ci il noyabr ayının 25-də Bakı şəhərində anadan olmuşdur. Onun ssenaristlik fəaliyyətinin maraqlı bir tarixçəsi vardır. Dramaturq 1935-ci ildə Moskvaya Kino kursuna göndərilmiş, bu sahədə böyük məktəb keçmişdir. Ədibin dünyagörüşünün, intellektinin artmasına, ictimai şüurunun inkişafına Moskva mühiti əsaslı təsir göstərmişdir. Imran Qasımov görkəmli kino, dramaturgiya ustalarının tələbəsi olmuş, onların xeyirxah, ağıllı məsləhətlərinə, nəsihətlərinə qulaq asmış və bu sahədə təcrübə toplamış, çoxlu ədəbiyyat oxumuş, G.Mdivani, B.Lavrenev, B.Romaşov, A.Salınski, A.Safronov kimi sənətkarlarla sıx yaradıcılıq əlaqəsi yaratmışdır. Şübhəsiz həmin yaradıcılıq, dostluq əlaqələri yazıçının müasirlik duyğusunun artmasında, ədəbi axtarışlar dairəsinin genişlənməsində, onun kino və teatr sənətinə daha yaxından bağlanmasında əhəmiyyətli rol oynamışdır. Gənc müəllif ədəbi fəaliyyətə 1938-ci ildə kino ssenarist və dramaturq kimi başlamışdır. Ilk kino əsəri Bakı fəhlələrinə həsr olunmuş «Yeni horizont» filminin ssenarisidir. O, 1958-ci ildə «Dəniz fatehləri», 1959-cu ildə «Xəzər neftçiləri haqqında dastan», «Onun böyük ürəyi», 1960-cı ildə «Bizim küçə» kimi maraqlı filmlərin ssenari müəllifidir.

Imran Qasımov yaradıcılığındakı qüvvətli vətənpərvərlik ruhunu nümayiş etdirən filmlərdən biri də «Qocaman Xəzərin gəncliyi»dir. Çox maraqlıdır ki, müəllif vurğunu olduğu Xəzər dənizini Azərbaycanın simvolu kimi götürmüşdür. Onun keçdiyi həyat yolunu, tarixini və indisini inandırıcı, bədii boyalarla təsvir etmişdir. Müəllifin göstərdiyi kimi Xəzər Azərbaycanın iqtisadi inkişaf mənbəyidir. Xəzər Azərbaycan xalqının tarixidir, Xəzər

respublikanın təbii sərvətlərinin əsas mənbəyidir. Onun insanların fədakar əməyini, müasirlərimizin mənəviyyatını tərənnüm edən «Arzu», (1938) «Dəniz cəsurları sevir» (1950), «Sən niyə yaşayırsan» (1959), «Insan məskən salır» (1965), «Ömrümüz çox qısadır» (1973) pyesləri Azərbaycan səhnəsində, Moskvada, ölkənin bir çox teatrlarında tamaşaya qoyulmuşdur.

Dramaturq Həsən Seyidbəyli ilə birlikdə yazıçı Imran Qasımov Sovet Ittifaqı Qəhrəmanı Mehdi Hüseynzadənin Böyük Vətən müharibəsi illərində göstərdiyi qəhrəmanlıqlardan bəhs edən «Uzaq sahillərdə» (1953) əsəri onların hamısına, həm müəlliflərə, həm də baş qəhrəmana ümumdünya şöhrəti qazandırmışdır. Azərbaycan fəhlə sinfinin üç nəsli haqqında yazılmış (1955) «Illər keçir» romanı da oxucuların rəğbətini qazanmışdır.

Tanınmış müəllif Avropa ölkələrinə səfərlərdən sonra 1970-ci ildə «Fransız qobeleni» və 1972-ci ildə «Italiya mozaikası» sənədli povestlərini, Fransa Müqavimət hərəkatından bəhs edən «Ceyran» (1975) bədii povestini nəşr etdirmişdir.

Imran Qasımov 1945-1947-ci illərdə Azərbaycan SSR Kinematoqrafiya Nazirinin müavini vəzifəsində işləmişdir. 1953-1955-ci illərdə «Literaturnıy Azerbaydjan» jurnalının baş redaktoru olmuşdur. O, 1960-cı ildə Azərbaycan SSR Incəsənət Xadimi adına layiq görülmüşdür. 1961-1975-ci illərdə Azərbaycan Yazıçılar Ittifaqı Idarə Heyətinin katibi vəzifəsində çalışmışdır. 1975-ci ildə Azərbaycan Yazıçılar Ittifaqı Idarə Heyətinin birinci katibi vəzifəsinə seçilmişdir. O, 1976-cı ildə SSRI Yazıçılar Ittifaqı Idarə Heyətinin katibi vəzifəsinə seçilmişdir.

Imran Qasımov 1981- ci il aprel ayının 20-də Bakıda vəfat etmiş və Fəxri Xiyabanda dəfn olunmuşdur. Bakıdakı küçələrdən biri onun adını daşıyır.

## *ƏSƏRLƏRI*

Seçilmiş əsərləri.-2 C-də.- B.: Azərnəşr,1988.
C. 1.-B.,1988.- 205 s.
C. 2.-B.,1988.- 267 s.

* * *

Fransız qobeleni.- B.: Azərnəşr, 1970.- 145 s.

Illər keçir.- B.: Gənclik, 1969.- 211 s.

Italiya mozaikası.-B.: Gənclik, 1972.- 164 s.

Uzaq sahillərdə.- B.: Gənclik, 1974.- 310 s.

***HAQQINDA***

Qiyasbəyli Z. Imran Qasımov.- B.: Yazıçı, 1983.- 188 s.

* * *

Nəbiyev B. Söz ürəkdən gələndə.- B.: Yazıçı, 1984.- S.16-30.

Şıxlı I. Xatirəyə dönmuş illər.-B.: Yazıçı, 1980.- S. 308- 311.

***RUS DILINDƏ***

Мы так недолго живем.- Б.: Гянджлик, 1978.- 433 с.

На дальных берегах.- Б.: Азернешр, 1983.- 288 с.

* * *

Гиясбейли З. Суть времени.- Б.: Язычы, 1989.- 202 с.

Исрафилов И. Зачем ты живешь?.- Б.: Ватан, 1995.- 197 с.

***SAMIRƏ EMINOVA***

## 1 DEKABR ÜMUMDÜNYA QIÇS-lə MÜBARİZƏ GÜNÜDÜR

*Dekabr* 01.12




QIÇS (Qazanılmış Immun Çatışmazlığı Sindromu; ingiliscə: AIDS– Acquired Immune Deficiency Syndrome) – XX əsrdə zühur etmiş, buna baxmayaraq hazırda bütün dünyada çox geniş yayılmaqda olan, müasir təbabətin, həmçinin səhiyyənin, bütün bəşəriyyətin və dünya birliyinin ən qlobal problem-lərindən hesab edilən bir patologiyadır. Immun sisteminin virus mənşəli infeksion xəstəliyi olan QIÇS insan orqanizminin tam depressiyasına, infeksiyalara qarşı orqanizmin ümumi müqavimətinin kəskin zəifləməsinə, bütün onkoloji xəstəliklərin inkişafına və s. bu kimi ağır vəziyyətlərə gətirib çıxarır ki, bütün bunlar da bir qayda olaraq ölümlə nəticələnir. QIÇS hal-hazırda praktik olaraq Dünyanın bütün ölkələrində vardır və böyük sürətlə artmaqda davam edir. Belə hesab edilir ki, hər il bu xəstəliyə yoluxmuş şəxslərin sayı iki dəfə artır.

Bu qlobal problem cəmiyyətin bütün təbəqələrini əhatə edir və bütün dünya üzrə sosial-iqtisadi inkişafı sarsıdır. Xəstəliyə yoluxmuş şəxs orta hesabla 5-10 il ərzində sağlam görünür və bəzi hallarda orqanizmdə bu virusun kök salmasından heç özünün də xəbəri olmur. QIÇS-ə yoluxan xəstələrdə əvvəlcə immun sistemi zəifləyir ki, bu da artıq orqanizmin müxtəlif yoluxucu və şiş xəstəliklərindən müdafiə imkanı tamamilə tükənir.

QIÇS özlüyündə bilavasitə ölümə səbəb olmur, lakin ölüm törədən digər xəstəliklərin sürətli (ağ ciyər iltihabı, digər orqanların zədələnməsi, müxtəlif infeksiyalar, xərçəng və s.) inkişafına şərait yaradır.

Belə güman edilir ki, xəstəlik XX əsrin 50-ci illərində Mərkəzi Afrikada özünü göstərməyə başlamış və yeni mutant virus yerli əhaliyə meymunlardan keçmişdir. Daha sonra xəstəlik Afrikadan Haiti adalarına, sonra isə Amerika və Qərbi Avropaya yayılmışdır. Lakin bu xəstəlik ilk dəfə 1981-ci ildə ABŞ-da aşkar olunmuşdur. Azərbaycanda ilk dəfə 1987-ci ildə müəyyən edilmiş IIV-ə (Insanın Immun-çatışmazlığı Virusu) indiyədək

905 nəfər yoluxub, onların 59 nəfəri əcnəbidir. Ötən müddətdə bu xəstəlikdən 89 nəfər ölüb, 100 nəfərdən çox adam xəstəliyin ikinci mərhələsinə keçib. (Bax: Ədəbiyyat siyahısı)

QIÇS xəstəliyinə yoluxma əsasən 3 yolla baş verir:

1. Cinsi əlaqə yolu ilə
2. Damardaxili inyeksiyalar yolu ilə-narkomanlar tərəfindən narkotik maddələrin damardaxili qəbulu zamanı; içərisində virus olan qanın və ya qan preparatlarının sağlam adama köçürülməsi zamanı; virusla infeksiyalaşmış iynə ilə sağlam adama damardaxili inyeksiyalar zamanı və s.
3. Transplasentar yolla-xəstəliyin xəstə anadan bətndaxili dövrdə cift vasitəsilə dölə keçməsi (xəstə anadan uşağa bu xəstəlik laktasiya yolu ilə də keçir).

QIÇS-dən qorunmağın yeganə yolu sağlam həyat tərzi keçirmək və təsadüfi adamlarla münasibətdə ehtiyatlı olmaqdır. Hələ 20 il əvvəl QIÇS xəstəliyinə çox uzaqda olan bir təhlükə kimi baxılmışdır. Amma bugünkü reallıq başqadır. Ən başlıcası profilaktikadır və bu, daha çox insanların özündən asılıdır. Məhz bunu nəzərə alaraq Azərbaycan QIÇS-lə Mübarizə Mərkəzinin təşəbbüsü ilə 1997-ci ildən başlayaraq dünyada ilk dəfə respublikamızda dekabrın 1-dən 10-dək QIÇS-lə mübarizə ongünlüyü keçirilir. BMT-nin IIV– QIÇS Proqramı 2005-2010-cu illərdə Ümumdünya QIÇS-lə mübarizə günlərini **«STOP! AIDS (QIÇS)! Öhdəliklərə əməl edin, bu dəhşətli problemə arxa çevirməyin!»** devizi ilə keçirməyi qərara alıb. Məqsəd əhalinin IIV–QIÇS-lə bağlı biliklərini artırmaq, bu istiqa-mətdə ölkənin müxtəlif əra-zilərində təbliğat və maarifləndirmə işləri aparmaqdır.


HIV/AIDS və insan hüquqları : Beynəlxalq rəhbər prinsiplər /Tərc. və red.: O.Səmədov.– B.,2000.– 120s.

QIÇS (SPID) haqqında nə bilirik? : (45 sual-cavab) .– B.: «Şur», «Cik-Cik», 1993.– 28s.

Qocayev Ə. 1 dekabr QIÇS-ə qarşı beynəlxalq mübarizə günü //Qocayev Ə. Bayramlar və tarixi günlər /Red. R. Ismayılov .– B.: Altun kitab, 2006.– S. 128-129.

* * *

Əsədov B. Milyonların həyatını çürüdən qlobal epidemiya //Azərbaycan.– 2005.– 1 dekabr.– S. 7.

Kərimov R. Bakıda QIÇS-ə həsr olunmuş seminar keçirilir //Azərbaycan.– 2002.– 30 aprel.– S. 7.

Kəbutər. SPID- dən qorun //Yeni Azərbaycan.– 2003.– 26 fevral.– S.10.

Səfərli R. AIDS–ə qarşı bütün ölkələr birləşir: BMT bu aksiyanı hər dövlətin mentolitetini nəzərə

almaqla həyata keçirəcək //Yeni Azərbaycan .– 2001.– 20 iyul.– S.6.
Turan. Naxçıvanda xərçəng və AIDS–in dərmanı tapılıb //Palitra .– 2002.– 14-15 avqust.– S. 9.
Yeni beynəlxalq birlik yaradılır //Azərbaycan.– 2000.– 30 sentyabr.– S. 2.

* * *

СПИД – синдром приобретенного иммунодефицита /В.П. Широбоков, А.И. Евтушенко, Н. М. Ковалева и др.; Под. ред.: В.П.Широбокова.– К.:Здоровья, 1988.– 230 с.
СПИД: Эпидемиология. Клиника. Уход за больными: Пути передачи. Профилактика и программы борьбы.–М.: Медицина, 1990.– 94 с.
Шевелев С.А. СПИД–загадка века.–2-е изд., испр. и доп..–М.: Советская Россия, 1991.– 188 с.

***ADILƏ ABDULLAYEVA***




İnsanların hüquq və azadlıqlarının müdafiə olunması bütün dövrlərdə əhalini narahat edən problemlərdən biri olmuşdur.

1948-ci il dekabrın 10-da BMT-nin Baş Məclisinin 3-cü sessiyasında "İnsan hüquqları üzrə Ümumi bəyannamə" qəbul edilmişdir.

Giriş və 30 maddədən ibarət olan bəyannamədə insanın siyasi, mülki, iqtisadi, ictimai və mədəni hüquqları və azadlıqları elan olunmuşdur. Sonralar bu bəyannamə insan hüququ və əsas azadlıqlarını özündə əks etdirən digər beynəlxalq hüquqi sənədlərin qəbul edilməsi üçün hüquqi baza rolunu oynamışdır.

Həmin Bəyannamədən sonra insan hüquq və azadlıqlarına həsr edilmiş bir sıra beynəlxalq sənədlər, o cümlədən 1959-cu ildə "Uşaq hüquqları Bəyannaməsi", 1960-cı ildə "Müstəmləkə altında olan xalqlara və ölkələrə müstəqillik verilməsi haqqında Bəyannamə", 1963-cü ildə "Bütün ayrı-seçkilik formalarının ləğv edilməsi haqqında" BMT-nin Bəyannaməsi, 1967-ci ildə "Qadınlara münasibətdə ayrı-seçkiliyin ləğv edilməsi haqqında" Bəyannamə, 1957-ci ildə isə "İnsan ləyaqətini alçaldan işgəncələrə, qeyri-insani qəddar münasibətlərə və cəzalara qarşı" bəyannamə və s. hazırlanmış və qəbul edilmişdir.

Hazırda Azərbaycan Respublikası insan hüquqlarının Ümumi Bəyannaməsinə, Helsinki müqaviləsinin yekun aktına və hamılıqla qəbul edilmiş başqa beynəlxalq hüquq və sənədlərə qoşularaq onlarda nəzərdə tutulan bütün hüquq və azadlıqlara vətəndaşların cinsindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq əməl edilməsini, bu hüquq və azadlıqların maneəsiz həyata keçirilməsini təmin edir.

1991-1996-cı illərdə Azərbaycan "İqtisadi, sosial və mədəni hüquqlar" haqqında Beynəlxalq Pakta, "Siyasi və milli hüquqlar" haqqında Beynəlxalq Pakta, 1966-cı il "Uşaq hüquqları haqqında" BMT-nin Konvensiyasına, 1989-cu il "Qadınların siyasi hüquqları haqqında" BMT-nin Konvensiyasına, 1952-ci il "Qa-

dınlara münasibətdə ayrı-seçkiliyin bütün formalarının ləğv edilməsi haqqında" BMT-nin Konvensiyasına 1974-cü il və 1984-cü il "İnsan ləyaqətini alçaldan işgəncələrə, qeyri-insani qəddar münasibətlərə və cəzalara qarşı" Konvensiyaya qoşulmuş, müstəqil dövlət kimi iradəsini ifadə etmişdir.

Beləliklə, 1993-cü ildən etibarən Azərbaycanda demokratik dövlət quruluşunun əsas prioritetlərindən biri olan insan hüquq və azadlıqlarının müdafiəsinin vahid dövlət proqramı əsasında həyata keçirilməsinə başlanılmışdır. Bu proqramın ardıcıllıqla həyata keçirilməsi nəticəsində 1995-ci il noyabr ayının 12-si müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsvermə (referendum) yolu ilə qəbul edilmiş və Milli Məclisə ilk dəfə olaraq çox partiyalılıq əsasında parlament seçkiləri keçirilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 32-ci maddəsində göstərildiyi kimi "hər kəsin şəxsi toxunulmazlıq hüququ vardır. Hər kəsin şəxsi ailə həyatının sirrini saxlamaq hüququ vardır. Qanunla nəzərdə tutulan hallardan başqa, şəxsi həyata müdaxilə etmək qadağandır. Öz razılığı olmadan kimsənin şəxsi həyatı haqqında məlumat toplanılmasına, saxlanılmasına, istifadəsinə və yayılmasına yol verilmir".

Demokratik qaydaların bərqərar edilməsi, insan hüquq və azadlıqlarının müdafiə olunması məsələləri bu gün demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən respublikamızın həyata keçirdiyi islahatların əsas mahiyyətini təşkil edir. Bu baxımdan "İnsan hüquq və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Azərbaycan Respublikası Prezidentinin 22 fevral 1998-ci il tarixli Fərmanı və Azərbaycan Respublikası Prezidentinin 18 iyun 1998-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqları müdafiəsinə dair" Dövlət Proqramı xüsusi əhəmiyyət kəsb edir.

## ƏDƏBİYYAT


Azərbaycan Respublikasının Konstitusiyası: 12 noyabr 1995-ci ildə qəbul edilmişdir. 24 avqust 2002-ci il tarixində olan dəyişiklik və əlavələrlə.- B.: Qanun, 2002.- 100 s.

Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin qısa icmalı/ Tərt. ed. Elmira Süleymanova.- B.: Qanun, 2004.- 173 s.

Babaoğlu H. İnsan hüquqları və azadlıqları.- B.: Elm, 2006.-244 s.

İnsan Haqları və Azərbaycan Respublikasının Cinayət Qanunvericiliyinin təkmilləşdirilməsi məsələləri// Qanun.- 1999.- № 7.- S. 32-36.

İnsan hüquqları və Azərbaycan reallıqları // Qanun.- 1999.- № 5-6.- S. 43-52.
İnsan hüquqları: Bəşər rifahının təməli: şərhlər və beynəlxalq sənədlər/ Tərt. ed. Vahid Pərvizoğlu.- B.: İnsan, 2001.- 608 s.
Məhkəmə və insan haqları.- B.: 2005.- 361s.
Süleymanov E. Azərbaycanda insan hüquqlarının və azadlıqlarının təmin edilməsi və müdafiəsinin vəziyyəti.- B.: Qanun, 2006.- 254 s.

* * *

Права и свобода человека.- М.: Логос, 2006.- 544 с.
Деклорация прав человека и гражданина.- М.: Издат. «Норма», 2000.- 251 с.

***MƏMMƏD MƏMMƏDOV***

## ÇİNGİZ AYTMATOV – 80

*Dekabr*
*12.12.1928*

*YAZIÇI*



Tanınmış qırğız yazıçısı Ç.Aytmatov 1928-ci il dekabr ayının 12-də (Qırğızıstan Respublikasının Kirov rayonu Şəkər qışlağı) anadan olmuşdur. O, 1953-cü ildə Kənd Təsərrüfatı institutunu bitirmiş və zootexnik işləmişdir. Əsərlərini qırğız və rus dillərində yazır. İlk əsəri olan "Qəzetçi Dzüydo" hekayəsi 1952-ci ildə çapdan çıxmışdır. İnsan və cəmiyyət problemi yazıçının yaradıcılığının əsas mövzusudur. "Üz-üzə" (1957), "Cəmilə" (1958), "Sərv boylu dilbərim" (1961; Azərbaycan dilinə "Qırmızı yaylıqlı qovağım mənim" adı ilə tərcümə olunmuşdur), "İlk müəllim" (1962), "Köşək gözü" (1963), "Ana tarla" (1963), "Əlvida Gülsarı" (1967) və s. povestlərini yazmışdır. 1970-ci ildə çapdan çıxmış "Ağ gəmi" povestində mühüm ictimai, mənəvi-əxlaqi problemlər qaldırılır. "Ana tarla" povesti əsasında yazılan "Ana torpağı" pyesi Azərbaycan Dövlət Akademik Milli Dram Teatrında tamaşaya qoyulmuşdur. Əsərlərinin çoxu ekranlaşdırılmışdır.

Yazıçının əməyi yüksək qiymətləndirilmişdir. 1963-cü ildə ona SSRİ Dövlət mükafatı laureatı, 1968-ci ildə isə ona Qırğızıstan SSR Xalq yazıçısı adı verilmişdir.

### *ƏSƏRLƏRİ*

Seçilmiş əsərləri /tərt. İ.Məmmədova. – B.: Çaşıoğlu, 2004. – 447 s.

Seçilmiş əsərləri : 2 c.-də. – B.: Öndər nəşriyyat, 2004; C. 1. – 501 s.; C.2. – 381 s.

Ağ gəmi. Dəniz kənarı ilə qaçan Alabaş : povestlər . – B.: Yazıçı, 1980. – 228 s.

Ana tarla : povest. – B.: Azərnəşr, 1966. – 100 s.

Cəmilə : povest. – B.: Uşaqgəncnəşr, 1961. – 56 s.

Çingiz xanın ağ buludu . – B.: Bədii Tərc. və Ədəbi Əlaqələr Mərk., 1992. – 186 s.
Əlvida, Gülsarı! : povest. – B.: Gənclik, 1969. – 361 s.
Gün var əsrə bərabər : roman və povestlər. – B.: Yazıçı, 1987. – 445 s.
Köşək gözü : povestlər. – B.: Azərnəşr, 1965. – 252 s.
Qiyamət : roman və povest. – B.: Yazıçı, 1991. – 355 s.

* * *

Hacı Kənan. Aytmatovun ürəyi: Çingiz Aytmatov haqqında //Ulduz. – 2004. - № .S. 83

Mahmud Əli. Çingiz Aytmatov: biz nəhəng türk ağacının qolları, budaqlarıyıq:Qırğız yazıçısı Ç.Aytmatovla müsahibə //Əda-lət . – 2006. – 24 mart. – S. 5.

**RUS DİLİNDƏ**

Собрание сочинений: в 3-х т. / Ч. Айтматов.- М.: Мол. Гвардия; Т.1., 1982.-607 с.; Т.2., 1983.-495с; Т.3., 1984.-575 с.

***SƏMAYƏ QULİYEVA***




Islam dünyasının ən müqəddəs bayramlarından sayılan Qurban bayramı bütün müsəlman ölkələrində hər il təmtəraqla qeyd olunur. Azərbaycan müs- təqillik əldə etdikdən sonra Milli Məclisin qəbul etdiyi 1992-ci il 27 oktyabr tarixli «Azərbaycan Respublikasının bayramları haq- qında» Qanununa əsasən Qurban bayramı respublikamızda dövlət səviyyəsində keçirilir.

Qurban ayini islamdan çox-çox əvvəllər ibtidai insanların icra etdiyi bir tədbirdir. Əc- dadlarımız sirlərini bilmədik- lərinə görə qarşısında aciz qal- dıqları təbiətin kortəbii qüv- vələrini «mərhəmətə» gətirmək, sitayiş etdikləri ruhların, mü- qəddəs saydıqları heyvan və predmetlərin «xoşuna gəlmək» üçün yığdıqları qidanın, etdikləri ovun bir hissəsini onlara qurban vermişlər. Qurban vermək yolu ilə qədim insanlar sanki sitayiş etdikləri ruhlardan heyvan və başqa əşyalardan yaşamaq üçün icazə və qüvvə alırdılar.

Müsəlmanlar üçün Həcc zi- yarəti və qurban kəsilməsi ayininin Zilhiccə ayının 10-da keçirilməsi qaydası hicrətin ikinci ilində, yəni 623-cü ildə müəyyənləşdirilmiş-dir.

Islam dinində Qurban bayramı böyük bayram (eyd-əl-kəbir) adlanır. Bayram günü məscidlərdə xüsusi bayram namazı qılınır, dəvə, malqara, davar qurban kəsilir, vəfat etmiş əziz adamların xatirəsini yad etmək əlaməti olaraq evlərdə və qəbiristanlıqlarda dua oxunur, ehsan verilir.

Qurban bayramı haqqında, Quranda deyilir ki, «Allah beytülhəram olan Kəbəni haram ayı (zilhiccəni) Kəbəyə gətirilən boyunları bağsız və bağlı (bo- yunlarına nişan taxılmış və ta- xılmamış) qurbanları insanların (dini və dünyəvi işlərin) düzəlib sahmana düşməsi üçün bir yol müəyyən etdi» (5,97). Şəriətə görə qurbanlıq heyvanın qüsuru olmamalı və onu kəsən bıçağa xüsusi qurban duası oxunmalıdır. Bu qurbanlıq heyvan yeddi din- darın adından kəsilə bilər, lakin fərdi qurban daha savablı sayılır.

Ismayıl Qurbanında kəsilən heyvanlarda bir sıra şərtlər vacib

sayılır. Qurbanlıq kimi seçilən heyvan qoç, iribuynuzlu mal, dana, yaxud da dəvə olmalıdır. Nəsil artımında dişi heyvanların müstəsna rolu olduğuna görə qurbanlıq heyvanın erkək olması daha üstün tutulur. Qurbanlıq qoçun yaşına gəlincə demək lazımdır ki, bu ən azı altıaylıq heyvan olmalıdır. Lakin dana, yaxud dəvənin bir yaşı tamam olsa, daha yaxşıdır.

Qurban bayramı müsəlman ruhaniləri tərəfindən Ibrahim peyğəmbərin öz oğlu Ismayılı Allahın şərəfinə qurban kəsmək niyyətini bildirən dini rəvayətlə əlaqələndirilir. Rəvayətə görə Allah Peyğəmbərin sadiqliyini sınamaq üçün ondan yeganə oğlu Ismayılı qurban kəsməyi tələb edib və Ibrahim peyğəmbər gözünü qırpmadan oğlunun başını kəsmək istərkən, Allahın göndərdiyi mələk Cəbrayıl göydən enib onun əlini saxlayıb, Allahın Ibrahimdən razı qaldığını bildirib və oğlu Ismayılın əvəzinə göndərdiyi qoyunu kəsməyi təklif edib. Bu andan etibarən dindarlar hər il ev heyvanlarından birini Allahın şərəfinə qurban kəsərək Ona öz itaətkarlığını bildirirlər. Ömründə heç olmasa bir dəfə vacib Məkkə və ya Həcc ziyarətinə getməsi və orada qurban kəsməsi də dindarın mühüm borcu hesab olunur.

Qurbanlığın şərtlərindən biri də budur ki, qurban kəsmək yalnız buna imkanı olan varlı adamların boynunda haqdır. Imkanı olmayan adama isə qurban vacib deyil. Qurban kəsmək üçün borc pula heyvan almaq islamda təqdir olunmur, çünki bu bayramın əsas mahiyyəti zənginlər-lə imkansızların birliyi, qardaşlığıdır. Bu bayramda hamı sevinməlidir: varlılar-Allaha xoş gedən əməli icra etdikləri və kasıbları sevindirdiklərinə görə, kasıblar isə dünya nemətindən əldə etdiklərinə və başqalarından gördükləri mərhəmətə və qayğıya görə.

***ƏDƏBIYYAT***

Əliyev H. Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik //Azərbaycan.- 2002.- 22 fevral.- S. 1.

Əliyev I. Qurban bayramı münasibətilə Azərbaycan xalqına təbrik //Xalq qəzəti.-2006.-28 dekabr.-S.1.

* * *

Həcc ziyarəti və Qurban bayramı /Dünya dinləri: Ensiklopedik məlumat kitabı.-B.: Azərbaycan Milli Ensiklopediyası, 2003.- S.441-443.

Kərimov Q. Şəriət və onun sosial mahiyyəti.-B.: Azərnəşr, 1987.- S.73.

Qocayev Ə. Bayramlar və tarixi günlər.-B.:Altun, 2006.-152 s.

Seyidzadə Q.M. Qurban kəsilməsi /Q.M.Seyidzadə Islami söhbətlər: II hissə.-B.:Gənclik, 2002. - S.157.

* * *

Cəfərli Y. Qurban bayramı insanlar üçün yüksək bəşəri mənəvi dəyərlərdən faydalanmaq imkanları yaradır //Azərbaycan.-2006.-10 yanvar.-S.2.
Əliyev A. Həcc ziyarəti //Dirçəliş.-XXI əsr.-2004-2005.-№82-83.-S.82-85.
Mehdiyev A. Islam dünyasının ən böyük bayramı //Azərbaycan.-2006.-10 yanvar.-S.3.
Mehdiyev A. Müsəlmanların əziz bayramı //Azərbaycan.-2005.-20 yanvar.-S.8.
Mikayıloğlu Y. Qurban bayramı həmrəylik, qardaşlıq bayramıdır: Azərbaycan Prezidentinin təbriki mənəvi dəyərlərə yüksək hörmətin bariz ifadəsidir //Azərbaycan.-2006.-12 yanvar.-S.1.
Nərimanoğlu M. Müqəddəs din münasibətilə//Azərbaycan.-2002.-22 fevral.-S.1.
Rzalı R. Səmadan gələn bayram //Azərbaycan.-2002.-22 fevral.-S.5.
Rzalı R. «Qurban insanı yaradana yaxınlaşdırır» //Azərbaycan.-2006 .- 10 yanvar.-S.7.
Rzalı R. Iman bayramı //Azərbaycan.-2003.-11 fevral.-S.4.
Sadıqov B. Ümumxalq məhəbbətinin ifadəsi //Azərbaycan.-2003.-11 fevral.- S.2.

**RUS DILINDƏ**

Алиев И. Поздравление Азербайджанскому народу по случаю Гурбан байрамы //Бакинский рабочий.-2006.-28 декабря.-С.1.

* * *

Александрова Л.Ф. Обряды и здоровье.-М.:Просвещение, 1966 .-179 с.
Байрамов Э. Без законов шариата.-М.: Московский рабочий, 1966.-64 с.
Василов В.Н. Культ святых в исламе.-М.: Мысль,1970.-144 с.
Мусульманские праздники.-М.: Сп.Корона, 1990.-110 с.

* * *

Гаджи Сабир. Гурбан байрамы священный праздник мусульман /Беседа с ректором Кавказского Исламского Университета /Беседу вела С.Касумова //Вышка.-1994.-21 мая.-С.2.
Запятин Г. Гурбан байрамы в святилище Мир Мовсум Ага //Понорама.-1998.-14 апреля.-С.3.

## ZÜLFÜ ADIGÖZƏLOV-110

*Xanəndə*

**1898-**
**31.05.1963**



Azərbaycan xanəndəsi, Azərbaycan Respublikasının Əməkdar artisti Zülfüqar Səməd-bəy oğlu Adıgözəlov 1898–ci ildə Şuşa qəzasının Qaradolaq kəndində anadan olmuşdur.

1927-ci ildə böyük müğənni Cabbar Qaryağdı oğlu Şuşa məclislərinin birində Zülfünü dinlədikdən sonra ona Bakıya gəlib «Müdafiə evi»ndə (indiki Dövlət Filarmoniyasında) işləməyi təklif edir. Böyük sənətkarın atalıq qayğısını hiss edən Zülfü ailəsi ilə Bakıya köçür. Gənc xanəndə «Müdafiə evi»ndə Üzeyir Hacıbəyov, Müslüm Maqomayev, Qurban Pirimov, Seyid Şuşinski kimi sənətkarların qarşısında sınaqlardan müvəffəqiyyətlə çıxır. Elə o vaxtdan Azərbaycan Dövlət Filarmoniyası Zülfü Adıgözəlovun inkişafında əsl sənət rolunu oynayır.

Zülfü Adıgözəlov təkcə xanəndəlik sənəti ilə məşğul olmamışdır. O, 1929-1932-ci illərdə Mirzə Fətəli Axundov adına Azərbaycan Dövlət Opera və Balet Teatrının solisti olmuş, bir sıra rollarda müvəffəqiyyətlə çıxış etmişdir.

1941-ci ildə Zülfü Adıgözəlov Azərbaycan Dövlət Filarmoniyasının Xalq Çalğı Alətləri Orkestri ilə Özbəkistana qastrol səfərinə getmişdir.

Böyük Vətən müharibəsinin ağır illərində Zülfü ön cəbhədə öz mahnıları ilə döyüşçüləri alman - faşist işğalçılarına qarşı mübarizəyə ruhlandırmışdı. Sovet Ordusunun Baş Qərargahı bu münasibətlə onu Fəxri Fərmanla təltif etmişdi. 1943-cü ildə Zülfü Adıgözəlova Azərbaycanın Əməkdar artisti fəxri adı verilmişdir.

Böyük xanəndə bütün qüvvə və istedadını xalq musiqisinin inkişafına həsr etmişdir. Azərbaycan vokal sənətinin inkişafında da onun xidmətləri çox böyük olmuşdur.

Zülfü Adıgözəlovun repertuarı əsasən muğam və təsniflərdən ibarət idi. O, butün muğamları böyük ustalıq və həvəslə oxumuşdur. Böyük sənətkarın «Zabul»una, «Mahur-Hindi»sinə, xüsusilə «Orta segah»ına söz ola bilməzdi.

Böyük sənətkar ömrünün son illərində musiqi məktəblərində muğam dərsi demiş və ecazkar sənətinin sirlərini gənclərə həvəslə öyrətmişdir. Xalqın böyük rəğbətini qazanan Mütəllim Mütəllimov, Qənbər Zülalov, Haşım Kələntərli, Cahan Talışınskaya, Sürəyya Qacar, Sahib Şükürov, Əbülfət Əliyev, Yaqub Məmmədov kimi mahir müğənnilər Zülfü Adıgözəlovun tələbələri olmuşdur.

Ölməz xanəndə 1963-cü il may ayının 31-də Bakı şəhə-rində vəfat etmişdir.

Zülfü Adıgözəlovun anadan olmasının 110 illiyi münasibətilə onun yaradıcılığının daha geniş təbliği üçün kitabxanalarda müxtəlif tədbirlərin oxucu konfranslarının, ədəbi-bədii gecələrin, sual-cavab viktorinalarının, kitab sərgilərinin və s. təşkil edilməsi vacib məsələlərdəndir.

### *ƏDƏBIYYAT*


Şuşinski F. Zülfü Adıgözəlov (F.Şuşinski Azərbaycan xalq musiqiçiləri).-B.:Yazıçı,1985.-S.426-440.

Zülfü Adıgözəlov xatirələrdə /Red. Nahid Hacızadə.-B.: Şur, 1999.- 139 s.

* * *

Əliyev V. Zülfü məktəbi: Zülfü Adıgözəlov – 100 //Xalq qəzeti.-1998.-17 sentyabr. - S.5.

Mahmudova Ş. Xanəndə Z.Adıgözəlov: Şur nəşriyyatı tərəfindən xanəndənin həyat və sənət yolunu əks etdirən «Z.Adıgözəlov xatirələrdə» adlı kitabın nəşr olunması haqqında //Respublika.-1999.- 14 yanvar.- S. 5.

Rzayev N. Muğam sənətinin rəssamı: Görkəmli xanəndə Z. Adıgözəlov haqqında //Azərbaycan.- 2004.-10 oktyabr.-S.5.

Rzayeva V. Rastın Zülfüsü: Xanəndə Z.Adıgözəlov haqqında //Yeni Azərbaycan.- 1999.- 13 may.- S.5.

Teymur M. Uzaqlaşdıqca yaxınlaşan sənətkar : Zülfü Adıgözəlov haqqında //Naxçıvan.- 1999.-5 mart.- S.3.


***SAQIBƏ MEHRƏLIYEVA***

*Ədəbiyyatşünas*



Mir Möhsün Nəvvab Ağamirzadə XIX əsr Azərbaycan elmi-ədəbi-mədəni mühitinin yetişdirdiyi ən böyük simalardan biridir. Nəvvab həm şair, həm ədəbiyyatşünas, həm də tarixçi və riyaziyyatçı kimi tanınmışdır. O, 1833-cü ildə Şuşada anadan olmuş, 85 il ömür sürmüşdür. Nəvvab təhsil almaq üçün heç bir yerə getməmişdir. Lakin ərəb, fars və rus dillərini öyrənməyə böyük səy göstərmişdir. Heç bir musiqi alətində çala bilmədiyi halda o, şərq musiqi nəzəriy-yəsinə dərindən yiyələnmişdir.

O dövrün poeziyası, musiqişünaslığı, rəssamlığı, astronomiyası və s. sahələri haqda söz deyib, fikir yürütmək istərkən Nəvvabı xatırlamamaq mümkün deyildir. Əsrimizin əvvəllərində ədibin «Vüzuhül-ərqam», «Məlumnamə», «Divan», «Nəsihətnamə», «Təzkirə», «Kəşfül-həqiqət» kimi bəzi əsərləri nəşr edilsə də, bunlar tirajların azlığı və ərəb əlifbasında olduqları üçün bu gün əlyazmalara bərabər nüsxələr kimi nadirdir və geniş oxucu kütləsindən çox-çox uzaqdır. Əlyazmalar Institutunda Nəvvabın əlliyə qədər əlyazma kitabı mühafizə edilir. Əsasən avtoqraf nüsxələrdən ibarət olan bu kitablar içərisində eyni əsərin Nəvvabın öz əli ilə işlədiyi, tərtib etdiyi, köçürdüyü iki, üç və hətta dörd nüsxəsinə də rast gəlmək olar. Bütün bu əlyazmalar Nəvvabın yazdığı iyirmidən artıq orijinal, müxtəlif səpgili aşağıdakı əsərləri əhatə edir: «Vüzuhül ərqam», «Divani-əşari-farsi»,«Divani-əşari-türki», «Bəhrül-həzən», «Kifayətül-ətfal», «Nəsihətnamə», «Nurül-ənvar», «Kəşfül-həqiqeyi-məsnəvi», «Ziyaül-ənvar», «Dəvazdəh bənd», «Məvab», «Məzamir», «Şəmsül-hidayət», «Məzlumnamə» və s. «Təzkireyi-Nəvvab» bu əsərlərdən biri, ədəbiyyatşünaslar və şeir-sevərlər üçün ən qiymətlisi və dəyərlisidir. Bu təzkirənin ya-zılması XIX əsr Azərbaycanı, ən əsas isə Şuşa ədəbi mühiti ilə sıx bağlı olub.

XIX əsrdə Azərbaycanda fəaliyyət göstərən ədəbi məclislərdən ikisi- «Məclisi-üns» və «Məclisi-fəramuşan» məhz bu şəhərdə toplanmışdır. Bu ədəbi məclislər mədəni həyata öz

təsirini göstərmiş, ədəbiyyatın inkişafına əvəzsiz xidmətlər etmişdir. Nəvvab bu məclislərdən birinə - Asi, Fatma xanım Kəminə, Katib, Baki, Xarrat Qulu, Yusifi, Hicri və başqa-larından ibarət olan otuza yaxın şair, musiqiçi və alimin toplaşdığı «Məclisi-fəramuşun»a rəhbərlik etmişdir. Elmin müxtəlif sahələrindən, incə sənətdən, musiqidən söhbət açılsa da, ana xətt yenə də poeziya olaraq qalırdı. Klassik irsin araşdırılması, poeziya və ədəbi nümunələrin təhlili, başqa ədəbi məclis üzvləri ilə şeirləşmə, bu şeirləşmənin nəticələrinin təhlili-məclisin gördüyü bu ardıcıl, təmənnasız, milli poeziyaya məhəbbət dolu qayğılı xidmətlər «Təzkireyi-Nəvvab» kimi bir əsərin meydana gəlməsinə səbəb olmuşdur. Mir Möhsün Nəvvab özünün təzkirədə etiraf etdiyi kimi, bu əsəri yaxın dostlarının xahişi ilə 1891-ci ildə yazmağa başlamış və bitirdikdən sonra da (1892) ardıcıl olaraq üzərində işləmişdir. Onu təzkirədə olan çoxsaylı qeydlər və məqsədyönlü boş buraxılmış səhifələr də sübut edir. Bu əsərdə yüzə qədər Qarabağ şairi haqqında məlumat və onların poetik irslərindən gözəl nümu-nələr verilmişdir.

## *ƏSƏRLƏRİ*


Divan.-B.: Şuşa,1999.-191s.

1905-1906-ci illərdə erməni-müsəlman davası.-B.: Azərbaycan, 1993.-193s.

Nəsihətnamə: Seçilmiş parçalar /Tərt.tərc. və ön sözün müəllifi M.Məmmədova.-B.:Yazıçı, 1987.-136 s.

Nəsihətnamə /Red. Ə.Sayılov.-B.: Araz, 2005.-55 s.

Təzkireyi Nəvvab.-B.:Azərbaycan, 1998.-559 s.

Vüzuhül-ərqam /Risaləni çapa hazırlayan, ön söz, lüğət və şərhlərin müəllifi Z.Səfərova.-B.:Elm,1989.-83 s.


## *HAQQINDA*


Əliyev Z. Mir Möhsün Nəvvabın rənglər aləmində.-B., 1996.-82 s.

Ismayıl qızı G. Mir Möhsün Nəvvab: Biblioqrafik vəsait.-B., 2001.-10 s.

* * *

Şərifova O. Unudulmayan böyük sima /Mir Möhsün Nəvvabın anadan olmasının 170 illiyi ilə bağlı tədbir //Azərbaycan.-2003.-26 aprel.-S.6.


*ALIŞOVA NAİLƏ*

## *KITABXANA IŞÇILƏRI ÜÇÜN NƏZƏRDƏ TUTULMUŞ SEMINAR MƏŞĞƏLƏLƏRININ TƏXMINI MÖVZULARI*

### *2008-ci il*

### *Yanvar*

«Azərbaycanda kitabxanaların fəaliyyətinin yaxşılaşdırılması haqqında» (20 aprel 2007-ci il) Azərbaycan Respublikası Prezidentinin Sərəncamı ilə əlaqədar kitabxanaların qarşısında duran vəzifələr. Məruzə, metodik məsləhətlər

Oxuculara kitabxana-informasiya xidmətinin təşkili. Metodik tövsiyələr

Oxucu borclarının ləğvi sahəsində kitabxanaların görəcəyi işlər. Söhbət

Kitabxana işi təşkilinin əsas prinsipləri. Metodik tövsiyələr

Kitabxanalarda tövsiyə biblioqrafik vəsaitlərin tərtibi. Metodik məsləhətlər

Kitabxanalarda kütləvi tədbirlərin keçirilməsi metodikası. Metodik tövsiyələr

**20 Yanvar qan yaddaşımızdır. Məruzə, sərgi**

Maarif xadimi, ədəbiyyatşünas, publisist, tərcüməçi Köçərli Firidun bəy Əhməd bəy oğlunun anadan olmasının (26.01.1863) 145 illiyi. Məruzə, ədəbi-bədii gecə, sərgi

### *Fevral*

Azərbaycan Respublikası Prezidenti I.Əliyevin 11 fevral 2004-cü il tarixli «Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafının Dövlət Proqramı (2004-2008-ci illər)» Fərmanının təbliği ilə əlaqədar olaraq kitabxanaların qarşısında duran vəzifələr. Məruzə, söhbət, sərgi

Elektron kitabxanaların formalaşdırılmasının metodları. Məruzə, metodik məsləhətlər

Gənclərin hüquqi biliklərinin təbliğində kitabxanaların rolu. Metodik məsləhətlər, sərgi

Kitabxana işinə dair normativ aktlar. Məruzə, söhbət

Kitabxana fondlarının məzmunca köhnəlmiş ədəbiyyatdan təmizlənməsi və mühafizəsi. Metodik tövsiyələr

Azərbaycan dilinin, adət-ənənələrinin qorunmasında təhsilin, məktəbin rolu. Məruzə, metodik tövsiyələr

**Xocalı soyqırımının günahkarları tarix və bəşəriyyət qarşısında gec-tez cavab verməlidirlər (26 fevral). Məruzə, anım günü, sərgi**

SSRI Xalq artisti, Dövlət mükafatı laureatı, Lenin mükafatı laureatı, M.F.Axundov adına Respublika mükafatı laureatı, bəstəkar Qarayev Qara Əbülfəz oğlunun anadan olmasının (05. 02. 1918) 90 illiyi

## *Mart*

Azərbaycan Respublikası Prezidentinin «Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında» 12 yanvar 2004-cü il tarixli Sərəncamı ilə alınmış kitabların kitabxanalarda işlənilməsi qaydaları. Metodik tövsiyələr

Oxucuların bədii-estetik tərbiyəsində kitabxanaların rolu. Metodik tövsiyələr

Uşaqların vətənpərvərlik tərbiyəsində kitabxanaların rolu. Metodik məsləhətlər

Milli mənəvi irsimizin qorunması və təbliğində muzeylərin rolu. Məruzə, metodik tövsiyələr, sərgi

Müasir dövrdə bədii ədəbiyyatın təbliği yolları. Metodik tövsiyələr

**Novruz Bayramı Günü (20-21 Mart). Bayram şənliyi, sərgi**

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Rzayev Anar Rəsul oğlunun anadan olmasının (14.03.1938) 70 illiyi. Məruzə, sərgi, ədəbi-bədii gecə

**Azərbaycanlıların Soyqırımı Günü (31 Mart). Məruzə, sərgi**

## *Aprel*

«Azərbaycan Respublikasında monumental heykəltaraşlıq abidələri, xatirə, memorial və memarlıq kompleksləri haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı» (2 aprel 2007-ci il) ilə əlaqədar görüləcək işlər. Metodik tövsiyələr

Kitabxana fondlarının əlaqəli komplektləşdirilməsinin əsas prinsipləri. Metodik məsləhətlər

Kitabxana menecmenti və onun hüquqi əsasları. Metodik məsləhətlər

Informasiya cəmiyyəti və elektron kataloqların əhəmiyyəti. Məruzə

Azərbaycan tarixinə dair ədəbiyyatın kitabxanalarda təbliği. Metodik məsləhətlər, sərgi

Kitabxanalarda elektron nəşrlə-rin yaradılması. Məruzə, söhbət

**Kəlbəcərin işğal günü (3-4 aprel 1993). Məruzə, söhbət, sərgi**

Azərbaycanın Əməkdar elm xadimi, professor Paşayev Mir Cəlal Əli oğlunun anadan olmasının (26. 04. 1908) 100 illiyi

Oftalmoloq, professor, akademik Əliyeva Zərifə Əziz qızının anadan olmasının (28.04.1923) 85 illiyi

Nasir, dramaturq Qədirzadə Salam Dadaş oğlunun anadan olmasının (10.04.1923) 85 illiyi

*May*

«Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında» Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (6 mart 2007-ci il) ilə əlaqədar mədəni-maarif müəssisələrində görüləcək işlər haqqında. Metodik tövsiyələr

Kitabxanalarda metodiki fəaliyyətin təkmilləşdirilməsi. Metodik tövsiyələr

Kitabxanalarda oxuculara xidmət işinin avtomatlaşdırılması. Metodik məsləhətlər

Kütləvi kitabxanalarda oxuculara soraq-biblioqrafiya xidmətinin təşkili. Metodik tövsiyələr

Azərbaycanın mədəniyyətinə, milli-mədəni nümunələrinə erməni təcavüzü. Məruzə, mühazirə

Ümummilli lider Əliyev Heydər Əlirza oğlunun anadan olmasının (10.05.1923) 85 illiyi

Azərbaycanın Xalq yazıçısı, Əməkdar incəsənət xadimi Elçinin anadan olmasının (13.05. 1943) 65 illiyi

**Şuşa qisas gününü gözləyir (08.05.1992). Sərgi, məruzə**

**Faşizm üzərində Qələbə günü (09.05.1945). Məruzə, sərgi**

**Laçın faciəsi unudulmazdır (17.05.1992). Məruzə, söhbət,**

**sərgi**

*Iyun*

«Azərbaycan Respublikasında insan hüquqları gününün təsis edilməsi haqqında»: Azərbaycan Respublikası Prezidentinin Sərəncamı (18 iyun 2007-ci il) ilə əlaqədar kitabxanaların görəcəyi işlər. Metodik tövsiyələr

Kitabxanalarda sitatların, izahlı mətnlərin tərtibinə verilən elmi və estetik tələblər. Metodik tövsiyələr

Ana dilinə dövlət qayğısı. Məruzə, mühazirə

Məktəblilərin milli şüur və milli ləyaqətinin tərbiyə edilməsində uşaq kitabxanalarının rolu. Metodik tövsiyələr

Kitabxanalarda ölkəşünaslıq (diyarşünaslıq) üzrə biblioqrafik işin təşkili. Metodik məsləhətlər

Dağlıq Qarabağın tarixinə aid ədəbiyyatın kitabxanalarda təbliği. Metodik tövsiyələr, məruzə, sərgi, söhbət

Narkomaniya və narkobiznesə qarşı mübarizədə kitabxanaların rolu. Metodik tövsiyələr, məruzə, sərgi, söhbətlər

Şair Ismayılzadə Mikayıl (Mikayıl Müşfiq) Əbdülqədir oğlunun anadan olmasının (05.06. 1908) 100 illiyi

**Milli Qurtuluş Günü (15 Iyun). Məruzə, mühazirə, söhbət**

**Milli Silahlı Qüvvələr Günü (26 Iyun). Məruzə, sərgi**

**Dövlət Qulluqçularının Peşə bayramı (23.06.2006). Məruzə**.

*Iyul*

Azərbaycan Respublikasının Prezidenti Ilham Əliyevin 28 sentyabr 2006-cı il tarixli «Azərbaycan Respublikasında ekoloji vəziyyətin yaxşılaşdırılmasına dair 2006-2010-cu illər üçün Kompleks tədbirlər planı» təsdiq edilməsi haqqında Sərəncamı ilə əlaqədar kitabxanaların qarşısında duran vəzifələr. Metodik tövsiyələr

Qəhrəmanlıq dastanları və hərbi vətənpərvərlik tərbiyəsi. Metodik tövsiyələr, sərgi

Uşaq və məktəb kitabxanalarında ölkəşünaslıq kataloq və kartotekasının təşkili metodikası. Metodik məsləhətlər

Kitabxana fondunun uçotu və ədəbiyyatın işlənməsi qaydaları. Məruzə, metodik məsləhətlər

Internetdə axtarışın üsulları və metodikası. Söhbət

**Milli Mətbuat və Jurnalistika Günü (22 Iyul). Söhbət**

Informasiyalaşdırılmış cəmiyyətdə kitabxanaların yeri. Məruzə, metodik tövsiyələr

**Ağdam rayonunun işğal günü (23 iyul 1993). Məruzə, söhbət**

*Avqust*

Milli-mədəni irsimizin qorun-ması və təbliğində kitabxanaların rolu. Metodik məsləhətlər

Kitabxana fondlarının mühafi-zəsi və istifadəsi haqqında əsas qaydalar. Metodik tövsiyələr

Dövri mətbuat informasiya sisteminin tərkib hissəsidir. Məru-zə

Uşaqların milli ruhda böyüməsində, onlarda yüksək zövq formalaşdırmaqda nitqin və oyunların rolu. Metodik məsləhətlər

H.Əliyev adına fond Azərbaycanın gələcəyinə xidmət edir. Məruzə, mühazirə

**Azərbaycan Əlifbası və Azərbaycan Dili Günü (1 Avqust). Məruzə**

Azərbaycanın Xalq rəssamı, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı, qrafik Kazımzadə Kazım Məmmədəli oğlunun anadan olmasının (10.08. 1913) 95 illiyi. Məruzə, sərgi

**Cəbrayıl rayonunun işğal günü (8 avqust 1993). Söhbət, sərgi**

**Füzuli rayonunun işğal günü (23 avqust 1993). Söhbət, anım günü**

**Qubadlı rayonunun işğal günü (31 avqust 1993). Söhbət, sərgi**

*Sentyabr*

Azərbaycan Respublikası Prezidentinin 17 aprel 2006-cı il tarixli «Xüsusi istedada malik olan uşaqların (gənclərin) yaradıcılıq potensialının inkişafı üzrə Dövlət Proqramı (2006-2010-cu illər)» Sərəncamı ilə əlaqədar mədəni-maarif müəssisələrinin qarşısında duran vəzifələr. Metodik tövsiyələr, məruzə, söhbət

Gənclərin vətənpərvərlik hisslərinin formalaşmasında kitabxanaların rolu. Məruzə, mühazirə

Informasiya cəmiyyəti və kitabxanalar. Məruzə, metodik tövsiyələr

Kitabxana fondunun düzülüşü. Metodik məsləhətlər

Kitabxanalarda milli adət və ənənələrin, bayram və tarixi günlərin təbliğinin forma və metodları. Metodik tövsiyələr

**Bilik Günü (15 sentyabr). Məruzə, söhbət**

**Milli Musiqi Günü (18 sentyabr). Məruzə, söhbət**

Azərbaycanın Xalq artisti, Əməkdar incəsənət xadimi, bəstəkar Məlikov Arif Cahangir oğlunun anadan olmasının (13.09.1933) 75 illiyi. Məruzə, sərgi

*Oktyabr*

Informasiya texnologiyalarının tətbiqi ilə əlaqədar kitabxanalarda oxuculara xidmət işinin təşkili. Metodik tövsiyələr

Dağlıq Qarabağ Muxtar Vilayətinin yaradılması və onun zərərli nəticələri. Məruzə və mühazirə, biblioqrafik icmal

Bədii ədəbiyyatın I-IV sinif şagirdləri arasında təbliği üsulları. Metodik tövsiyələr

Şagirdlərdə vətənpərvərlik tərbiyəsinin aşılanmasında H.Əli-yev şəxsiyyətinin rolu. Məruzə, mühazirə, sərgi

**Beynəlxalq Ahıllar Günü (1 Oktyabr). Söhbət**

Azərbaycanın Xalq şairi, Əməkdar mədəniyyət işçisi, şair, tərcüməçi, publisist, Ibrahimov Məmməd (Məmməd Araz) Infil oğlunun anadan olmasının (14.10.1933) 75 illiyi. Məruzə, ədəbi-bədii gecə, sərgi

**Ramazan Bayramı (2-3 Oktyabr) Günü. Məruzə, söhbət**

**Zəngilan rayonunun işğal günü (30 oktyabr 1993). Söhbət**

*Noyabr*

Kitabxana fonduna rəhbərliyin təşkili və metodikası. Metodik tövsiyələr

Mərkəzləşdirilmiş Kitabxana Sistemlərində işin təşkili. Metodik məsləhətlər

Elektron resurslardan istifadə (Ayrı-ayrı kitabxanaların saytları, elektron kataloqlar və tam mətnlər). Metodik məsləhətlər

Kitabxanalarda biblioqrafik icmalların hazırlanması və keçirilməsi. Metodik məsləhətlər

Kitabxanalarda illik, rüblük və aylıq iş planlarının tərtibi metodikası. Metodik tövsiyələr

**Beynəlxalq Əlillər Günü (3 Noyabr). Məruzə, söhbət**

**Konstitusiya Günü (12 Noyabr). Məruzə, söhbət**

**Milli Dirçəliş Günü (17 Noyabr). Məruzə, mühazirə**

Azərbaycanın Əməkdar artisti, Dövlət mükafatı laureatı, aktyor Məmmədov Həsən (Əbülhəsən) Ağaməmməd oğlunun anadan olmasının (22.11.1938) 75 illiyi. Məruzə, sərgi

*Dekabr*

Kitabxanalara yeni gələn oxucularla iş. Metodik məsləhətlər

«Modern kitabxana nə deməkdir?». Məruzə

«Kitabxana işi haqqında» Azər baycan Respublikasının Qanunu hüquqi dövlət sənədidir. Məruzə

Islam adət-ənənələri milli məişətdə. Məruzə, söhbət

MARC formatlarının mahiyyəti və ondan istifadə qaydaları. Metodik məsləhətlər

Kitabxanalarda uçot, hesabat və statistika işi. Metodik tövsiyələr

Azərbaycanın Xalq artisti, müğənni Həsənova Gülxar Ibrahim qızının anadan olmasının (10.12. 1918) 90 illiyi. Məruzə, sərgi

**Xankəndi (26.12.1991) qələbə və azadlıq gününü gözləyir. Məruzə, söhbət, sərgi**

**Dünya Azərbaycanlılarının Həmrəylik Günü (31 Dekabr). Məruzə, söhbət, metodik tövsiyələr**

**Qurban Bayramı (10-11 Dekabr) Günü. Məruzə, söhbət**

***MÜNDƏRICAT***

*Əlamətdar və tarixi günlər təqvimi* ……………………………….. **3**

*Tofiq Kazımov-85*…………………………………………………… **17**

*Zəhra Quliyeva-85*…………………………………………… **20**

*Firidun bəy Köçərli-145*…………………………………………… **23**

*Corc Bayron- 220*…………………………………………… **26**

*Landau Lev Davidoviç – 100* …………………………………… **28**

Vısotski Vladimir Semyonoviç -70………………………… **30**

*Krılov Ivan Andreyeviç - 240*…………………………………… **32**

*Jül Vern-180*…………………………………………………… **34**

*Budaq Budaqov-80*…………………………………………… **36**

*Səyavuş Sərxanlı-65*…………………………………………… **40**

*Sergey Vladimiroviç Mixalkov - 95*………………………… **42**

*Ənvər Məmmədxanlı-95*………………………………………… **44**

*Makarenko Anton Semyonoviç -120*………………………… **47**

*Boris Nikolayeviç Polevoy - 100* ………………………… **49**

*Akademik Milli Dram Teatrı-125*………………………………… **51**

*Samət Əlizadə-70*……………………………………………… **53**

*Aşıq Şəmşir-115*………………………………………………… **56**

*Kələntər Kələntərli-75*…………………………………………… **59**

*Novruz bayramı*………………………………………………… **62**

*Rüfət Əhmədzadə-75*…………………………………………… **67**

*Aleksandr Nikolayeviç Ostrovski – 185*............................ **69**

*Lütfiyar Imanov-80*........................................................ **71**

*Mayn Rid Tomas – 190* ............................................ **74**

*Salam Qədirzadə-75*.................................................... **76**

*Tarixi Abidələrin Beynəlxalq Mühafizəsi Günü*…………………… **79**

*Həsən Turabov-70*……………………………………………………… **85**

*Ümummilli lider Heydər Əliyev-85*........................................ **87**

*Elçin-65*.......................................................................… **98**

*Mehdi Məmmədov-90*...................................................... **103**

*M.F.Axundov adına Azərbaycan Milli Kitabxanası-85*…………… **106**

*Rəşid bəy Əfəndiyev-145*………………………………………… **113**

*28 May Respublika günü*.............................................. **116**

*Hökümə Qurbanova-95*.................................................. **119**

*Nigar Rəfibəyli-95*........................................................ **122**

*Ceyms Oldric-90*……………………………………………....…...... **125**

*Yevtuşenko Yevgeniy Aleksandroviç -75* ……………….………… **127**

*Abdulla Sur-125*............................................................. **128**

*Qasım Qasımzadə-85*...................................................... **130**

*N.Ç.Çernışevski-180*...................................................... **132**

*Tolstoy Lev Nikolayeviç -180* ………………………………………… **135**

*Həmzətov Rəsul Həmzətoviç-85*…………………………….……… **137**

*Arif Məlikov-75*.......................................................... **139**

*Firəngiz Əhmədova-80*.................................................. **142**

*Azad Mirzəcanzadə-80*……………..……………………..……….. **145**

**G***ülhüs***e***yn Hüseynoğlu-85*…..……………………………..…… **149**

*Rasim Ocaqov-75*…….………………..…………………………… **152**

*Imran Qasımov-90*……..…………………….……..…….…….. **155**

*1 Dekabr Ümumdünya QIÇS-lə Mübarizə Günüdür*……………..…… **158**

*Ümumdünya Insan Hüquqları Bəyannaməsi 60* ………..……… **161**

*Çingiz Aytmatov – 80* …………………………………….……… **164**

*Qurban bayramı*……………………………………………………… **166**

*Zülfü Adıgözəlov-110*…………………………………………..…… **169**

*Mir Möhsün Nəvvab-175*…………………………………..……… **171**

*Kitabxana işçiləri üçün nəzərdə tutulmuş seminar məşğələlərinin təxmini mövzuları (2008)*……………………………………..………… **173**

***2008-CI IL ÜÇÜN***
***ƏLAMƏTDAR VƏ TARIXI GÜNLƏR TƏQVIMI***


*Nəşriyyat redaktoru:* ***T.Ağamirova***

*Korrektorlar:* ***Ş.Əhmədova***
***S.Əlisgəndərova***

*Kompyuter dizaynı:* ***N.Şahbazova***



**Ünvan: AZ-1000 Bakı ş., Xaqani küç.29**
**E-mail: anl @ aznet. org**



**M.F.Axundov adına Azərbaycan**
**Milli Kitabxanasının mətbəəsində**
**ofset üsulu ilə çap olunmuşdur.**
**Sifariş 33**
**Çapa imzalanmışdır: 11.XII.2007**
**Tirajı: 200**
**Pulsuz**